ƏHMƏD CAVAD

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

14772

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

"ŞƏRQ-QƏRB"
BAKI-2005

84(5)/2б
С 33

*Bu kitab "**Əhməd Cavad.** Seçilmiş əsərləri. İki cilddə"*
*(Bakı, Azərnəşr, 1992) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Əli Saləddin**

**894.3611 - dc 21**
**AZE**
**Əhməd Cavad. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2005, 296 səh.

"Cümhuriyyət" deyilən zaman yada hamıdan əvvəl Əhməd Cavad düşür. Üçrəngli poeziya bədii yaddaşa ilk öncə məhz onun qələmi ilə həkk olunmuşdur. Gerbimiz öz rəngini, himnimiz öz musiqisini, marşımız öz ritmini bu böyük şairin poeziyasından alıbdır.

Milli oyanış, xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış, əski adət və inamlara, xalqın yaddaşına qayıdış kimi duyğular Əhməd Cavad şeirlərinin ruhuna hopmuşdur. Şairin yaradıcılığında Azərbaycan, Qafqaz, Turan, Türk dünyası obrazları qabarıq verilibdir.

Bu kitabda görkəmli milli şairimizin mədrəsə şeirlərindən başlamış, Birinci dünya müharibəsi, Azərbaycan Xalq Cümhuriyyəti dövrü və sonrakı illərdə qoşduğu mənzum əsərlər, o cümlədən etnoqrafik etüd və hekayələri toplanmışdır.

**ISBN 9952-418-24-5**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı
ilə nəşr olunur və ölkə kitabxanalarına
hədiyyə edilir

## CÜMHURİYYƏT DÖVRÜ VƏ ONUN POEZİYADA YADDAŞI – ƏHMƏD CAVAD

"İntibah" – deyəndə ilkin xatırlanan Nizami olur. "Məhəbbət" deyəndə birinci Füzulinin adı çəkilir. "Cümhuriyyət" deyəndə yada hamıdan əvvəl Əhməd Cavad düşür.

Üçrəngli bayraq emblemi var tariximizdə. Üçrəngli poeziya bədii yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur.

Əhməd Cavad (Cavad Məmmədli oğlu Axundzadə 1892-1937) Şəmkir rayonunun Seyfəli kəndində anadan olmuşdur. Kənd məktəbini bitirdikdən sonra təhsilini Gəncədə müsəlman ruhani seminariyasmda (1906-1912) davam etdirmiş, burada rus, ərəb, fars dillərini mükəmməl öyrənmiş, Hüseyn Cavid və Abdulla Sur kimi görkəmli ziyalıların tələbəsi olmuşdur. Poeziya ilə də ilk dəfə Gəncədə təhsil illərində maraqlanmış, 1910-cu ildən başlayaraq lirik şeirlər və təqidi məqalələrlə müxtəlif qəzet və jurnallarda çıxış etmişdir.

Birinci dünya müharibəsi illərində o, rus-türk cəbhəsi xəttində müharibədən zərər çəkmiş dinc əhaliyə yardım göstərən cəmiyyətin üzvü və katibi olmuş, inqilabdan əvvəl (1913-cü ildən başlayaraq) və sovet hakimiyyətinin ilk illərində Gəncədə, Hacıkənddə, Quba rayonunun Xulux və Laqer kənd məktəblərində, həmçinin, Bakıda müəllimliklə məşğul olmuş, Ali Pedaqoji İnstitutu bitirmiş (1926), ilk dərsliklərin və dərs vəsaitlərinin yaradılmasında bir maarifçi-pedaqoq kimi yaxından iştirak etmişdir.

1922-ci ildə Bakıda (fəhlə fakültəsində), 1924-cü ildə isə Nərimanov adına texnikumda dərs demişdir. Ədəbiyyat cəmiyyətinini katibi (1924-1926), "İnqilab və mədəniyyət" dərgisinin məsul kitibi (1925), Kənd Təsərrüfatı texnikumunun müəllimi (1929), Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti (1927-1934), həmin instutun dilçilik kafedrasının rəhbəri (1934-1935) vəzifələrində işləmişdir.

1934-cü ildə Azərbaycan yazıçılarının I qurultayına nümayəndə seçilən Ə. Cavad 1935-ci ildən ömrünün sonuna kimi Azərnəşrin bədii şöbəsində redaktor kimi fəaliyyət göstərmişdir.

Əhməd Cavad "Qoşma" (1916), "Dalğa" (1919), "Sinfi mübarizə" (1921), "Şeirlər" (1958), "Çırpınırdı Qara dəniz" (Ankara, 1991), "Seçilmiş əsərlər" (1992) kitablarının, külli miqdarda publisist məqalənin, onlarca nəsr əsərinin müəllifidir. Onun poetik əsərləri zərif lirik-romantik üslubu, dil təravəti, realist və demokratik məzmunu, sadəliyi və xəlqiliyi ilə seçilir.



Şairin bədii-siyasi ideya dünyası da təbiət və sevgi lirikası qədər çeşidli və zəngindir. Milli tarix, fəlsəfə və mənəviyyatla bağlı elə bir motiv yox idi ki, Əhməd Cavad ona toxunmamış olsun. Təkcə üçrəngli bayrağa altı nəğmə yazıb, "Dilimiz" şerini (1913) qələmə alıb, əlifbaya poeziya həsr edib. C.Cabbarlı ilə birgə latın əlifbasını müdafiə edən ilk iki ziyalıdan biri olub. Türklərlə birgə Balkan hərbində iştirak edib. Birinci dünya müharibəsində şərq cəbhəsində ermənilərə qarşı vuruşub. Şəhid məzarını və obrazını qələmə alıb; didərginlə, qaçqınla, girov düşənlə təmasda olmaq hələ 90-cı illərdən çox-çox əvvəl ilk dəfə onun taleyinə qismət düşüb.

Türkün başında qatılaşan dini, milli, qövmi genosidə qarşı türk birliyi ideyasının beşiyi başında duranlardan biri olub. Elə bütün bunlara görə də onu hamıdan çox təqib ediblər, "xalq düşməni", "müsavat şairi" anlamına və obrazına tuşlanan bütün zərbələr ona dəyib. Üç dəfə həbs olunub, həyat yoldaşını sürgünə, üç oğlunu koloniyaya göndəriblər.

Müsavatın ilk himni, ilk marşı, ilk bayrağı onun adı ilə bağlı olduğu kimi, ilk şəhidi, 37-də mehraba gətirdiyi ilk qurban da Əhməd Cavad olub.

Əhməd Cavadın sovet dövrü poeziyası da fəal ideya məzmunu, inqilabi romantikası, lirizmi, obrazlılığı ilə seçilir. Əhməd Cavad Azərbaycan ədəbiyyatı tarixinə həm də görkəmli tərcüməçi kimi daxil olmuşdur. O, Şekspirin "Otello" pyesini, A.S.Novikov-Priboyun "Sualtı səfər", A.S.Puşkinin "Kapitan qızı", "Tunc atlı", F.Berezovskinin "Ana", M.Qorkinin "Mən necə oxumuşam", "Mənim darülfünunlarım", "Çocuqluq", V.P.Kinin "O tayda", T.Şevçenkonun "Kobraz", F.Rablenin "Qarqantua və Pantaqruel", B.Ronin "Od uğrunda mübarizə" əsərlərinin bədii tərcüməsinin müəllifidir. 1930-cu ildə gürcü ədəbiyyatının klassiki Şota Rustavelinin məşhur "Pələng dərisi geymiş pəhləvan" poemasını orijinaldan azərbaycancaya çevirmiş və həmin tərcümə kitab halında Bakıda 1978-ci ildə nəşr edilmişdir.

Şəxsiyyətə sitayiş dövrünün zorakılığına məruz qalan Əhməd Cavadın həyatı 1937-ci ilin 9 oktyabrında – şair 45 yaşmda ikən faciəli şəkildə qırılmışdır.

* * *

Milli suveren, müstəqil Azərbaycan dövlətdən, cəmiyyətdən əvvəl ideologiyada mövcud olmuşdur. Məhəmməd Əmin Rəsulzadəni, Yusif bəy Nəsibbəyovu, Fətəli Xan-Xoyskini bədii fikir ictimai təfəkkürdən daha əvvəl yaratmışdır. Onlardan biri, bəlkə də birincisi – Əhməd Cavaddır. "Poeziyanın Rəsulzadəsi" – mənə elə gəlir ki, Əhməd Cavada verilən ən dəqiq qiymətlərdən birisi belədir.

"İntibah" – deyəndə ilkin xatırlanan Nizami olur. "Məhəbbət" deyəndə birinci Füzulinin adı çəkilir. "Cümhuriyyət" deyəndə yada hamıdan əvvəl Əhməd Cavad düşür.

Üçrəngli bayraq emblemi var tariximizdə. Üçrəngli poeziya bədii yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur.

Səma qövsi-güzehi, bədii spektr burada da üç boyadan ibarətdir: Göy-gölün mavisi, dan yerinin qızartısı və dini-mənəvi-milli ekologiyanın yaşılı! Bu üç rəng həyatda olduğu kimi, poeziyada da eyni məqsədlərə xidmət etmişdir.

Adətən, deyirlər: Ay da, ulduz da, mavi də, qırmızı da və yaşıl da səmadan, ucadan, zirvədən enib gəlib bayrağımıza. Doğrudur, səmadan, amma poeziyanın səmasından! Bu səmanı bədii, poetik kətanda yaradanlardan biri Əhməd Cavad və onun fırçası olub. Təsəvvür edin: gerbimiz öz rəngini, himnimiz öz musiqisini, marşımız öz ritmini Əhməd Cavadın poeziyasından alıb.

Azərbaycanda milli parlamentın də, milli poeziyanın da o illər müştərək simvolikası olub. O qədər müştərək ki, bəzən hətta qarışdırıblar: "Hilal" deyəndə Cavad nəyi nəzərdə tutub – üfüqdəki ayı, ya üçrəngli bayraqdakı emblemi? Yaxud şair "Bir ulduz parladı uzaq üfüqdə" – deyəndə söhbət hansı ulduzdan gedir: sökülən dan yerindən, sübh ulduzundan, yoxsa istiqbal və cümhuriyyət ünvanlı ulduzdan? O dövrdəki milli-rəsmi simvolikanın ayrılıqda hər rəmzini Əhməd Cavadın şeirlərindən tapmaq və toplamaq olar.

O zaman parlamanda yeganə müştərək bir kürsü də olub: öndər Rəsulzadə ilə, nazir Yusif bəylə birlikdə o kürsüdə bir də şair Əhməd Cavadzadə oturub.

"Cümhuriyyət şairi" kimi Ə, Cavad öz poeziyasında hər şeydən əvvəl azadlığı və Vətən şərəfini tərənnüm edir. 1912-ci ildə azəri türkləri arasından toplanan "Qafqaz könüllüləri" tərkibində İstanbulun



azad olunmasında iştirak etməsi ona səbəb olur ki, türk azadlığı miqyasında istiqlal mövzusu onun poeziyasında yeni vüsətli leytmotivə çevrilir. Həmçinin Batum, Qars, Ərdahan, Trabzon, Ərzurum, Anadolu, Bursa şəhərlərində olması (1914-1918) türklük ideologiyasının bu poeziyada daha da güclənməsinə səbəb olur:

Şerin sınıq bir türk sazı ağladaraq tellərini,
Addım-addım gəzmək istər gönlüm Turan ellərini.

"Dilimiz", "Şəhid əsir", "Oyan", "Hərbzədələrə" kimi şeirlərində də eyni leytmotiv davam etsə də, Ə.Cavadın sonralar bütün Türkiyədə az qala milli himn qədər kütləvi şəkildə oxunan və sevilən əsəri "Çırpınırdı Qara dəniz" olur:

Çırpınırdı Qara dəniz
Baxıb türkün bayrağına.
Ah, diyərdik, heç ölməzdim
Düşə bilsəm ayağına!..
İncilər tək gəl yoluna,
Sırmalar düz sağ, soluna,
Fırtınalar dursun yana,
Salam türkün bayrağına.

Göy gölə, milli bayrağa, Qara dənizə və Dəli Kürə ən yaxşı şeirləri o illərdə Əhməd Cavad dəniz yazıb. "Azərbaycan" sözü ilk dəfə bu rübabda poetik mübtədaya, xəbərə dönüb, Əhməd Cavadın yazdığı nəğmədə təkrir və nəqərat olub.

Şairin təbiət və məhəbbət lirikasında "Göy göl"ü xüsüsi fərqləndirmək olar. Cəsarətlə demək olar ki, poeziyanın qədəhini Göy göldən doldurub içən ilk təbiət aşiqi və nəğməkarı Əhməd Cavaddır, sonralar da Göy gölün şeir payına şərik çıxanlar az olmayıblar. Və istisnasız, sonrakı bütün şairlər – hamısı, həmişə Göy-göl nemətini ilk dəfə məhz Əhməd Cavadın qaldırdığı o badədən, qədəhdən süzüb nuş ediblər. Birinci "Göy göl"ün kamillikdə, bədiilikdə də birinciliyini sonrakı bütün Göy göl vurğunları – Səmd Vurğun da etiraf edib.

Ümumiyyətlə, Əhməd Cavadda romantika və simvol, metafora və obrazlılıq çox qüvvətlidir. Yalnız iki roman, iki metaformanı fərqləndirmək kifayətdir: Qara dənizi və Dəli Kürü!

Çırpınırdı Qara dəniz baxıb türkün bayrağına! – bütünlükdə Əhməd Cavad şerinin simvolu burada Qara dəniz özüdür.

Nəsrin "Dəli Kür"ünü Azərbaycanda İsmayıl Şıxlı yaradıb. Şerin "Dəli Kür"ü Əhməd Cavadın həm özü, həm də poeziyası idi. Coğrafi baxımdan Araz nisbətən dar, məhdud sahilləri də əhatə edir. Əhməd Cavad poeziyası isə bütövlükdə Kürün əhatə etdiyi üfüqlərdən keçir və sahillərdən axır.

Cavadı Kürlə çox şey birləşdirir. Hətta şairin tərcümeyi-halını Kürün özünün yaxın bir əsrdə məruz qaldığı tale və ömür salnaməsində izləmək olar: ilk mərhələdə hələ Kürə qədərki dövr – "Göy göl" mərhələsi idi. Bu dövrdə şair Qafqaza Kəpəzdən boylanır, özünə və ölkəsinə ucadan və zirvədən, məğrur və nikbin nəzər salırdı:

Mən çeynənən bir ölkənin
haqq bağıran səsiyəm!

İkinci mərhələdə "Dəli Kür" sanki əbədi axdığı və axtardığı ünvanı artıq tapmışdır:

Ey Tanrının cənnət uman qulları,
Mən cənnəti bu dünyada tapmışam.

Yaxud:

Sən ey coşan dəniz, gəl türkə ram ol!
Sən ey sağa, sola qılınc vuran qol,
Qollarına qüvvət gəlir, bismillah.

Bu – cümhuriyyət epoxası, Azərbaycanda demokratik respublika dövrü idi. Dövlət himninin mətni, həmçinin, "Can Azərbaycan", "Al bayraq", "Azərbaycan bayrağına", "Qardaş", "Mən bulmuşam" – həmin dövrün bədii sənədləridir:

Torpağına can demişəm,
Suyuna mərcan demişəm.
Canımı qurban demişəm.
Gəlib qızıl vaxtın sənin,
Açılıbdır baxtın sənin!



Gəncəm tacım, taxtım sənin,
Canım-gözüm, gözüm-canım
Azərbaycanım,
Can-can,
Can, Azərbaycan!

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Əhməd Cavad şerinin də ahəngi, ovqatı dəyişir, könlündəki rübabın da qürubu başlayır ("Nə yazım?", "Unudulmuş sevda", "Olsun qoy", "Aya" və s.).

Əhməd Cavad fitri-təbii şair idi. Onun sənətkar fəhmini aldatmaq qeyri-mümkün idi. Odur ki, üçüncü mərhələdə şair öz məşhur xitabını:

Əyil Kürüm, əyil keç,
Dövran sənin deyil, keç!

– sözlərini həm Kürə, həm də özünə eyni vaxtda aid edib deyirdi. Dahi və dövran, Zaman və şair nisbəti burada "Kür" və "Mən" şəklində əyaniləşirdi. Dərdini, nisgilini şair açıqda bədii tülə bürüyür, gizlində isə ağlayaraq deyirdi:

Çoxdandır ayrı düşdüm
Üç boyalı bayraqdan.
A dostlar, mən yoruldum
Gizlicə ağlamaqdan.

Ən son ana qədər Əhməd Cavad elmin "dünyaya dediyi ən böyük yalana" uymur, mənəvi genosidə, ideya, vicdan terroruna duruş gətirir, haqqın sözünü, həqiqət silləsini tiranın və nadanın düz gözünün içinə çırpır:

Çoxdan dəyişdirib şəkki yəqinə,
Mən üsyan etmişəm məzhəbə, dinə,
Bilməm sənin böylə "Haqq" dediyin nə,
Hökm etmə fikrimə, vicdanıma, sus!

Adətən, deyirlər: "şair kimi doğulmurlar, şair kimi ölürlər".

Əhməd Cavad xoşbəxt istisnalardandır – o, şair kimi doğulmuş, şair kimi yaşamış və şair kimi ölmüşdür. Puşkinə gülləni Dantes, Musa

Cəlilə – faşizm, Əhməd Cavada – KQB, qırmızı taun "bolşevizm" atmışdır.

Bayılda, Nargində, "sosialist" məhbəs kamerasında ölənlərdən heç qəbir də yadigar qalmır. Xəzər özü bu zaman məzara, şəhidlər xiyabanı baş daşına çevrilir. Dağüstü meşəliyin şəhid xiyabanına çevrildiyi gündən Əhməd Cavadın da məzarı tapılıb. Torpağa və poeziyaya o, həm şair, həm də şəhid kimi xidmət edirdi, bu məzarlıqda mənəvi sakin olmağa bəşəri və ilahi haqqı çoxdan qazanmışdı.

Başqa bir qanadlı ifadə də var: "Bir kərə yüksələn bayraq bir daha enməz". Məhz bu bayraqda Əhməd Cavadın da adı və imzası həkk olunub.

***Yaşar Qarayev***



# ŞEİRLƏR

## GƏLDİM GƏNCƏYƏ

1906-cı ildə
Gəldim Gəncəyə AT ilində.
Qalxdım Dilbozun tərkinə mən,
Keçdim düzlərdən, boz çöllərdən;
Qotazlı atı sürdüm də, gəldim,
Gəncəyə könül verdim də, gəldim!
Oxumaqdı ancaq diləyim,
Şəmkirdə qalmışdı ürəyim.
Anam da mənlə köçdü gəldi,
Nə mən yatdım, nə o dincəldi.
Zərrabıda qaldıq ilk gündən,
Sahibi getmişdi öyündən.
Sanki düşmüşdük evimizə,
Dəyib dolaşan yoxdu bizə.
Anam işləyər, mən oxuyardım,
O, xalı, mən şeir toxuyardım.
Günümüz keçərdi ağlı, qaralı,
O, ərindən, mən atamdan yaralı.
Yadımdan heç çıxmaz, o gəldiyim gün,
Başlandı tarixi mənim ömrümün!..

*Gəncə, 1908, 9 sentyabr*

## RÜBAİLƏR

Bükdü belimi firqətin, ey mahi cəhantab[1],
Sən alıyor zinəti bil külli səmavat.
Etdim sana bən anə qədər hörməti mehrab,
Hər kəs eylər xaliqinə həsr ibadat!

Xəllaqi-cahan xəlq eyləyib bir güli-mümtaz[2],
Bir cümlə ənadil[3], o gülə xud[4] nəzər əndaz[5].
Etdi bəni suzan[6], gözəlim, təneyi-əğyar,
Bax tənələrə, eylə bəni bircə sərəfraz![7]

Şəhla gözünü etsəm əgər bir də ziyarət,
Qurban edərəm kəndimi[8], dərbari[9] – kərəmdə[10].
Bu zəkavət, bu sədaqət, bu həlavət[11] uğrunda,
Qurbanə nasıl[12] layiqəm, ey mənbəi-rəhmət!*

Hər kipriyin bin[13] ox kimi canan batırsan sinəmə,
Qaşlar da üdvan seyfi[14] tək zərbət urar qan sinəmə!
Etdin bəni sən zərbi-şəst[15], ey mənşəyi zülmü cəfa,
Fəth eylədin, qıldın hünər, oldun da sultan sinəmə!

Bitab edüb dilbər bəni əğyarə meyl etmək nədən?
Göz yaşımı ənhar[16] tək etmək nümayan[17] didədən?

---

[1] İşıqsaçan (*farsca*)
[2] İmtiyazlı (*ə.*)
[3] Bülbül (*ərəbcə*)
[4] Özü (*f.*)
[5] Niyyət (*f.*)
[6] Qəmli (*f.*)
[7] Uca (*f.*)
[8] Özümü (*türkcə*)
[9] Şah sarayı (*f.*)
[10] Lütf (*ə.*)
[11] Şirin
[12] Necə (*f.*)
* *Qeyd.* Bu üç rübaini Ə.Cavadın Mədrəsədə müəllimi olmuş XX əsrdə ilk professional Azərbaycan tənqidçisi Abdulla Sur təshih etmişdir (*Tərtibçi*).
[13] Görən (*f.*)
[14] Düşmən qılıncı (*ə.*)
[15] Neştər (*f.*)
[16] Çaylar (*ə.*)
[17] Görünən (*ə.*)



Əşki[1] bəsər[2] tökmək nasıl yar, olmasın adət bana?
Gördüm fəraqın çox çətin, ey mahru, ey gül bədən?

Aman, ey bivəfa, zülmün bəni bizar edüb candan!..
Ümidim gəlməz idi böylə zülmə dəsti-xubandan.
Yəqin bilsəydim əvvəldən cəfadan əl götürməzsən,
Tapınmazdım sana əvvəlləri, ey büti-dil, təndən!

Ey xaliqi rəhmən, yenə rəhmin nə qədərdir?
Hər qədər edəm şükr, yəqinim ki, hədərdir!
Əhvalıma, əfkarıma[3] sənsən xəbərin varmı?
Vardır xəbərim kim desə gər əhli-məfərdir!

Xudaya, cismim ayrılsa, dilim dilbərdən ayrılmaz!
Gözüm görməzsə, rəsmi zehnimi eylər şən, ayrılmaz!
Dila[4] rəsm ilə əsrin fərqi çoxdur labudəm, lakin,
Onun rəsmin görüb ruhum neyçün bu təndən ayrılmaz!

Nəqşi aləmidir keçmişəm dilü candan,
Yəqin əlur ki, Bana bən bu yolda qətl oluram!
Bu yolda qətl olunur isə, özümdə məsudam!
Üzmərəm rahi-vəfdə əlimi canandan!
(Üzə bilməm əlimi əhli-vəfa canandan!)

Cana cavan ömrüm bənim rahində pir olmuş bu gün!
Artıq olan cövrü cəfa dərdikəsir olmuş bu gün
Səbr eyləməz Əyyub ola olsun qəsəm, ey bivəfa,
Tökdürdüyün göz yaşimə həm napəzir olmuş bu gün!

Könlüm yenə bir kasə qızıl qanə dönübdür,
Qan olsa böylə zülmlə hər yanə dönübdür!
Ey baisi-iftixari-canım, ey vəfasız,
Sən görmə rəva qanım axa, yar ola bənsiz!

---

[1] Göz yaşı (*f.*)
[2] Göz (*ə.*)
[3] Fikir (*ə.*)
[4] Ey ürək (*ə.*)

Saqiyə, rəhm qılıb badə gətir nuş edəlim!
Pişi-çeşmi[1] rüqabə yari dər[2] aquş edəlim!
Badə içmək bana əlzəm[3], sana qurban, ey Məhrəm,
Söhbəti-yar ilə əğyarı fəramuş[4] edəlim!

Xəndeyi xunriziniz[5] amadədir can almağa!
Kim əsirgər canını ləli-dirəxşan[6] almağa!?
Vəqti-rehlət[7], sevgilim, Əzrailə yox ehtiyac,
Ruhi-canım müntəzir ol şahi-xuban[8] almağa!

Cəfayi yarə səbr etmək tükənməz bir səadətdir!
Olursa əksinə, ey mah, tələt[9] bil ədavətdir!
Qüsur etmə cəfavü nazdan hər vəqtə qadirsən,
Təhəmmül[10] eyləyərik əskidən bir adətdir!

Varınsa gər ədavət zahirən təcili qətlim qıl!
Sənin məqtulun[11] olsa aşiqin müsbəti şəhadətdir!
Müləvvən çeşmlə etdin münəvvər xaneyi-könlüm,
Olub nail səfa bulmaq müzzəm bir ziyarətdir!

Dela əğyarə meyl ilə bəni məhrumi-can etdin!
Nasıl məhrumi-can bəlkə ziyadə hifz-can etdin?
Təşəkkür eylərəm bax, bəni xoşbəxt qıldın sən,
Bu xoşbəxt eyləməklə çün səvabi-bikəran[12] etdin!

Aləm ağlar halimə, gəl sən də giryan olma heç!
Zülm qıl, eylə cəfa kim tabeyi – Quran olma heç!
Yarımı əhvalimə xəndanü dilşad eyləyən,
Ey rəqibi-ru[13] siyəh ömründə xəndan olma heç!

[1] Göz qabağı (*f.*)
[2] Da, də (*f.*)
[3] Lazım (ə.)
[4] Unutmaq (*f.*)
[5] Qan tökən (*f.*)
[6] Parlaq (*f.*)
[7] Ölmək, dünyadan köçmək (*ə.*)
[8] Gözəl (*f.*)
[9] Görmək (*ə.*)
[10] Dözmək (*ə.*)
[11] Öldürülmüş (*ə.*)
[12] Nəhayətsiz (*f.*)
[13] Üz (*f.*)



Vəqti-nüsrətdir[1] əya xaliqə-səttar[2] oluram!
Əfv qıl cümlə qüsuratımı qəffar oluram!
Sahibi-hörmətü mənsəb qulunu qoy bana, yar,
Yəni ol şiri-xuda qatili-küffar[3] oluram!

Bu qədər naleyi-cansuz[4] edərəm rəhm eylə!
Qorx ki, Ahim tutacaq vəhm[5] qılub rəhm eylə!
Bəni nalan edərək guşənişin olmaqdan,
Bir nəticə çıkamaz ərz edərəm rəhm eylə!

Sanma bihudə[6] bənim, ey bivəfa, əqvalimi[7]!
Bax, şu qula bilmək istərsən əgər əhvalimi!
Bir günə saldın bəni bilməm sənin fikrin nədir?
Acizəm bu gündə kim tedad[8] edəm əfalimi[9]!

Sən əgər ətfi[10] nəzər etsən pərişan halimi,
Bil qəbul etmiş xuda ölgün bənim emalimi[11]!
Kim səni bu halə saldı sorsalar gər dostlar,
Söylərəm ol mahru ağlar qoyan əmsalimi[12]!

Biçarə dilcugöz[13] yenə hüznlə məyal olur,
Qəm ləşkəri[14] hücum ilə verməz məcal olur.
Bin dürlü qəm cünüdi[15] edər xatirə xütur[16],
Əmsalsız bahadürə müşkül bu hal olur!

[1] Yardım (*ə.*)
[2] Örtən (*ə.*)
[3] Kafirlər (*ə.*)
[4] Qəlbi yandıran (*f.*)
[5] Şübhə (*ə.*)
[6] Əbəs (*f.*)
[7] Sözlərimi (*ə.*)
[8] Saymaq (*ə.*)
[9] İşlərimi (*ə.*)
[10] Çevirsən (*ə.*)
[11] Əməl (*ə.*)
[12] Düstur (*ə.*)
[13] Ürək alan (*f.*)
[14] Qoşun (*f.*)
[15] Ordu (*ə.*)
[16] Xatirə gəlmə (*ə.*)



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

## UŞAQLIĞIM

Altı ya beş yaşında təxminən,
Tifli-məsumi, dilxərabi-həzin;
Gəziyor küçə içrə sərgərdan,
Bəni etməzmi dilkəbab qəmin?

Rişəsini tişeyi[1] fələk kəsmiş,
Guya ki, bir nihali[2] məzlumdur.
Acizəm vəsfinə qərib baxışın,
Arifanə, bu hal məlumdur!

Gediyor peşiman-peşiman.
Gəzir ətrafı çeşmi-xunbarı[3].
Görüyor nazü neməti əlvan,
Lərzə içrə o çeşmi-gülnarı[4]

Onsız demək bu tifli-zəif,
Arayurmuş həqiqi valideyni;
Baxtı yar oldu, bəxtiyar oldu,
Pək[5] sevər də şəfiqi-valideyni!

*1909*

## LİRİK PARÇALAR

### I

Nə gözəl giryədir, bu giryə[6] xuda?!
Nə qədər dilfirib[7] por sevda!
Giryeyi-qəmmi? Ya ki həsrətmi?
Hasili-hüzn, ya məsərətmi[8]?

[1] Mişar
[2] Fidan (*f.*)
[3] Qan ağlayan
[4] Nargülü rəngində (*f.*)
[5] Çox (*türkcə*)
[6] Ağlamaq (*f.*)
[7] Könül aldadan (*f.*)
[8] Çətinlik (*ə.*)



Giryə həm xəndəyə edər mail,
Seyr edən kimsəyi qılar sail.
Bilməzəm ağlayummı bu halə?
Güləyim qoysə kətmi[1] əhvalə?
İki sevdazadə bulub vəslət,
Hicr əlindən tutubdilər fürsət!
Ağlamaq hicrdən şikayətdir,
Xəndələr[2] firqətə[3] nəhayətdir!

*1909, noyabr*

### II

Ya rəbb, nə lətif cismi-canan?!
Pur nuri-ziya camalı hər an!
Rəftarı sütudə[4], yari-məsud.
Güftarı həzin, üyuni[5] – xəndan!
Zülfi siyəhi kəmalə varmış,
Bir mah camal, şahi-xuban!

Növrəstə büti, pür işvə tənnaz[6],
Oldu bana cilvəgər xuraman!
Ey yari-əzizi gülüzarım,
Seyr eylə bu halı şanlı sultan!
Bilməm bumu rəsmi dilbəranə?
Rəhm eyləmiyorlar aşiqanə!

### III

Hər qonçəyi görməyə çoxdan həvəsim var,
lakin sana məclub[7] olub, ey şuxi-dilara, –

[1] Gizlətmək (*ə.*)
[2] Gülüşlər (*f.*)
[3] Ayrılıq (*f.*)
[4] Tərifəlayiq (*f.*)
[5] Gözlər (*ə.*)
[6] Zarafatçı (*f.*)
[7] Cəlb olunmuş (*ə.*)

Bilmərrə həyatım uğrunda durub inlər!
Yalnız səni, sən qonçeyi-yekdaneyi bəklər!
Bilməm nə qədər tatlı[1] keçənlərdəki didar[2]?!

Ruhim dəgil ehyamə[3], səbəb şəkk edəməm bən!
Yalnız düşünürəm səni həp zindeyi-əsrim!
Sevdanə giriftar oləli başqa həyatə,
Malikini, təbdilə bin dürlü sifatə!
Eşqindir, əvət! Danmiyoram, danmayasan sən!!!

*1909, dekabr*

### IV

Təvcihi-nigah etdikcə canım yaxıyor yar!
Yəni nəzər etdikcə, seyran bakıyor yar!

## QƏZƏLLƏR

Mərhəmət etsən əgər varmı qüsuri bir gör,
Xaliqin əmr eyləyib bən deyürəm rəhm eylə!

Baisi-mövtüm olub, batma vəfasız qanə,
Bəsdir hicran yarası, bən ölürəm, rəhm eylə!

Çox cəfa eyləyərək tərki-cahan qılırdın,
Sonrakı aşiqinə, bən gedirəm, rəhm eylə!

Ey xudavəndi-kərəm, əhvalimə eylə güzər.
Taşa[4] təsir eyləyən ahim sana etməz əsər!

Səngdil[5] olmaq sana bilməm neyçün vacib kibi,
Sən hərami vacib etdin, çox dilə verdin kədər!

[1] Şirin (*t.*)
[2] Görüş (*f.*)
[3] Dirçəlmə (*ə.*)
[4] Kədər (*t.*)
[5] Daş ürəkli (*f.*)



Sən bəni xar eylədin, Allah səni xar etməsün,
Hansı məzhəbdə rəvadır, böylə zülm, ey bixəbər!

Sən bəni nalan edərsən halimə xəndan olub,
Xəndeyi-rəhmət bana bəsdir təcəssüddən səmər.

Öz camalından əgər kəndin xəbərdar olmasan,
Bax də bir ayinəyi xofi-xudadan qıl həzər!

Ararkən yarə uğraşdı, dilim məhsuldar olmuş,
Nə məsudəm, xudavənda, müqabil gülüzar olmuş!

Gecə-gündüz şikayətlər umə ruyin fəraqindən,
Zəbanım lal olub hala: Müsadifi[1]-hüsni-yar olmuş.

Gəzim əma idi əşki təhəssür tökməkdən naşi[2],
Münəvvər qıldı yarım lütflə ol bəxtiyar olmuş!

Nə gördim bir büti-zibayi-məh surət, hilal əbru,
Bənim nəqşim qədər, hüsni məzid[3] girdigar[4] olmuş!

Bükülmüş qamətim gördükdə ol sərvi-səmənsayı,
Düzəldi qəddi-məyubim[5], hər qusum feyzbar[6] olmuş!

*1909, 3 noyabr*

[1] Rast gələn (*ə.*)
[2] İrəli gələn (*ə.*)
[3] Artmaq (*ə.*)
[4] Çevrə (*f.*)
[5] Şikəst (*ə.*)
[6] Bolluq gətirən (*ə.*)

## YAZIM, GƏL, BAHARIM, GƏL

Ürəyim döyünüb uçar quş kimi,
Düşər torpaqlara vurulmuş kimi!
Sellər, sular coşar qudurmuş kimi!
Vuruşar, döyüşər yorulmuş kimi,
Çəkilər yatağa durulmuş kimi!
Yazım, gəl, baharım, gəl!
Şəmsim, gəl, Nigarım, gəl!
Əsmər üzlü yarım, gəl, –
Gəl, yoxdur qərarım, gəl!

Əzəldən salmışam meylimi, meylimi sana!
Veribdir hüsnünü Leylimi, Leylimi sana?
Dönsəm, üzüm dönsün, dönmərəm səndən,
Sən dönsən mən neylim, mən neylim sana?!
Neylim gəl, ay neylim, gəl!
Sana düşüb meylim, gəl!
Məcnun qaçıb çöllərə, –
Leylim, gəl, ay Leylim, gəl!
Bu bağdan, bu dağdan keçmərəm sənsiz,
Bu sulu bulaqdan içmərəm sənsiz!

Ömür dedikləri bir göy zəmidir.
Bir dərz, oraq alıb biçmərəm sənsiz!
Mudum, mudum, ay mudum,
Sənsən mənim umudum!
Sən bəni unudubsan,
Mən səni necə unudum?!

## YUXUMA GƏLMİŞDİN...

... Yuxuma gəlmişdin sən həzin-həzin,
İşvəli, qəmzəli, nazlı nazənin.
Sən coşqun bir bulaq, mən yazıq əzgin,
Sən yanar bir dodaq, mən halsız, üzgün!



... Onbeşdən az idi, yaşım o zaman,
Axırdı qəlbimə yaşım o zaman.
Daşdan-daşa dəydi başım o zaman,
Yazda başlamışdı qışım o zaman!

Sən sevda buludu, mən təşnə dodaq,
Sən pək iyi bir sərv, mən solğun yarpaq.
Mən quru bir ağac, sən gül ağappaq,
Sinəmə dəyirdi oxlar şaqhaşaq!

Canımda qalmayıb nə tab, nə təvan,
Baxışın şimşəkdi, duruşun ceyran;
Dodağın lalədir, ətirin reyhan,
Onsuz da qurbanam, mən sana qurban!

Sən canlı mələksən, mən quru şəkil,
Bən sana tayammı, ay saçı sünbül?
Bağrımın başında sızlayan bülbül,
Deyir: çəkil yoldan, bu yoldan, çəkil!

## SEVGİ CANDAN AYRILMAZ

Sevən könlüm sevdi səni,
Sevgi candan ayrılmaz!
Rahibim ol, yolum göstər,
Din imandan ayrılmaz!

Pəncərəyə nə qonmusan?
Yoxsa bəni sən anmısan?
Yüzsən, minsən, milyonmusan?
Ruh gümandan ayrılmaz!

Gündüzüm tar[1], gecəmsə yox,
Sevincim az, kədərim çox!
Dilim qabar, sözüm "ah", "ox",
Ah amandan ayrılmaz!

[1] Qaranlıq (*f.*)

Məcnun çöldə, mən meşədə,
Canım div tək bir şüşədə.
Gözüm qalıb bənövşədə,
Quş ormandan ayrılmaz!

Kol dibində bitərəm mən.
Bülbül olub ötərəm mən!
Dağa qalxsam, itərəm mən,
Dağ dumandan ayrılmaz!

Dövran atar şeş-beşini,
Yelə verər peşkəşini!
İndisini, keçmişini,
Söz zamandan ayrılmaz!

Kimi ağlar, kimi gülər,
Göz yaşımı kimlər silər?
Balıq bilməz, xaliq bilər,
Gün cahandan ayrılmaz!*

## OLMAZ

*Yəhya bəy Dilqəmə oxşatma*

Dəymə, dəymə, könlüm sana aşiqdir,
Aşiqin qəlbini sındırmaq olmaz!
Mənim sözüm bir ilahi eşqidir,
Kərəmi bu qədər yandırmaq olmaz!

Göydə şimşək kimi çaxdım, ölmədim,
Özümü yandırıb-yaxdım, ölmədim!
Yoluna, izinə baxdım, ölmədim,
Məcnunu bir belə sındırmaq olmaz!

Yalvarram, yaxarram yola gəlməzsən,
Axan göz yaşımı durub silməzsən!

**Qeyd:* Bu şeirlər "Azıx" folklor muzeyinin arxivindən götürülmüşdür (*Tərtibçi*).



Nə söz anlamazsan, nə dil bilməzsən,
Doğrudan uşağı qandırmaq olmaz!

Rüsvayi-cahanam Sənandan betər,
Sən tərsa deyilsən, bu zülmün yetər!
Sinəmdə bir bülbül göynəyib ötər,
Nə fayda, sözümü andırmaq olmaz!

Qəm çəkər, qəm yeyər Cavad nə vaxtdan,
Kəm oldum taledən, kəm düşdüm baxtdan!
Qarşında qul ollam, düşməzsən taxtdan,
Bu qanlı sevdanı dandırmaq olmaz!

## SƏHƏR-SƏHƏR

*Şəmkirli Hüseynə bənzətmə*

Yarın bağçasında güllər açılıb,
Bülbüllər ötüşür, gəl səhər-səhər!
Çarhovuz başında bir telli sənəm
Baxıb güzgülənir, bil səhər-səhər!

Güllərin üstündə parlayan şehdi,
Qəlbimdən keçənlər nə sərin mehdi!
Gözümə görükən qövsü-qüzehdi,
Hicran qubarını sil səhər-səhər!

Çətirli ağaclar sanki ormandı,
Həyat göz qırpımı, ömür bir andı!
Cavad, düşündüm ki, bu nə fərmandı,
Danış səhər-səhər, gül səhər-səhər!*

* *Qeyd:* Bu şeirlər Aşıq İslam Yusifovdan yazıya alınmışdır (1962-ci ildə) (*Tərtibçi*).

## MƏRSİYƏ

*Abdulla Surun xatirəsinə*

Cavan öldün, dünyadan kam almadın,
Çox çalışdın, zəhmətdən heç doymadın.
Əfsus ki, fikrinə nail olmadın,
Ağla qardaş! Ağlamalı günündür!

Çıxarmayaq yaddan biz tez onları,
Həp vətənə qurban olmuş canları;
Tanrı qəbul etsin belə qurbanları!
Ağla, qardaş! Ağlamalı günündür!*

*Gəncə, 1912*

## MİRZƏ ABDULLA (SUR) MƏMMƏDZADƏ

*...Gənc və nəcib şairimiz Cavad Əfəndi, həzin və ahəngdar bir tövr ilə yazmış olduğu gözəl və yanıqlı şerini söyləməyə başladı:*

Ey qardaşlar! Bir zamanlar elmisizlik dumanı,
Cəhalətin kor pəncəsi qaplamışdı hər yanı.
O zəhərli havalardan gül yanaqlar solmuşdu,
O gün xain, pis əllərdən Vətən xarab olmuşdu!
Göylər bizə işıq deyil, yıldırımlar saçırdı,
Günəş, yağmur, sular bizdən uzaq qaçırdı.
Allah belə qəbul etməz oldu bizim qurbanı,
Bizi o gün boğuyordu azğınlığın tufanı;
Quran nədir? Anlamazdıq.
Vətən nədir? Bilməzdik.
Qarşımızda yetimlərin göz yaşını silməzdik.
Ağlanacaq bir hal idi, kəndimiz də görürdük,

* *Qeyd:* A.Surun cənazəsini qəbiristanlığa apararkən "Məktəbi-ruhani"nin şagirdləri camaatı ağladaraq bu qəmli şərqini oxuyurmuşlar (*Bax: S.Şükürov. "Gəncə məktəblərinin tarixindən". Bakı, 1990, s.80*) (*Tərtibçi*).



Dilimizin, dinimizin getməsinə gülürdük.
Bu Vətənin bunu görən südü təmiz övladı,
Bir qaç kişi o gün bizim qara günü anladı!
Ağladılar, sızladılar, yalvardılar Allaha,
Ulu haqqın rəhmi gəldi könlü qırıq onlara!
O gün bizim dağlarımız bir az güldü şehləşdi,
Bacarıqlı bir qaç qollar zülmətlərlə əlləşdi!
Ey qardaşlar! Yurdumuza Günəş yeni doğmuşdu,
Bir azacıq – demək olar – dostlar deyən olmuşdu!..
Ancaq dünən başımıza kölgə salan bir bulud,
Önümüzdə!.. Haqqın varsa, ey daş ürək, gəl unut!..
Yox, yox... Sizin məzarınız qəlbimizin ən dərin
Bir yerində saxlanmışdır, o pak ruhun içün!
Bütün dünya alt-üst olsa, mən ki, səni unutmam,
Ay qardaşlar! "Amin!" deyin, Allah bunu əfv etsin!*

*Gəncə, "İqbal", 1912, 17 may*

* *Qeyd:* Şeri şairin müəllimi Hüseyn Cavid çap etdirmişdir (*Tərtibçi*).

# "ŞÜKRİYYƏNAMƏ"DƏN SƏHİFƏLƏR

## KEÇƏR

Bəzən yosmalar alayı,
Əllərində nurdan ayı
Dağdan, arandan keçər!

Bəzən elin bir qadını,
Bildiyin yoxkən adını,
Gülümsər, yandan keçər!

Hərdən yumuşaq bir ipək,
Dalğalanar ətək-ətək,
Ürəkdən, qandan keçər!

Görürsən bir telli yıldız,
Şimşəyi andıran bir qız
Süzülüb, qandan keçər.

Şümşad boylu, gözü almaz,
Salam verrəm, salam almaz!
Cavadı heç saya salmaz.
Gedib, biyabandan keçər!

## GÖZÜM GÖRDÜ, KÖNLÜM SEVDİ

Yağış tökdü üstümüzə
Göylər birdən, bir kərəm, hey!
Güllər baxıb güldü bizə,
İy su oldu o Sənəm, hey!



Şehli bağa bənzədi o!
Göy yarpağa bənzədi o!
Şux zanbağa bənzədi o!
Yan, ey Qərib, Şahsənəm, hey!

Batum əski Qız qalası,
Batum yurdun göz qalası!
Xaqanımın öz qalası,
Səndə doğub Şükriyyəm, hey!

Torpağında, daşındaca,
Gördüm bulaq başındaca!
"Sevdim" on beş yaşındaca,
Bundan sonra kükrəyəm, hey!

Bu ləpirlər izi imiş,
Bəy Süleyman qızı imiş!
Dilək imiş, arzu imiş!
Körük oldu bu sinəm, hey!

O Əslidir, mən də Kərəm,
Mən bu sirri gizlətmərəm!
Yarı burda gözlətmərəm,
Car eyləsin qoy aləm, hey!

Həp ağlını, kamalını,
Həp hüsnünü, camalını;
Sən Cavadın Qumralını
Yaz, ey qələm, ey qələm, hey!..*

*Batum, 15 mart, 1915*

* *Qeyd:* Bu şeir Əhməd Cavadın Şükriyyə xanıma həsr olunmuş ilk şeirlərindəndir (*Tərtibçi*).

## MƏN TAPMIŞAM

Ey Tanrının cənnət uman qulları,
Mən cənnəti bu dünyada tapmışam!
Aramaqdan bezdiyiniz yolları
Axtarmadan mən sevdada tapmışam!

Oxşayaraq ulduzunu, ayını,
Necə sayım cənnətimin sayını?!
El deyən cənnətin mən bir tayını
Açıq gözlü bir röyada tapmışam!

Eşitmədən, anlamadan yerini,
Dərvişlərin çağırdığı pirini;
İnandığım ərənlərin birini
Uc-bucaqsız bir səhrada tapmışam!

Daşıyanlar vicdanların darını,
Bucaqlarda gəzər gözəl yarını!
El cəfada diləndiyi varını,
İmanmı mən səfada tapmışam!

Ürəkdən neylərə çəkdirən "yahu"!
Aşığın inləyən telə sorduğu,
Böyüklərin sanıb heyran olduğu
Nüktəyi mən macərada tapmışam!

Şərqin gülü, neyi, meyi, nəvası!
Qərbin könül sıxan ağır havası!
Rahiblərin, keşişlərin duası
Umduğunu masəvada tapmışam!

Çıxmışkən günahı vaizin dizə,
Vəz edib, durmaqda bax yenə bizə!
Söylənəcək sözü dinə, dinsizə,
Vicdanımda bir sədada tapmışam!



Mən ki, hindin sufisinə, sözünə,
Qulaq verməm, Qərbin baxdım üzünə!
Büründüyü tülə deyil, gözünə
Neydəkini mən nəvada tapmışam!

Ağlamazsa qara bəxtin buludu,
Bəsləyir vicdanım bir böyük duyğu!
Hər iki dünyanın hardadır sonu?
Cavabını intiyada tapmışam!

İnandım ki, hər fəryadın sonu var!
Bir gün gələr: Yer üzündə yaz olar!
Gələn günü düşünənlər, yazanlar,
Duyduğunu bu xülyada tapmışam!

*Batum, "Açıq söz", 1917, 20 iyun*

## SURƏTPƏRƏSTƏM

*N.Y.-yə*

Bir şeir qoşmuşam dillərdə gəzir,
Uçub oba-oba ellərdə gəzir.
Könlüm Məcnun kimi çöllərdə gəzir,
O mənim şərqimdir, o mənim bəstəm,
Mən şeir aşiqi, mən sözpərəstəm!

Cananın buxağı dümağ, ağ ola,
Eşqi buludlarda, kefi çağ ola!
Dərdi nazü-qəmzə, canı sağ ola,
Mən çoxdan sərxoşam, mən çoxdan məstəm,
Gözəllik vurğunu, gözəlpərəstəm!

Bir şəkil çəkmişəm, dünyada təkdi,
Canlanıb ilk dağı sinəmə çəkdi.
Burdan gəlib keçən o qız məlăkdi,

Mən söz ovçusuyam, söhbətpərəstəm!
Mən üz dəlisiyəm, surətpərəstəm!

Mənim gördüyümü, Vaqif görməyib,
Mənim hördüyümü, Vaqif hörməyib.
Mənim dərdiyimi, Vaqif dərməyib,
İnci zərgəriyəm, naxışpərəstəm!
Mən göz xəstəsiyəm, baxışpərəstəm!

Kim deyir "düz gəzir", "əyilməzəm mən"!?
Dosta dost, yada yad "deyilməzəm mən"!
Demirəm, poladam, "yiyilməzəm mən";
Yarın qabağında lalam, şikəstəm,
Məhəbbət əsiri, sevgipərəstəm!

Sinəmdə yer tutub gözəllər bir-bir,
Sinəmdə bağ salıb, gəzərlər bir-bir
Sinəmi tapdalar, əzərlər bir-bir,
Çinaram, palıdam, sərv kimi şəstəm,
Aşiqəm, məşuqla sevdapərəstəm!

Ömrümü etmişəm bu yolda fəda,
Qoy gəlsin onlardan canıma qada!
Neyləyim birisi çatmayır dada;
Özümə yağıyam, özümə qəsdəm,
Leylisiz Məcnunam, Leylipərəstəm!

Onun dodağında gülüş görürəm,
Onun gözlərində öpüş görürəm.
Onun yerişində görüş görürəm;
Onların önündə acizəm, pəstəm,
Gülüş, öpüş, görüş, duruşpərəstəm!

... Bir gözəl sevmişdim altı yaşımdan...
Şəkili getməyib hələ başımdan!
O məndən utandı, mən göz yaşımdan...
Fars demiş, əzəldən "nistəm ki, nistəm"!
Mən ürkək, mən dəli ceyranpərəstəm!



Sevgi işığında gözüm qamaşır,
Xəyalım titrəyir, fikrim dolaşır.
Tanrım, o gözələ Cavad yaraşır;
Bu ilahi ziya, qüdrətpərəstəm!
Gözəl üz, gözəl göz, surətpərəstəm!!
SURƏTPƏRƏSTƏM!!!

*Gəncə, 1918*

## BİR BİLƏN YOX Kİ...

Bir bilən yox ki, nə çəkər sənsiz,
Sənin eşqinlə yaşayan könlüm?!
Sən keçən yolda görərək bir iz,
İzin üstündə ozana döndüm!

Çəkdiyim dərdi saza anlatdım,
Dərdli barmaqla teli ağlatdım!
"Bizə gəl!" dedin, bir addım atdım,
Bir addım yolda min cənnət gördüm!

Bulaq üstündə yığışır qızlar,
Geciksən bir az, ürəyim sızlar!
Soruşdum, bulaq dedi məndə var,
Suda əksini axtarıb tapdım!

*Hacıkənd, 1918*

## QALDI

Mən dünyanın qucağında,
Vətən adlı bucağında;
Yandım fəraq ocağında,
Közüm söndü, külüm qaldı!

Gözlərimi açan gündən
Uzaq oldum toy-düyündən!
Nələr umdum mən bu gündən,
Neçə ayım, ilim qaldı.

Nəğmə deyən bir quş oldum,
Ürəklərə qonmuş oldum.
Məhəbbətə uymuş oldum,
Şirin-şirin dilim qaldı.

Belə imiş zaman demək?
Nə düşünmək, nə qəm yemək?
Onun-bunun nazını çək,
Özüm getdim, elim qaldı!

*Batum, 1916, sentyabr*

## DÖNÜR

Eşqindən güc alıb bu ilhamım da,
Duyğular qəlbimdə sellərə dönür!
Ellərin verdiyi arzu-kamım da
Yenidən baş alıb ellərə dönür!

Nə böyük bir qüdrət varmış sənətdə,
Ömürlük bağlıdır söz də, söhbət də;
Çəkilən əzab da, iş də, zəhmət də
Çiçəklərə dönür, güllərə dönür!

Fikirlər içində fikrim var deyə,
Tuturam torpaqdan, qalxıram göyə!
Xəyalım uçduqca hey gələcəyə,
Gah da ötüb keçən illərə dönür!

*Batum, 1916, 11 oktyabr*

## BİR GÜN

Hicranlar, ələmlər, tufanlar içrə
Qısıq bir səs kimi eləcəyəm bən!
Böylə göz yaşıyla keçən ömrümün
Sonunda bir acı güləcəyəm bən!



Eşqimin nə imiş bilməm günahı?
Yıxıldı qəlbimin istinadgahı.
Nəsibim olsa da dünyanın ahı,
Bir gün göz yaşımı siləcəyəm bən!

Yaxında didarın nəsib olmasa,
Ümidsizlik bəni düşürməz yasa!
Alaraq əlimə dəmirdən əsa
Bir gün hüzuruna gələcəyəm bən!

Tutuldum tufana, sarıldım sana,
Sən ey qırıq qələm, gəl bir tüğyana!
Dözmək güc olarsa böylə hicrana,
Səninlə dərdimi böləcəyəm bən!..

## QİTƏLƏR

Sən bəni bircə an gözləməsən də
Səni ömrüm boyu gözləyəcəyəm!
Sən bəni bircə yol səsləməsən də
Səni ömrüm boyu səsləyəcəyəm!

Min dəfə gülsən də, deməröm sağ ol,
Sən ey həyatıma, ömrümə qənim!
Qonmasa, gülmərəm, gülmərəm bir yol –
Dodaqdan-dodağa gülüşüm mənim!

Demişdin: "Ölüm də ayırmaz bizi!"
Sənə kim demişdi, de, bu cümləni?
Demişdin: "Sən qoru, saf eşqimizi!"
Aldadıb, aldadıb oynatdın bəni?!
Sənə kim demişdi, de, bu cümləni?

Məhəbbət gələndə insan ömrünə,
Sanırsan hər yerə ilk bahar gəlib,
Məhəbbət gedəndə – lənət o günə,
Sanırsan dünyaya boran, qar gəlib!

Sanki varlığımı salırlar bəndə,
Sevən könüllərdə qəm ötüşəndə!
Alışıb yanıram səməndər kimi
Məhəbbət yanılıb oda düşəndə!

Mənə nə lazımdır gündə bir gözəl,
Onları dişimə çox vurmuşam mən.
Dost, tanış çox dedi, bir sən də düzəl,
Bu yolda özümü çox yormuşam mən,
Onları dişimə çox vurmuşam mən!

Nə çoxdur dünyada qədir bilməyən,
Hər Leyli üzlüdə sədaqət olmaz!
Nə çoxdur məhəbbət nədir bilməyən,
Hər Şirin gözlüdə məhəbbət olmaz!
Hər Leyli üzlüdə sədaqət olmaz!

Səndən dövlətlisi gələndə ona,
Bir su qiymətinə satacaq səni!
Səndən şöhrətlisi güləndə ona,
Əlüstü bir yana atacaq səni,
Bir su qiymətinə satacaq səni!

Deyirlər, gözəllik gəldi-gedərdir,
Gözəllik odur ki, duyanı olsun!
Gözəllik odur ki!.. Yoxsa, hədərdir,
Başını bu yolda qoyanı olsun!
Gözəllik odur ki, duyanı olsun!!

Sevda yollarında ağlamayan kəs,
Dünyanın zövqünü duya bilərmi?
Sevda yollarında çağlamayan kəs,
Dağları, daşları oya bilərmi?
Dünyanın zövqünü duya bilərmi?!

Könül bir budaqdır, cavan yaşında
Gündə çiçək açan gülə bənzəyir!



Yarımın sevdası gəzir başımda,
Min səsli, sədalı telə bənzəyir!
Gündə çiçək açan gülə bənzəyir!

Hicran istəyənə vüsal nə lazım?
Qəm, kədər çəkənə gün nə gərəkdir?
Həqiqət sevənə xəyal nə lazım?
Nalə qoparana ün nə gərəkdir, –
Qəm, kədər çəkənə gün nə gərəkdir?!

Sən güldükcə mən ağlaram, mən ağlaram!
Sən susduqca mən çağlaram, mən çağlaram!
Sən atdıqca mən saxlaram, mən saxlaram!
Məhəbbəti, etibarı!
Məhəbbəti, etibarı!

Dünyaya yas tutdum ürəyimdə mən,
Axan göz yaşımı silən olmadı!
Cahanı güldürüm, diləyimdə mən,
Özümün dərdimi bilən olmadı, –
Axan göz yaşımı silən olmadı!!

*Batum, 1916, sentyabr-oktyabr*

## SEVMƏSƏYDİM SƏNİ MƏN?.

İnanmadın sözümə,
Bir gülmədin üzümə.
İllər məni ucaltdı,
İllər məni qocaltdı.
Deyirəm öz-özümə:
Keçərdinmi qəlbimdən,
Sevməsəydim səni mən?!

Bağda çiçək dərəndə,
Dosta töhfə verəndə;
Hey düşürsən yadıma,

Yanıram öz oduma!
Bir gözəl gül görəndə,
Keçərdinmi qəlbimdən,
Sevməsəydim səni mən?!

Yaylağa çıxanda da,
Dost əli sıxanda da;
Yollar çənə bürünür,
Dağdan duman sürünür!
Bir qıza baxanda da,
Keçərdinmi qəlbimdən
Sevməsəydim səni mən?!

Quşlar qanad çalanda,
Çölə haray salanda;
Yenə səni anıram,
Andıqca da yanıram?
Könlüm ilham alanda,
Keçərdinmi qəlbimdən
Sevməsəydim səni mən?!

Gəzib çölü, çəməni.
Ən gözəl bir nəğməni,
Durub dinləyəndə mən
Yadıma düşürsən sən.
Rahat qoymursan məni!
Keçərdinmi qəlbimdən,
Sevməsəydim səni mən?!

Hər gün söküləndə dan,
Oğrun-oğrun uzaqdan
Gözlərimə baxırsan,
Ürəyimə axırsan!
Hər şeir yazan zaman:
Keçərdinmi qəlbimdən
Sevməsəydim səni mən!
Sevməsəydim səni mən?!



## ŞÜKRİYYƏM ÜÇÜN

Bir gülsən, dərmişəm gənclik bağından,
Bir gülü, çiçəyi dərmərəm sənsiz!
Kam aldım ömrümün oğlan çağından,
Bir bağa, bağçaya girmərəm sənsiz!

Söylə yadındamı Çakva, Batumi?
Ovladın könlümü, çaldın ruhumu!
Kamana dönmüşdü qəlbimin simi,
Hurini, mələyi görmərəm sənsiz!

Nə çoxdur dünyada qənirsiz pəri!
Gözümə görükməz daha heç biri!
O qızıl saçları, ipək telləri
Əl atıb birini hörmərəm sənsiz!

Məndən xoşbəxt varmı dünyada, deyin?
Ey telli yavrusu Süleyman bəyin!
Bəxtim tərlan imiş: yeyindən, yeyin!
Heç kəsə bu bəxti vermərəm sənsiz!

Səninlə gəzərəm eldən-elə mən,
Bataram, çıxaram seldən-selə mən.
Düşsəm də ağıza, dildən-dilə mən,
Yaşaya bilmərəm bir kərəm sənsiz!

Sonatək göllərdə üzsən də mənsiz,
Quş olub göylərdə süzsən də mənsiz;
Sən Əsli qalsan da, dözsən də mənsiz,
Alışıb yanaram mən Kərəm sənsiz!

Şükriyyə taleyim, şükür Xudaya!
Gördüyüm doğrumu, yoxsa pək röya?!
Dolub ürəyimə bu dadlı xülya,
Şirin günlərimi sürmərəm sənsiz!

Əvət, bu sevdanın səfası çoxdur,
Sevdasız həyatın mənası yoxdur!
Gözlərin yıldızdır, kirpiyin oxdur,
Ürək qubar olar – can vərəm sənsiz!..

Şerimin sözüsən, sözün – ahəngi!
Üzündə bərq vurur güllərin rəngi!
Xəyalın, camalın gözəl çələngi!
İlham yetim qalar, ağıl – kəm sənsiz!

*Gəncə, 1917*

## QURBAN OLDUĞUM

Bir xeyli zamandır getdi, gəlmədi,
Əhdi peymanına qurban olduğum!
İstədi can verdim, qədir bilmədi,
O şirin canına qurban olduğum!

Dedim: ayrılığa yoxdur tavanım,
Ayrılıb getməsin sərvi-rəvanım!
Bir daha dönməzmi yosma tərlanım,
Adına, sanına qurban olduğum!
(O təmiz qanına qurban olduğum!)

Mən hey göyə baxdım, göy mənə baxdı,
Göylərə baxmaqdan gözlərim axdı!
Şimşək oldu, ancaq bir dəfə baxdı,
Baxdı qurbanına qurban olduğum!

Könül verməк istər bir müjdə yenə,
Sevgili yurdumun gözəllərinə!
Şerimə can verib, göylərdən enə,
O haqq divanına qurban olduğum!

O mənim şerimin ruhu, rəvacı,
Bütün gözəllərin başının tacı!
Bilməzmi ki, onsuz ömrüm çox acı,
Şöhrətü şanına qurban olduğum!



Gözəlliklər yapma, duyğular cansız,
Mənə tən eyləyir hər yetən qansız.
Atılan oxlardan çıx gəl ziyansız,
Namü nişanına qurban olduğum!

Bir gecə yatmışdım qəmli, mükəddər.
Qəlbimi sıxırdı sonsuz fikirlər.
Birdən Günəş doğdu, açıldı səhər,
Baxdı gözlərimə o qumral gözlər!

Səsimə oyandım, bomboş bir otaq,
Dağların qarına dönmüşdü yataq.
Eşqimə, duyğuma yoxdu bir ortaq,
Bu iyi dünyada ixtilat qataq!

*Batum, 1916*

## GƏNCƏDƏN GƏLİRƏM...

*Gəncədən gəlirəm, yüküm üzümdü,*
*Gəncənin əsgəri düzüm, düzümdü.*
*Bir əmim qızı var, iki gözümdü,*
*Özgəyə vermərəm, mən özüm allam,*
*Şirin qadasını canıma sallam!*

***Aşıq şerindən***

Gəncədən gəlirəm, yüküm xurmadı,
Gəncənin yolları burma, burmadı.
Gəncədə bir qız var, teli durnadı,
Günəşə sən çıxma, mən çıxım deyir!

Gəncədən gəlirəm, yüküm çiçəkdi,
Gəncənin gülləri ləçək-ləçəkdi.
Gəncədə bir qız var, adı Çiçəkdi,
Quşlara sən uçma, mən uçum deyir!

Gəncədən gəlirəm, malım nə maldı,
Gəncədən aldığım ipəkdi, şaldı.
Gəncədə bir qız var, adı Maraldı,
Ceyrana sən qaçma, mən qaçım deyir!

Gəncədən gəlirəm, yüküm xınadı,
Könlüm dəli quşu ona qonadı.
Gəncədə bir qız var, adı Sonadı,
Sulara sən axma, mən axım deyir!

Gəncədən gəlirəm, sözə bənd olub,
Gəncənin meyvəsi şəkər, qənd olub.
Gəncədə bir qıza gözüm bənd olub,
Cavada sən baxma, mən baxım deyir!

* * *

Səhər zamanıydı əsərkən yellər,
Düşərkən jalələr oyatdı səni.
Çatıldı qaşların, darıldın bana,
İslatdı jalələr nazik bədəni.

Bütün bir səhəri yanılıyordum,
Boş qalmış qoynuna çiçək doldurdum.
Gülzarına Quran deyə əl vurdum,
İnanmadın niyə, bilmədin yəni?

And içdim ki, könlüm sənsiz yaşamaz.
Ağlar sənsiz, sınıq, o bir telli saz.
Qollarına verdin o dəm bir pərvaz,
Oxşadın sinənə cansız düşəni!

Şimdi sənsiz xəstə könlüm sərsəri,
Dolaşıyor, durur qürbət elləri.
Ey məni bir dəfə güldürən pəri,
Ağlar neçin qoydun illərcə məni?



## BƏNZƏRDİ

Bayılırkən gözlərindən, qaşından,
Sevirkən onu pək gənc yaşından;
Bənim çaldı ürəyimin başından,
Bir yılan ki, göyərçinə bənzərdi!

İtirdim hədəfi, qırıldı yayım,
Bu şikardan bənim yoxdur bir payım.
Başqa Tanrı göstər, ona tapayım,
Sənin eşqin, çünki dinə bənzərdi!

Keçirdim dərd ilə çox qışı, yazı,
Həsrətlə bəklərkən o sərvinazı!
Uzatdı əlimə qırılmış sazı,
Çaldım... nəğməm bir ölümə bənzərdi.

Hörürdüm saçını bir qəzəl kimi,
Çıxırdın qarşıma bir gözəl kimi!
Əski şair yazmış bir məsəl kimi
Baxışların bir şahinə bənzərdi.

Bilməm ki, şəfəqsən, ruhsan, xülyasan?
Həqiqətmi parlar, yoxsa röyasan?
Saçında çiçəklər, sən Ofelyasan!
Onun saçı, səninkinə bənzərdi!

*Hamlet, "Azərbaycan",*
*1919, 19 oktyabr*

## LEYLA

Deyirlər Qarabağ bir cənnət imiş,
Bəslərmiş qoynunda gözəllərini!
Məndə qüdrət yoxdur qələm çalmağa,
Tərif eyləməyə ancaq birini.
O gərgin qaşların kölgəsindəki,

Can alıb, can verən gözlərə qurban!
Bugünkü Leylanın xoş səsindəki
Mənalı, mənasız sözlərə qurban!
Qurban qəbul edib töksə qanımı,
Nəyi var şairin, verər canını?!

Qəmzəsi qan olan, gərdişi əla,
Doğrudan gözəldir, göyçəkdir Leyla!
Çiçəklər qoynunda bəsləmiş əndam,
Çıxdı dodağında badənin canı.
Gözəlsən, incəsən, qur yeni bir dam,
Əsir et, qul eylə mahi-tabanı.
Böylədir önündə hər yeni şair,
Yeni bir yol bular, bir əməl bəslər.
Mənim təbiətdən istəyim budur,
Çoxalsın yurdumda böylə gözəllər!

Könül tazalandı sitayişindən,
Könüllər sultanı, ellər gözəli!
Qorxum var dünyanın bircə işindən,
Mümkünsə dəyişdir qələm-əzəli!
Söylə ki, çiçəklər solmasın, Leyla!
Mənim qorxduğum hal olmasın, Leyla!
Dolansın başına ulduzlar, aylar,
Bu köhnə dünyanın Leylası da var!
Gözəllər toplaşıb olsunlar bacı,
Leyla da onların başının tacı!

*1934*

## BEYTLƏR, ÜÇLÜKLƏR VƏ DÖRDLÜKLƏR

Ovçu bilməz, xəyalının öz səsidir,
Öz qəlbinin, öz eşqinin nəşəsidir?!

Bu səs bəzən bir quş olur,
Bir budağa qonmuş olur,
Ötür yoncalı bağda!



Bəzən baxarsan bir maral,
Əndamının hər yeri xal, –
Gəzər dumanlı dağda!..

İlk baharın ilk nəfəsi,
Coşan eşqin bir həvəsi;
Nə olursa, olsun adı,
Səsdir ruhumun qanadı!
Ancaq mənim duyduğum səs,
Bu səslərə heç bənzəməz.

## SƏSLƏR

1. Bu səsi mən duymadım,
   Ağlayan dərdli neydən.

2. Bu səs bambaşqa şeydi
   Qəzəldəki gileydən.

3. Bu səsi duyammadım
   Mövləvi dərgəhindən.

4. Bu səsi duyammadım
   Bağrı yanıq bülbülün
   Sızlayan cəh-cəhindən.

5. Mən bunu eşitmədim
   Bəzmin ayaqlarından
   Mey soran saqilərin
   Gülgün dodaqlarından.

6. Mən bunu dinləmədim
   Hicranı vüsalından
   Daha çox sürən yardan.
   Sızıldayan kamandan,
   Qüssəli, qəmli tardan.

7. Nə mümkündür durulsun
Böylə imanlı bir səs.
Xayır, mənim duyduğum səs
Bunlara heç bənzəməz.

Bu səsi mən duymadım
Əski dövr ozanından.
Küsəgən camelərin
Titrəyən əzanından.

Bunun yanında söndü
"Ərkinəqon" nağılı.
Bundan bir şeymi anlar
Ərənlərin ağılı?!

Tarixə sordum bir gün
Haqqında əbəs, əbəs.
O da heç görməmişdir
Böylə uğurlu bir səs.

8. Çox danışdım könlüm ilə,
Birdən gəldi qəlbim dilə,
Dedi: bəzən keçmişdə;
Böylə səslər doğulmuş.

O yalmqat səslər də
Beşiyində boğulmuş.

Mən özüm də doğrusu
Bu səsin heyranıyam.

Cansızlara can verən
Nəfəsin heyranıyam!

Bu səsin Məcnunudur
Musiqi, sənət, şeir.



Çünki bu qoç döyüşlü
Bir sinifin səsidir.

Budda böyük adı ilə,
Musa öz inadı ilə;

İsa qanlı xaçı ilə
Xaçılə, torpağilə;

Məhəmməd Quranilə,
Qılıncı, qalxanı ilə;
Dinlədiyim səsdir, o səs,
Heç bir səsə bənzəməz!
Bən səninçün bəzəmişəm yolları,
Sənin üçün sevdim qürbət elləri!

## NƏ YAZIM

Nə yazım, ayrılıq nədir bilməzsən,
Nələr çəkdiyimi çəkənlər bilər.
Nə deyim, söz varmı dərdimə ölçü,
Sənsiz göz yaşları tökənlər bilər!

Sənsiz nədir Günəş, nədir qaranlıq?
Nədir günahımız biz ayrı qaldıq?
İşıqsız bir dünya yaşarmı artıq?
Gözünə qaranlıq çökənlər bilər!

Bəlkə sən anmadın mənim adımı?!
Bilməm xatirində yerim qaldımı?
Mən bir çiçək quşu – pozmam andımı,
Güllər bilməsə də, tikanlar bilər!

*Dərbənd, 3 may, 1920*

## BUNUMU İSTƏRDİN

Çoxdan bəridir ki, bu zavallı könlüm,
Mən səndən aldığım nur ilə yaşayır.
Sənin yadigarın ruhumdakı bu ölüm,
O coşmaq istəyir də, yazıq ki, coşmayır.

Qaranlıq bir yolda söndürdün çırağımı,
Öylə zənn etdin ki, bir daha yanmayacaq.
İndi bir nazənin almaqda sorağımı,
O keçən yolların qurbanıyam ancaq!..

Mən and içmişdim ki, o gün səndən sonra
Yalvarmayacağam artıq heç bir gözələ.
Ancaq günlər keçdi, sağaldı köhnə yara,
Bax onun qəlbimdə yox bir nişanı belə!

Mən artıq əvvəlki sərsəri deyiləm ki,
Sənin dizlərində tökəm göz yaşımı?!
Bu kəskin üsyanı, sən anlamazsan bəlkə?
Bir başqa mehraba əyməkdəyəm başımı!

İstədiyim kimi, sən qalx, onları dara,
Artıq nə mənası vardır, ağarmış tellər?!
Qaldır şu güzgünü, vur dilsiz divara!
Və sonra üzünü qaranlıqlara göstər.

## O QIZA

*Əli Nəzmiyə*

Ömür dedikləri, çarpaşıq bir yol,
O çarpaşıq yolun yolçusuyam mən.
Gəl, yolum üstündə bir sözüm vardır,
Gözəl qız, bu yolda Xızırım ol sən!

Sevda dedikləri çılğın bir dəniz,
Bən çıxdım dənizə, qaldım yelkənsiz.



Bən ölmək, qurtarmaq istəməm sənsiz,
Sənsiz hər ikisi nə gündür bilsən?!

Söylərsəm dərdimi göydə yıldıza,
Olur pək pərişan dərd yaza-yaza...
Bir soran yoxdur ki, o gözəl qıza –
Verdiyi dərdlərin dərmanı kimdən?!

Çılpaq omuzlara pərişan tellər
Tökülər, aşiqi pərişan eylər.
Neyləyim, dərd bilən deyil bu ellər,
Ağla, yazıq könlüm, yoxdur bir kimsən.

*Gəncə, 1919, 5 mart*

## SƏN AĞLAMA

Bən deyən yox, fələk deyən oldusa,
Əsdi yellər, gül yanağın soldusa;
Dərd əlindən ala gözlər doldusa,
Sən ağlama, bən ağlayım, gözəlim!

Uğurunda olmuş ikən sərsəri,
Bən öpmədən o qıvırcıq telləri;
Dağıtdısa təbiətin yelləri,
Sən ağlama, bən ağlayım, gözəlim!

Nerdə sənin hər aşiqə, hər gəncə,
Eşq oxuyan qəlbin, sönmüş o, bəncə;
Bulmayırsa qəlbin artıq əyləncə.
Sən ağlama, bən ağlayım, gözəlim!

Bir qul idim gecə-gündüz sizlərə,
Yazıq, bəni güldürmədin bir kərə...
Baxıb şimdi əlindəki izlərə,
Sən ağlama, bən ağlayım, gözəlim!

Bən baxarkən sən vurduğun yaraya,
Şimdi zalim fələk girdi araya.
Bax, xəstə qəlbimlə gəldim haraya,
Sən ağlama, bən ağlayım, gözəlim!

*Əhməd Cavad*
*"Maarif və mədəniyyət",*
*fevral, 1923, №2*

## AŞAĞI-LƏNGƏR XULUQDA

Soyuq bir cəhənnəm, bir yaman ölkə.
Soyuq güc gətirdi, sığındım kürkə.
Bu kürk olmasaydı, gəlməzdi bəlkə
Bu imansız qışın yazı Xuluqda.

Bir məktəb verdilər, eyni buzxana,
Ayaqlarım məni doydurdu cana.
Gecələr saldılar kirli yorğana,
Dedilər ol buna razı Xuluqda.

On beş gün istədim bir qalın corab,
Bir müsəlman oğlu verməd cavab.
Mən necə söyləyim, kim çəksin hesab?
Yoxdur ki, bir adil qazı Xuluqda.

Gecə qar, gündüz qar, axşam, sabah qar,
Deməzlər ki, burda bir müəllim var...
Bağlamış qapını cüt arvadlılar,
Qızdırıb söhbəti-sazı Xuluqda.

Yığıldı hamısı – ağsaqqal, hampa,
Boyun oldu hər şey, bir də bir lampa.
Gəldilər, lampa var, şüşə yox amma,
Yandıraqmı hava qazı Xuluqda?!

Bu kənddə nə çoxdur "baş üstə", "bəli",
Beləliklə işlər getməz irəli.
Qorxum budur əsə bir Şimal yeli,
Müəllimin sına sazı Xuluqda?!



Yorğanlar kirlidir, basmayır yanım,
Qışda yalqız yatdım, qızmadı canım.
İşlər düzələndə, olsa bir xanım,
Haqq verə bir sərvinazı Xuluqda!

*Xuluq kəndi,*
*1920, Pəşrin sani*

## MADONNAYA

*A.F.*

Mən doğrusu, bu boşluqda dolaşan
Məfkurəsiz, sərsərinin biriyəm.
Sən deyirsən – masallarda duyduğun,
Eşitdiyin əfsanəvi pəriyəm.

Nə lüzum var dəlil, sübut bulmaya?
Mən hazıram sənin qulun olmaya.
Heç deyildir gözlərin də bəşəri;
İnandım ki, sən pərisən, sən pəri!
Tök alnına o avara telləri,
Qoy olayım, bundan betər sərsəri!

Ağlataraq əski, qırıq sazımı,
Canlatayım bir az, sönük yazımı!

Bu doğrudur, sevda olur əzəli;
Mən şairəm, həyatımdan bezəli.
Ancaq mən bu fırtınada üzəli,
Görməmişəm sənin kimi gözəli!

Qoy başına gözəlliyin tacını!
Könlümdən al qulluğunun bacını!

*1922, 17 kanun sani*

* * *

Bir səs tutdu tarixin
Sirkəli yaxasından.
Baxaraq gözlərinə,
Sordu onun yaşını.
Tarix özü utandı
Kürkündən, çuxasından.
"Fərman sənindir" deyib,
Dikdi yerə başını.
"Sil" dedi əndamından
Yöndəmsiz ləkələri!
Ağır keçmiş, bilirsən,
Ömürün, günün sənin.
Göstər düzgün yolları,
Dolaşıram sərsəri.
Bu ancaq sənin haqqın,
Başına dönüm sənin!

*"Yeni aşıq" imzası ilə*

## NƏ ÜÇÜNDÜR

Nə üçündür bu keşməkeş... bu qovğa?..
Nə üçündür tərs yaranmış bu dünya?
Nə üçündür sabah, axşam oluyor,
Açan güllər bu tezliklə soluyor?
Bu sızlayan qəhqəhələr nədəndir?
Neçin belə son yaraşıq kəfəndir?
Kim yaratmış bu yerləri, göyləri?
Kim eləmiş məni belə sərsəri?
Neçin çoxdur yarayandan yaramaz?
Neçin belə arayandan bulan az?
Nə olmuşdur neyi gəlmiş nəvayə?
Onundamı bəxti uyğun cəfayə?
Ey ağlayan beşikdəki biçarə?



Bəxtin gəlmiş, düş beşikdən avarə!
O ki, belə məhv eləyir dünyayı,
Qıran yoxmu o uğursuz ox-yayı?
Bu hər zaman olacaqdır, eləmi?
Gül yanaqlar solacaqdır, eləmi?

Əskilərin fəlsəfəsi, hikməti,
Dünyalarca elmi-ürfan lüğəti;
Alimlərin çıxardığı haşiyə.
Zahidlərin yapışdığı haqq deyə;
Rahiblərin dindaranə ədası,
Sofilərin meti, meyi, sədası;
Bunlar hamı qurularçün əcəba?
Bu müəmma, yenə əski müəmma!
Hamı deyir inan mənə sözüm haqq!
Qarışmışdır bir-birinə haqq-nahaq.
Deyirlər ki, yerdə din var, kitab var,

Hər bəndədən sorulacaq hesab var.
Mən dedim ki, kim soracaq və nerdə?
Dedilər ki, o qəlbində, hər yerdə?
– O var isə, yalnız vicdan olacaq!
Fəqət bundan ölüm çıxmaz, mühaqqah.
Fəqət solan ortalıqda gülümdür,
Mənim dərdim ayrılıqla, ölümdür!

Mən doğrusu, daim gülmək istərəm,
Nə öldürmək, nə də ölmək istərəm!
Artıq yetər Yer üzündə axan qan,
Yetər artıq bu göz yaşı, bu hicran!
Mən istərəm yaşıllıqlar solmasın!
Sevdaların sonu hicran olmasın!
Qurumasın gözəl üzdə tər danə,
Nə ağlasın bülbül, nə də pərvanə!
Dilindəki aşiqanə qəzəli
Qoy oxusun o qəlbimin gözəli!
Ürəyində nə dərd qalsın, nə qayğı,

Mən görməyim səadətin sonunu!
Ölüm getsin, qalmasın da kölgəsi,
Olsun dünya – o bir sevinc ölkəsi!
Ah, bu günlər könül belə umunca,
Dəyişsəydi bir göz açıb yumunca!
Ey uçarkən düşüb ölən kəpənək,
Sən də gözlə, elə bir gün gələcək!..

*Qusar, 1921, 3 mayıs*

## ADSIZ ŞEiR

Kolxozlu ellərin bərəkətindən,
Bərəkətli elin hərəkətindən,
Kim deyərdi bu gün donduran bir qış
Şərəflə bəhs edib, aldılar alqış!
Zəfərlər bayramı, bir qurultayı,
Dondura bilməz ki, bu yanvar ayı!
Ölkənin bir başqa hərarəti var,
Ona neyləyəcək göydən yağan qar?
Qorxunc əjdahalar boğan bir ölkə,
Qızğın günəş kimi doğan bir ölkə;
Borandanmı qorxar, qardanmı qorxar?
Bu tərlan yığnağı sardanmı qorxar?
Bu cuna yaşmaqlı qadınlara bax,
Qoy onlar söyləsin, onların bu haqq!
Sözləri səmimi, fikirləri saf,
Hanı bəs, ay bacı, dediyin çarşaf?!

## BEŞİK

Yeni doğmuş bir körpəyə
Qul olur, qollanır beşik!
Neçin sevinməsin, nəyə
Sevinir, sallanır beşik!



Bizi gülüb dindirməyə,
Gələn körpə ağlar niyə?
Bir at istər mindirməyə,
At olur, çullanır beşik!

Uzaq bir yol, yalnız ana...
Könül kömək umar ona.
Yalvarmadan ona-buna
Yar olur, yollanır beşik!

Babanın alnının təri
Qurumazsa, vardır yeri.
Məmədən süd əmənləri
Aldadır, allanır beşik!

Bacamızdan çıxan duman
Deyir halım deyil yaman.
Evdə uşaq doğan zaman
Şən olur, dallanır beşik!

Beşik baxmaz heç bir kəsə,
Qulaq verir gələn səsə.
Nənə bir nəğmə söyləsə,
Yel olur, yellənir beşik!

*Çakva, 1917, iyul*

## GƏLİN

Ey süzgün gözləri səhər yıldızı,
Pərişan telləri yasəmən gəlin!
Gözəllər səcdəsi gətirdiyin din,
Girdim sizin dinə bir də mən, gəlin!

Hər yetən naz etdi, qatlandım naza,
Könül verdim hər boş söhbətə, saza!
Sallan ki, can quşu çıxsın pərvaza,
Pərişan olsun qoy hər görən, gəlin!

"Sənsizlikdir" bənim bitməyən dərdim!
Bitməyən dərdimlə mən sənə gəldim!
Gülən dodaqlardan mən bir gül dərdim,
Saxlanmış qəlbimdə istərsən, gəlin!

Sığmaz ikən ruhum geniş torpağa,
Gəlmiş hüzuruna bir qul olmağa!
Gözəllik bir çiçək, məhkum solmağa,
Soldurma boş yerə onu sən, gəlin!

*Gəncə, 1916, 6 iyun*

## AND OLSUN

And olsun dağların ağ suyu kimi
O qırıq dalğalı gülüşlərinə;
Vüsal vədə verən, ümid allahı –
Müxtəlif mənalı gülüşlərinə;

And olsun nazlanıb nazla əzilən,
Telli ulduz kimi bəzən süzülən,
Gahi rəhmət, gahi zülmət sezilən –
O qanlı-qadalı gülüşlərinə;

And olsun axşamlar nəşədən daşan,
Ürkək ceyran kimi dağlardan aşan,
Kəklik olub səkən, qan kimi coşan –
Dərbədər sevdalı gülüşlərinə;

And olsun səsinin ipəklərinə,
Bu xəstə könlümün diləklərinə.
Parlayıb can verən bəbəklərinə –
İşvəli, ədalı gülüşlərinə;

And olsun könlümün dərdli çağında,
Cilvələr yaradıb gül yanağında,
"Al" deyən, "Öl!" – deyən al dodağında –
Şəfəqli, şəfalı gülüşlərinə;



Mən sənə ömürlük bir qulam, gülüm,
Sən əmr eyləyincə, nə imiş ölüm!
İstərsən ağlayım, istərsən gülüm,
Şərh eləyim halı gülüşlərinə!

*1934, 25 noyabr*

## GÖZƏL QADIN

Sən kimdən öyrəndin belə ədanı,
Ey xəstə şairin ilhamı gözəl?
Solğun dodağından cami-sevdanı
İçirmişdir mənə saqiyi-əzəl.

Gözəllik tacını qoydun başına,
Dünyaya çəkmədin kabusi-ələm;
Sən bir mələksən ki, baxıb qaşına
Əlində şairin titrəmiş qələm!

Söz yox ki, hüsnünə xilqət günündə
Qüdrət qələm çalmış, susmuş mələklər...
Əvvəl cansız ikən, sonra önündə
Quşlar gəlmiş dilə, gülmüş çiçəklər.

Anıldıqca sənin sevgili adın
Bulmuş kamalını şerin hünəri;
Qarşında diz çökmüş, ey gözəl qadın,
Dünyanın ən böyük sənət ərləri.

*1924*

## ÇOBAN QIZI

Bəzəndikcə çiçəklərlə, ey çoban qızı,
Nə cənnətdir sığındığın dağların qoynu?
Qaş-göz oynar gözlərinlə göyün yıldızı,
Şair olur seyr edənlər bu coşqun oyunu.

Sanki gəldin bu cənnətə, təxtini qurdun,
Bir qat daha gözəlləndi sevgili yurdun.

Çoban qızı, eşitmişəm bir sevdiyin var,
Onun dərdi bu düşdüyün, gizlətmə məndən.
Doğru söylə onunçünmü gözlərin ağlar,
Müjdə umar hər vəch ilə gəlib keçəndən?

Sıxıldınsa, çağır gəlsin, o qalsın bir az,
Onsuz, əlbət, heç bu dərdə dəva tapılmaz.

Çoban qızı, "o" gəlmişdir, könlü də xəstə,
Qaldırma, gəl, ağlayacaq sazın telləri.
Nə ruh olur görüb səni coşmayan səsdə!
O bir şəhər yavrusudur cılız, sərsəri.

Çox başqadır incəliklər onun gözündə,
İnanma gəl, gəldi-gedən durmaz sözündə.

Anlaşılan, ayrılarkən bir boya verdi,
Verirkən də yalvardı ki, sürtülsün qaşa.
Üç günlükdür onun, quzum, sevgisi dərdi,
Can verdiyi bu sevdayı çıxarmaz başa.

Bax nə deyir eşqin üçün mən açdığım fal:
– Sürtmə onu qaşlarına, sən boyasız qal!..

## UNUDULMUŞ SEVDA

Soruyorsan: səni sevdaya salan
Nerdədir şimdi o qızlar gözəli?
Bən unutmuşdum o sevdayı inan,
Duyğusuz qolbi dövranın əli;
Bəni sarsıtdı, unutdum adını,
Bana gəl sorma o solğun qadını?!

Bəni pək gənc ikən ağlatdı zaman,
Çəkərək pərdə o xoş mənzərəyə.
Bənim ilk eşqimi ilk əldə haman,



Kümdülər, bilmədim əmma nerəyə!
Onu döndərdi xəzan yaprağına,
Nə deyim bən o yerin toprağına?!

Anlaşılmaz düşünüb, söylədiyim,
Nə durur qəlbim, o gündən, nə duyar!
Bən ki, hala yenə sərsəm kibi,
Yenə qəlbimdə o dərdin izi var!
Lənət ömrün bu ağır illərinə!
Qıydı bir şuxun ipək tellərinə!

Bir soran yoxmu o zalim fələyə,
Bu bənim gəncliyimin qatilinə;
Niyə qıydın sən o solğun mələyə?
Bu vurub yıxmağının qayəsinə?
Nə deyim, böylə bu mənasız işə?
Sonu yox, sıtmalı, sərsəm gedişə?!.

*Əhməd Cavad.*
*"Maarif və mədəniyyət",*
*may, 1924, №5*

## GÖZÜM YOLDADIR

*Şükriyyə xanıma*

A dostlar, bir qumral tərlanım uçdu,
Yollarda yolçum var, gözüm yoldadır.
On beş gün ayrılıq, on beş il keçdi,
Öldürdü intizar, gözüm yoldadır.

Hanı mənim arxam, qolum-qanadım,
Hörmətim, izzətim, şöhrətim, adım?
Qardaş bərabəri, gözəl arvadım,
Söyləyin, durnalar, gözüm yoldadır!

Getmişdi on günə, çıxdı on beşə,
Neçin saldı məni belə təşvişə?
Demədimmi saqın, könül bir şüşə,
Gec gələrsən, sınar, gözüm yoldadır.

O ki, verdi sənə həm var-yoxunu,
Qəlbimə sapladın hicran oxunu,
Yastığından aldım gözəl qoxunu
Yastığın gül qoxar, gözüm yoldadır.

Ey vəfasız, sənin ürəyin daşdan,
Neyçin söyləmədin, gülüm, bu başdan:
"Yarı az sevirəm qohum-qardaşdan".
Qohumlu baxtavar, gözüm yoldadır!

*Slavyanka, 20 iyul, 1930*

## Y.P.ORBELİANİ

Altun gəncliyimin dəyərli dostu,
Ay gözəl Yelena, xanım Yelena!
Vəfasız deyiləm, ölüncəyədək,
Hazıram başına dönüm, Yelena!

Neyləyim ki, fələk çox yaman sıxdı,
Onsuz da viranə qəlbimi yıxdı.
Dostlarımın çoxu vəfasız çıxdı,
Heyrətdə qurudu qanım, Yelena!

Gürcüstan qəşəngdir, buna yox sözüm,
Gəzərkən yurdunda sevinir gözüm.
Gürcü yaxşı dostdur görmüşəm özüm,
Onlardan birinci canım, Yelena!

Qəlbim kimi qəlbin bilirəm safdır,
Var olsun gözlərin yaxşı sərrafdır!
Deyənlər var: "dostluq bir quru lafdır",
Onları insanmı sanım, Yelena!

Doğrudur, dostluqda keçən bu on il,
Sevən bir qəlb üçün çox ömür deyil.
Ancaq mən istərdim, onu yaxşı bil,
Ağarsın tellərin, yanım, Yelena!

*1935, 10 iyul*



## KÜSƏYƏNLƏRƏ

Qoy nə deyir desin hər yetən çaqqal,
Bir yerdə yaşadıq, ağardı saqqal.
Bal-mal istəmərəm, deyiləm baqqal,
Şəkərim də sənsən, balım da sənsən!

Başdan zor görürəm, bezdim ayaqdan,
Bezikmişəm vallah, könül almaqdan.
Görünür bizimki əyilmiş haqdan,
Anamız küsəyən, arvad küsəyən.
Əqrəba küsəyən, övlad küsəyən.

"Can" dedim, ömrümdə eşitmədim "can",
Biçarə qəlbimi üzdü həyəcan.
Müxtəsər, könlümə neştərlər sancan
Hər qohum küsəyən, hər yad küsəyən!
Əqrəba küsəyən, övlad küsəyən!

Fələk polad kimi qəlbi yenərmiş,
İnsanın iqbalı yaman dönərmiş.
İndi anladım ki, ocaq sönərmiş,
Ev əhli küsəyən, övlad küsəyən!
Əqrəba küsəyən, arvad küsəyən!

* * *

*(Şükriyyə xanıma)*

Dünya dəyişmişdir artıq,
Bilməm varmı xəbərin?
Dəyişməyən bir şey varsa
O da sənin səfərin.
Bu səfər, uzun səfər,
Getdikcə uzun səfər.
Dərin boşluqdan gəlir,

Sənin kimi bir nəfər.
Nə çıxsın ki, göylərdə;
Varlığın bir yaraşıq;
Bu solğunluq yaraşmaz
Bizə işıq ver, işıq!
İşıq ver görünməmiş,
Bir dünya quranlara!
Dünyadakı boşluqdan,
Haqq-hesab soranlara!
Yoxsa bu gen boşluqda,
Tək gəzməkdən nə çıxar?
Yalqız deyilsən çox da,
Sənin də öz yerin var!

*1935, 14 dekabr*

## AT BU ÇADRANI

Səni gözdən eləyən,
Gözdən iraqlaşdıran;
Bu uğursuz çadranı
Fırlat qaranlıqlara.
Keçdi qaranlıq gecə,
Söndü zülmət, atdı dan.
Nə gizlənmək vaxtıdır,
İş hara, çarşaf hara?

Dörd divarın içində,
İşıq, Günəş görmədən;
Bəsdir qulaq verdiyin
Qədirbilməz səslərə.
Bir yeni hiylə tapdı
Məhvin üçün hər yetən.
Dost ikən düşmən oldun
"Can!" dediyin kəslərə.



"Namusu" zindanlarda,
Zəncirlərdə görənlər;
Ölməmiş əndamına
Kirli kəfən taxdılar.
Bir çox qanlı əsrlər,
Bilmədin ki, həyat var;
Cəhənnəm qorxusilə
Gül vücudu yaxdılar.

Nə idin, zavallı, sən:
Canlı, yaylı bir bəbək;
Güldüyün görünürdü,
Göz yaşın bilinməzdi.
Yağıydı hər kəs sənə,
Bilərək, bilməyərək.
Çökərdin bucaqlara,
Tozların silinməzdi.

Yer üzündə insanlar,
Tapınırkən sevgiyə;
Nə sevincək oldunsa,
Nəsibin oldu bir ah!
Hər dəfə sevdiyində
"Qadına haqq yox" dedi;
Müctəhidlə, padişah.

Eşitdim ta əsgidən,
Daş bütlərin önündə;
Qurbanlıq qoyun kimi
Baş əyirdin bıçağa.
Deyirlər, elə şeylər
Var dünyada, bu gün də:
Nə günlər keçirdin sən
Yetişincə bu çağa...

Bir dilsiz quzu kimi
Palaz bığlı tacirə;

– İstəməz, xatırlama –
Satıldığın günləri.
Şirvanın bazarından
Sürürdülər hər yerə;
Bağlananlar zülfünə –
Misirdən, Hinddən bəri.

Qaranlıq gecələrdə
Karvanlar keçir ikən.
Yurdunun əfsanəli,
Yoncalı yollarından;
Qaçmaqmı istəyirdin,
Ya nədən də qəflətən?
Əsirçilər yapışdı
Saçından, qollarından?

Bir az sonra Bağdadda,
Buxurdanlı sarayda;
Dərdli qəlbin qanından,
Mey sorardın vəzirə.
Dalğadan kəfəninlə
Dəclə adlı bir çayda;
Qanlı bir toy etdilər
Sən sevdiyin əsirə.

Aç tarixi vərəqlə,
Qanlı səhifələrdə;
Axıtdığın qanı gör
Əsirlər karvanında.
Eyni dərdlə inləmiş
Boğuq səsin hər yerdə.
Dünyanın hər yerində,
Misrində, İranında.

Deyirlər, qısqanclıqdan
Bilməm hansı peyğəmbər;



Bir əbədi intiqam
Almaq üçün qadından –
Demiş ki: "Gizlənməli
Bütün çirkin, gözəllər;
Əmrdir çarşaf sizə
Allahımın adından".

O qanlı gündən bəri,
Dodaqlarında yox qan;
O qanlı gündən bəri
Hıçqırıqla boğuldun.
Şah olsun, dərviş olsun,
Nankor imiş bu insan;
Süd verdin insanlığa,
İnsanlıqdaq qovuldun.

İndi artıq yıxıldı,
Batdı qanlı saraylar.
Devirdilər taxtını
Qan içən padişahın.
İndi dinin dilində
Bambaşqa bir zikr var;
Fərqini anlayan yox
Savab ilə günahın.

Gəl, gecikmə, çıx artıq,
Çıx, qarış insanlara!
Vur başına zahidin
Eşqini, imanını;
Bir nəhayət qoy artıq
Verdiyin qurbanlara;
İnsanlığın yolunda,
Qurtar, əvvəl canını!..

*1929*

## SƏSLİ QIZ

Sənin səsin, gözəl qız,
Səslərin ən gözəli.
Eşitmədim belə səs
Dünyanı dinləyəli...
Can alıb yüksəldikcə
Avazın pərdə-pərdə
Çox şeylər görən könlüm
Yenidən düşdü dərdə.
Bülbülün səsi kimi
Qaynayır incə səsin.
Sanki ömrüm uzanır
Uzandıqca nəfəsin.
Acımazsan könlümə,
Zildən enərsən bəmə.
Qız, yazığam bu dildə
Dərdimi şərh eyləmə!
Qız, qurbanmı istərsən
İnlətdiyin bu səsə?
Min dəfə ölsün canım
Söyləməsin bir kəsə.
Qəbul et qurbanımı,
Susma, Allah eşqinə.
Bundan sonra mənimçün
Yaşamaq nə, ölmək nə?!
Hər nəfəsin bir ayə,
Vəhyi-müqəddəs kimi!
Dünyada nemətmi var
Bu səndəki səs kimi?
Heç birinin lütfündən
Tapılmaz ki, bir payı.
Bilirəm ki, dərdindən
Ölənlərin yox sayı.
Qız, bu küskün könlümü
Bircə sənsən güldürən.
Sənsən məni dirildən,



Sənsən məni öldürən.
Məftunam mən səsinin
Bülluri axışına!
Məftunam gözlərinin
Atəşin baxışına!..
Sənin incə səsində
Dalğalanan nəşəyə!
Qurşandım sitayişə
"Nəfxeyi-rəbbim" deyə!
İndi şübhəm qalmadı:
Səsindəki qəhqəhə –
Doğrudan cəlb edərmiş
Sufini eşqilahə!
Səsindəki sirri mən
Gedib sordum dərvişə.
O məndən daha əvvəl
Heyran imiş bu işə!..
Bildinmi, bilmədinmi?
Açmadı sirr Allahı;
Dedi: "Haqqın cilvəsi
Görünür gahi-gahi!
Sirri-həqq hakim olmuş
Ta əvvəldən hər yerə!
Hər qövmin imanı var
Bir səsli peyğəmbərə!
Çoxdandır anlaşılmış
Bu sirr Fərat boyunda.
Axtarırmış o sirri
Kür-Arazın suyunda.
Əskilər onu sormuş
Ağsaqqal ərənlərə;
Haqq nuru, haqq sirrini
Qəlbilə görənlərə.
Demişlər ki, birinci
Gözəllik qız səsidir,
Gözəl qızda gözəl səs
Bu haqqın cilvəsidir!

Hər dinin əsli nədir? –
Qaibdən gələn bir səs!
Biçarə insanlığın
Dərdini bilən bir səs!
Bir çox gözəl qızların
Büllur kimi səsləri
Azmı xilas eyləmiş
Ölümdən bikəsləri?..

Oxudum tarixlərdə:
Qaniçən bir hökmdar
Bir ölkəni amansız
Eyləmişdir tari-mar!
Altı aydan çox sürən
Qanlı bir mühasirə,
Tutulmuşdu çox acı
Basqına birdən-birə!
Yüz minlərlə atılan
Can yağısı oxları,
Dişlərilə çeynəyib
Sərilmişdi çoxları.
Doğranmış əllərində
Qırıq qılınc qəbzəsi,
Boğulmuşdu köksündə
İgidlərin son səsi.
Yurdunu verməyənlər
Doğranmışdı xınchaxınc.
Tökülmüşdü yerlərə
Dağ kimi qalxan, qılınc!
O yanda qanlı gövdə,
Bu yanda gövdəsiz baş...
Bir qafa çığlamışdı
Hər qəzadan enən daş.
Yüz minlərlə qız, qadın
Dağılmışdı düzlərə.
Ölüm rəngi çökmüşdü
Saralan üz-gözlərə.



Cənnət kimi bir ölkə
Məzarlığa dönmüşdü.
Bir çox evlər yıxılıb
Xanimanlar sönmüşdü.
İşlənməmiş qalmadı
Bir cinayət, bir günah.
Əzmişdi insanlığı
Ordusuyla padişah.

Haqsızlıq oldu qanun,
Yıxıldı xanimanlar.
Hər şeydən xəbərsizkən
Yandırıldı çox canlar.
Qalmadı ağızlarda
Yaşamağın heç dadı.
Bir çox yazıq quşların
Qoparıldı qanadı.
Əsgərsiz komandanlar
Qırıb atdı yayını,
Fələk döndərdi zəhrə
Bu ölkənin payını.
Gülmək zatən yox idi.
Ağlamaq oldu yasaq.
Zavallı məğlub ölkə,
Sana nə hüquq, nə haqq!..

Ertəsi gün çox erkən
Yuyuldu qaldırımlar.
Şallaqla güldürüldü,
Hıçqırıqla bir diyar.
Yuyuldu divarlara
Sıçramış qan ləkəsi.
Vay səsi susduruldu.
Əmr edildi toy səsi.
Haqqı yoxdu kimsənin
Söz deyib, dərd açmaya.
Bəzənib çıxmalıydı
Gələnlər ağlaşmaya.

Döndü, oldu qəhqəhə
Qan qusan hıçqırıqlar.
Çiçək səpəcək oldu
Bütün qəlbiqırıqlar.

Qan içən padişaha
Hazırlandı istiqbal:
– Çıxmalısan qarşıya,
İstəyir öl, istər qal!..
Elə bil olmamışdı
Dünənki keşməkeş də,
Çıxdı güləş üzüylə
O bəxtəvər günəş də!
"Mənim də qanlı, qansız
Cilələrim var!" deyə
Çıxdı dərin göylərə,
Sıçrayaraq üzməyə.
Yüksəldikcə göylərin
Sakit gəzən sultanı;
Qaranlığın qalmadı
Dodaqlarında qanı.
Çaşdığından əvvəlcə
Buludlar da qızardı.
– Dünən buludların da
Çox dönük rəngi vardı! –
Bir az sonra onlar da
Əkildilər, getdilər.
Yerdə qalan buludlar
Matəmi tərk etdilər.
Kimdir bu sultan deyə
Sordular bir-birindən;
Eşidincə adını
Ah çəkdilər dərindən.
Ağardılar qorxudan,
Çəkildilər dağlara;
Sırmalı bəxtəvər də
Qonaq gəldi bağlara.



Bilmirəm gördünüzmü
Sabah vaxtı çiçəklər;
Çıxınca çaşqın günəş,
Nə dadlı mahnı söylər?!
Bu qıldıqsız günəşin
Sehr var baxışında.
Bir kərə göründümü
Göz yaşı axışında;
Çiçəkli kirpiyində
Yaşdan əsər qalmayır,
Qaşqabaqlı buluddan
Bir salam da almayır...
Nəşədən hallanırlar...
İçirlər zövqü incə...
Çiçəklərdə dadə vardır,
Ta qaranlıq gəlincə...
– Ömürdəndir bir gün də,
Ey çiçək, sevin, haydı!
– Ya batmayaydı Günəş,
Ya çiçək olmayaydı!..
– Bir də ki, bu həyatda
Günəşmi yalnız batan?
Az qaldı deyəcəkdim
Bütün həyat bir yalan!..
– Həyat yalan olsaydı,
Bir coşqun çiçəklər nə?..
Yox, bir günlük də olsa
Həyat həyatdır yenə!..
Dünən bir nişan yoxkən
Bağda səsdən, səmirdən.
Enincə dağdan Günəş
Quşlar da coşdu birdən.
Qarışdı qaqqıltılar
Büllur səsli cəhcəhə;
Yüksəldi hər budaqdan
Bir nazənin qəhqəhə!..
Sanki birdən çalındı

Qumrov, kaman, nayla ney,
Doldu şirin səslərlə
Kölgəli bağ, boz güney...
Məgər bəzən həyatla
Ölüm qardaş olurmuş:
Uçuşurdu yanaşı
Göyərçinlə qızılquş!..
Qorxmadan üzə çıxdı
Eldən qaçan qırqovul.
Yumuşaldı ürəklər
Qalmadı şeytan, çuğul...
Zalımın bəxti üstün
Məzlumların ahından;
Quşlar nə gözləyirdi
Ölüm padişahından!?
Quşlar da, bax, gözəl qız,
Coşdu o gün sənin tək;
Onlar da sərdi, durdu
Yollara səsdən ipək.
Bütün şəhər silkinib...
Əsər qoymadı pasdan,
Dünənki matəm hanı?
Doğrudan çıxdı yasdan.
Düşmən şahın gəlişi
Qanuni bayram oldu.
Bir çox dərdli ürəklər,
Qanlı sevinclə doldu.
Qəribə şeydir insan:
Al əlindən canını,
İstəyirsən ovucla
Hortlat axan qanını.
Qoparıb əz qəlbini
Əylən çırpınmasilə,
Sürükləyib yerlərdə
Beyninin bağasilə,
Heç baxma, istəyirsən
Saflığa, günaha əs;



Bir yırtıcı cəllad ol,
Doğra parça-parça, kəs.
Qadınsa, tut, boğ onun
Qan qusan fəryadını,
Qoy çıxarsın yadından
Sevdiyinin adını.
Qızsa, atın döşündə
Ləhlət gün qızmarında.
Gəlinsə hərraca qoy
Əsirlər bazarında.
Sonra çəkil, uzaqdan
Məğrur baxışla bir bax!
Görəcəksən ölənlər
Baldırında bağırsaq:
Sənin qanlı əlində
Bitməz qüvvət var deyə,
Hazırdır bağışlayıb
Dadsız-dadsız gülməyə.
Bu yoxsul insanları
Qırdırdınmı bir kərə,
Qəhrəman olacaqsan,
Düşəcəksən dillərə.
Keçmişdə coşmayırdı
Məzlumun qanlı kini;
O zamanlar güc idi
Xalqın yeganə dini.
Səyirdərək darğalar
Sağa-sola atını,
Seçdilər əhalinin
Yoxsulunu, tatını;
"Şah keçəcək yolları
Kirlətməsinlər" deyə,
Yolçularla yanaşı
Qovdular dal cərgəyə.
Ordu tirəndazları
Girdilər ellik bağa,
Çalışdılar qalmasın

Ağacda bircə qarğa.
Saçaqlı xalılarla
Bəzəndi bağlı çarşı,
Bayraqlı minarələr
Yüksəldi göyə qarşı,
Kəlisa qülləsində
Çalmdı zorba çanlar.
Az qaldı deyəcəkdim
Mədən də zordan anlar.
Danqırtıyla ötdü çan,
Hazırlandı baş keşiş;
Məscid həyətində də
Eyniylə canlandı iş;
Danışdı şişman xoca
Üç saatdan yuxarı,
Hazır qıldı beyətə
Mömün müsəlmanları.
Xaçilə keşiş çıxdı
Məshəfilə şeyxana;
Çıxdılar istiqbala
Xaçla məshəf yan-yana.
Əllərində sür təsbeh,
Gümüşlü buxurdanlar,
Nazlanaraq səkirdi
Haqqdan qaçan insanlar.
Damağı çağ, kefi kök,
Qarnı tox tacirbaşı
Dingildəyib gedirdi
Şeyxlərlə yanaşı.
İnsan əlindən yerə
Düşməzdi iynə atsan;
Yalnız küçələr deyil,
Evlər gətirdi insan.
Dırmaşmışdı uşaqlar
Mazqallı divarlara.
Boylanıb dururdular
Ürkək, zəif, avara!..



Dam üstündə qızların
Solğun dodaqlarında,
Boylanan gəlinlərin
İslaq yanaqlarında
Solan hüznün yerində
İndi vardır bir maraq.
Nə çiçəklər yetirir
Bu qan qoxulu torpaq!

Sayılırkən əvvəldən
Bir ölkənin pənahı,
Qarışmışdı xalqına
Ölkənin məğlub şahı.
Şahın bu gün ağır daş
Asılmışdı boynundan,
Çıxmayırdı əlləri
Xələtinin qoynundan.
Keçən gündə edərkən
O, Allah iddiası,
İndi bu son cəlala
Kəsildi, durdu ası.
Gir yerə, ey padişah!
Sənin bu boş başından
Nələr çəkdi məmləkət
Bir soruş göz yaşından.
Açıldı bayraqlar,
Çalındı boru;
Fələk görməmişdi
Bu vurhavuru.
Toz ərşə dayandı,
Göy dumanlandı;
Torpaq şaha qalxdı,
Toz da canlandı.
Qıvrıla-qıvrıla
Boz bir əjdaha;
Gəlirdi salama,
Büzülmüş şaha.

Böyüdü, canlandı
Donuq nöqtələr...
– Onlar atlılardır,
Nöqtə nə gəzər;
Bir az yaxşı dinlə,
Hey qıya bir bax?
Dördnala gəlirlər
Atlar çaparaq!
Düşmənin də olsa
Bax, bir az əylən.
Özləri igiddir,
Atları köhlən.
Olunca kefin kök,
Yollar da həmvar.
Qızışmış atlarda
Başqa ləzzət var!

O gün doğrudan da
Coşmuşdu atlar.
Uçaraq yetişdi
Qırx, əlli çapar.
Yanaşıb ədəblə
El qarğamışa;
Dedilər yoldadır
Gərdüneyi-şah.

Qaçdı məğlub şahın
Bəti-bənizi,
Coşdu, dalğalandı
İnsan dənizi.
İstidən bayıla,
Dərddən boğula;
Birdən bütün başlar
Çevrildi yola.
Gözlər qıyılaraq
Qaşlar çatıldı.
Qələnin bürcündə



Toplar atıldı.
Bəzəkli qurbanlar
Sərildi yerə.
Parladı bıçaqlar
Tək bircə kərə...
Əvvəl bir sızıltı...
Sonra təpinmə...
– Dinmə, yazıq heyvan,
Ölsən də, dinmə!
Çevrilmiş gözünlə
Yollara bir bax:
Bu gələn gərdunə
Uğursuz qonaq;
Bilirsənmi, qan!..
Heyvan qanı içər,
İçməyə qan istər,
Olmasa insan.
Bax belə alqışla,
Çırpınıb dur da...
Sənin də payın var
Bu vurhavurda!
Belə bir cəlalı
Görməmisən sən;
Qabaqda Qıratın
Üstündə gələn,
O seyrək saqqallı,
Buxağı salla;
Yeddi tuğ ardınca
Gələn cəlalla;
O qanlı şərabdan
Doymayan Xaqan.
Səndən qan istəyir,
Bilirsənmi, qan!..

Nədənsə qatilləri
Boğmayırmış göz yaşı...
Gəldi uğursuz Xaqan,

Əyildi xalqın başı.
Baxaraq azğın-azğın
Qan daman gözlərilə,
Ürəkdən məğlub şahın
Əyləndi sözlərilə.
Qalxdı başlar səcdədən,
Başlandı çirkin hesab.
Dodaqlar üzəngidə –
Öpüldü çaxçur, corab.
Samur kürkün ətəyi
Öpüldükcə marçamarç;
Ayini təqdis etdi
Məshəf ilə qızıl xaç.
Nə fitvalar çıxardı
Acgözlü yaltaq xoca!
Keşiş də xaç çevirdi
Yalan qusdu bolluca.
Din bir çəkuzandısa,
Həm uzanır, bükülür;
Həm qaynar qətran olur,
Boğazlara tökülür.
Sehrli bir halı var,
Haqq çıxarır yalandan.
Yeni bir fitva tapır
Hər olandan-qalandan...
Qalmadı dal cərgədə
Burda da tacirbaşı.
Keşiş, xoca, bir yerdə
Durmuşdular yanaşı.
Əslisi gəldi sanki
Bağrı yanıq Kərəmin.
Edilən dualara
Ürəkdən dedi: "Amin!"
Ağsaqqallı bir qoca
Bir ehtişam əsiri;
Uğursuz hökmdarın
Beş tuğlu baş vəziri –



Yetirdi məğlub şaha
Buyruğunu Xaqanın:
"Malın, mülkün bizimdir,
Amanda, ancaq canın.
Qarşı çıxdın Xaqana,
Tutmadı, söndü baxtın.
Qılınc çaldıq, qazandıq,
Bizimdir tac və taxtın".
"Yaşasın", bağırtısı
Qopunca hər bir yandan,
Hərəkət əmri verdi
Lələkli baş komandan.
Dal qılınc rikabdarlar
Yarıb keçdi irəli.
Yol açdı gərdunəyə
Bağrışaraq sərsəri.

Beləcə əski parça
Bir çırtmayla atıldı;
Bütün bu ölkə xalqı
Çox ucuzca satıldı.

Qaldı bütün kənarda
Can verənlər, ölənlər.
Satışı təsdiq etdi
Tox qarınla gülənlər.
Axşam çökdü şəhərə,
Bir südlü, aylı axşam.
Çoxlu xəbər gətirdi
Şivənli, vaylı axşam...
Ürkək gəzən kölgələr
Qorxurkən bir-birindən,
Göz vurdu yıldızlar da
Göylərin kəfkirindən.
Hıçqırdı yer bu doğru,
Bir bax ki, göy nə hayda?
Solğun dodaqla güldü

Hər dərdə solğun ay da...
Ondan gözəl bu zülmü
Bir can ki, görməmişdi.
Qırğında fırlanarkən
Ay sanki görməmişdi...
Aydan cavab almalı
Ac, kimsəsiz qalanlar...
Çaş-baş olub baxırdı
Aydan soraq alanlar...
Axşam düşüncə susdu
Öz yoxluğilə Allah.
Allah yerində qaldı
Töyşüklü bir yanıq ah!..

Yoxsullar boğulurkən
Bu qanlı, yaslı vayda,
Xaqan dalmışdı eyşə
Bağlardakı sarayda.
Mərmər sütunlu qəsrin
Sarmaşıqlı eyvanı;
Çıraqlarla bəzənmiş
Nurladırdı hər yanı.
Çiçəkli köşkü axşam
Bəzətmişdi əski şah.
Xaqan demişdi: "İndi
Kef etməmək bir günah.
Mənim sadiq vəzirim,
Gəl, gəl baxaq hesaba:
Vəzirimin saqqalı
Boyansın bir şəraba!"
Gül əndamlı saqilər
Dad qatınca kəlamə.
Yaşıl çarşaf sərvlər
Dikildilər səlamə.
Uçuşdu rəqqasələr
Baş vəzir əl çalınca.
Mərmər döşləri üryan



Baldırlar da yalınca...
Atıldı nazlı qızlar,
Töküldü tellər üzə.
Min yerdən "can!" deyildi
Hər axan süzgün gözə...
Gülərkən gül üzlü qız,
Minalı, güllü qabda;
Büllur əyaqda coşdu
Dünya görən şərab da.
Dumanlandı beyinlər,
Süzüldü gözlər tamam.
Əl-ayaqlar göynədi,
Əzildi sözlər tamam.
Çıxardı sanki yaddan
Axıtdığı qanları;
Sevərdi sayqısızca
Orda komandanları.
Xumarlandı gözləri
Çılpaq qadınların da.
Sərildilər yerlərə
Xaqanın yanlarında.
Yüksəldi hər tərəfdən
Şəhvətli, kirli səslər;
Alınlarda dolandı
Ölüm iyli nəfəslər...
Göründü şəhvət açıq
Xaqanın sözlərində;
Ədəbsizlik qabardı
Bərəlmiş gözlərində...

Qaçışın, yazıq qızlar,
Boğsunlar, ölüm barı!
Yox, ölüm dadlı isə
Oynayın, gülün barı!
Bu axşam səs çıxarmaq
Deyil həddi kimsənin.
Günahın ondadır ki,

Adın qadmdır sənin.
Elə isə durmadan
Dincəlmədən çal-çağır;
Batdımı gözəl səsin,
Bağır deyirlər, bağır!..
Ey süzən qumral qadın,
Yazıqsan, süzmə belə!
Qurtarış yoxdur sənə,
Canını üzmə belə!..
Göstərdilər Xaqana,
Kəsmə telli bir qızı;
Dedilər ki, "bu Sara –
Ölkəmizin yıldızı".
Fərqi yox, qoy süzülsün,
Baxsın belə dərindən;
Nə anlar sərxoş baxış,
Saranın gözlərindən!?
Kim ki, Saranı gördü
Çəkdi xeyli yanıq ah.
Bir şey qanmadı ondan
O qəlbi kor padişah.

O qızıl gül damlayan
Meyli dodaqlarında;
Pənbə rəngi qızardan
Pənbə yanaqlarında;
Hər dəfə çağrılanda
Ürkək gəlişlərində;
Qorxusundan ağaran
O incə dişlərində;
Fikri dərinləşdirən
Qıvırcıq saçlarında;
Qüdrətin qələmiylə
Çəkilmiş qaşlarında;
Dolğun döşdən qabarmış
Töyşüklü sinəsində;
Dünyanı alt-üst edən
Canlı, büllur səsində;



Parlayan aləmləri
Anlarmı qan içənlər?!
Nə bilir çiçək nədir.
Kor gəlib, kor keçənlər?!
Kar olanlar dünyanın
Mənasız hay-huyundan;
Nə anlardı Saranın
Orta, oynaq boyundan?!
Donuq bir şey göründü
Duyğusuz padişaha;
"Oxusun!" əmri çıxdı,
Sara coşdu bir daha.
Can verən sərxoş gecə
Ölürkən yorğun, əzgin –
Coşdu qızın səsində
Ölkədə qaynayan kin.
Boş yerə bir ölkənin
Haqsızca axan qanı;
Saranın dodağında
Canlandı, oldu mahnı!..

## ŞƏRQİ

Mən ki, səndən doymamışam,
Quş qonmağa qoymamışam.
Bir almanı soymamışam,
Kim sənə gəc baxdı, bağlar?!

Bağçalarda qırmızı nar,
Qırmızı qan güllərin var;
İyləməyə doymamış yar,
Gəldi şimşək çaxdı, bağlar!..

Qazlarınm boynu bükük,
Ördəyinə can ağır yük,
Çaldı şahmar, tozladı tük,
Gör nə qanlar axdı, bağlar!..

Darğınam mən belə baxta,
Ürəyim qan laxta-laxta.
Bax ki, kimlər çıxdı taxta,
Küsdü kimin baxtı, bağlar!..

Çıxmamış gün, atmamış dan,
Qanlı bir toz qalxdı yoldan.
Qoç igidlər oldu qoldan,
Qanlı kəfən taxdı, bağlar!..

Nədir səndə bu qüvvət
Susdurur aslanları?
Bəzən düşündürür də
Qan içən insanları?
Sara susunca, xaqan
Xırlayıb bağırdı: "Hey,
Mən Saranın əlindən
İstərəm bir qədəh mey!.."
Bir oxla ayrılmışdı
Sara nişanlısından.
Düşündü: "İntiqam al
Gəl onun qanlısından."
Arqunu görməmişdi,
Son nəfəsdə gülərkən.
İndi görmək istədi
Cəlladını ölərkən.
Fırlatdı bir qəhqəhə
Çılğınca qalxdı birdən;
"Arqun, sən olmadıqda
Yaşayaram necə mən?!
Arqun, yetiş, hardasan?
Qaldır mənim qolumdan;
Qurtarım öz yurdumu
Həqarətdən, zulumdan!"
Sara süzdü bir dəfə
Xaqan mırlandı: "Bəh!.. Bəh!.."
Sara süzdü bir daha



Əlində gülgün qədəh.
Rəqqasələr də qalxıb
Başlayınca süzməyə;
İti bir hərəkətlə
Zəhər qatdı qız meyə.
İndi onun halını
Gücdür gətirmək dilə;
Ürək çarpıntısından
Çapçılandı mey belə.
Qadınlıq qorxusundan
Yarıldı gülgün dodaq.
Yanaşdı titrəyişlə
Düşmən şaha bir sayaq;
Qansız dodaqlarilə
Öpdü şahın əlindən.
"Buyursun padişahım!"
Zorla çıxdı dilindən.
– Sən çoxdan içməliydin
Bu gülgün zəhri, ey şah.
Şahmarı sağ buraxmaq,
Öldürməmək bir günah!..
Doğrudur xalqın sözü:
Qanlıyı qan tutarmış;
Bəzən də bir içim su
Əjdahanı boğarmış!..

Şahı ölmüş görəndə
Açılan gülgün səhər,
Qarışdı məclis bütün
Qaçışdı rəqqasələr.
Səs-küy yayıldı şəhrə,
Çatdı başsız bir ordu.
Bir sərçə çıxdı birdən
Qaçırtdı qanlı qurdu.
Ayaqlandı bütün xalq –
Arvad, uşaq, qocalar...
Çarpışdı son gücüylə

Düşmən oldu tarimar...
Bir qızın hümmətilə
Qurtarıldı bir ölkə.
Az çəkmədən qan ilə
Yuyuldu iyrənc ləkə.

Gözəl qız, həmin ölkə
Dustaqdan azad oldu.
Sara adı xalq üçün
Ən sevimli ad oldu...
İlk qüvvəti o qızdan
Alırmış hər sənətkar.
Hər bucaqda Saranın
Mərmərdən heykəli var.

"Azadlıq" eşidincə
Gülümsəmə belə şad;
Saranın məmləkəti
Köhnə mənada azad.

Orda hər şey asılı
Qan içən bir kraldan;
Sor orda hürriyyəti
Baftalı generaldan.
Yoxsullar o ölkədə
Özgəyə can vermədə.
Hürriyyətin barını
Tox qarınlar dərmədə.

Sən ancaq istibdadın
Eşitmişsən adını;
Bax, alnımda izi var
Görmüşəm mən dadını.
Bir bu süzgün baxışla
Gün güşən dağlara bax:
Mən bu yaşıl dağlardan
İllərlə düşdüm iraq!



Nə varlıqlar verildi
Bir çox yox olmuşlara!
O qara günlər hara,
Bu günkü günlər hara?!
Gözəl qız, yaxşı vaxtda
Başladın gül açmağa;
Bu gün sənin yurdunda
Nə qul vardır, nə ağa!
Sən bu sərbəst göylərin
Sərbəstcə yıldızısan;
Qayğısız bir ölkənin
Qayğı bilməz qızısan.
Sərbəstdir alnındakı
Qıvırcıq tellərin də.
Sərbəstdir sənin kimi
Gün görmüş ellərin də,
Elə isə bir də coş,
Səsin düşsün dağlara!
Sən kimdən çəkinirsən?
Qız hara, susmaq hara?

*1928-1929*

## ALMASIM ÜÇÜN

*Qızıma*

Bir il bundan əvvəl bir səhər erkən
Günəş üfüqlərə sırma düzərkən,
İşıqlar zülməti saldı kəməndə.
Günəşlə bərabər oyandın sən də.
Yuyundun, darandın, qarlar kimi saf,
Tellərin sığallı, gözlərin şəffaf;
O axşam yazdığım dəftəri tutdun,
Neylədim baxmadın, şeir oxutdun.
Bir şeir yazmışdım dərdi-dilimdən,
Çox bəyəndin, qızım, öpdün əlimdən.

Qələmlə qəlb andı o günkü halı...
Sən getmiş olsan da, çıxdın vəfalı!
Səni illər boyu yad edər deyə,
Qələmlə birləşdik, yazdıq mərsiyə.

## QIZIMA

Qüdrətim olsaydı, yaza bilsəydim,
Bir kağız üstünə bu dərdi, qızım!
Sənin müsibətin mənim dərdimdən,
Neyləyim ki, qat-qat betərdi, qızım!

Bunu kim deyərdi bir səhər çağı,
Tarı-mar olacaq ömrümün bağı?
İpək tellərinin gəlsə sorağı,
Qəlbimdə nə güllər bitərdi, qızım!

Mənim müsibətim gəlməz ki, başa,
Dur dedim, durmadı gözümdə yaşa.
Desəydim dərdimi qəbirdə daşa,
O da dil-dil olub ötərdi, qızım!

Süzülüb bir daha gələ bilsəydin,
Barı bir dəfəlik gülə bilsəydin;
Ya da rahat-rahat ölə bilsəydin
Bütün qəmim, qüssəm itərdi, qızım!

Məktəb bacıların gördülər zatən,
Can verən sən diin, cam çıxan mən!
Sən çıxıb gedərkən taza aləmdən
Mənim alnımdakı nə tərdi, qızım?!

Göllərim qurudu, sonam ağladı,
Sonama səs verdi, anam ağladı;
Toyuna aldığım xınam ağladı,
Mənə qara daşlar gül verdi, qızım!



Səndən bir yadigar olacaq deyə,
Of... yaza bilsəydim sənə mərsiyə;
Biçarə qəlbimi sərinlətməyə,
İnan, ömürlükcə yetərdi, qızım!

*10 oktyabr, 1934*

## MAXMUROVA ÜÇÜN

Məxməri ormanlarda çiçək dərdiyin yerdə,
Baxarsan çiçəklər var açar kölgəliklərdə.
Bənzəməz bu çiçəklər qaynar, qanlı laləyə,
Lalələr ki oxşayar qan dolu piyaləyə.
Bənzəməz bu çiçəklər günəşdən doymuş gülə,
Onların ətirləri bəzən duyulmaz belə;
Ruhumu sərməst edən çiçəklər də gördüm mən,
Onların sər tacı da qıvırcıq tel yasəmən.
Onlarda rəng də vardır, çoxu da tabaq-tabaq,
Ancaq bu gün gördüyüm bu incə dallı zanbaq, –
Bir süzülüb gedincə satar yaşıl sərvə naz,
Gül sərrafı olmayan bundan bir şey anlamaz.
Varsın, yanaqlarında çıxmasın qızğın günəş,
Mənim küskün ruhuma, belə gözəllərdir əş;
Yetişmiş əfsanəli kölgələrin qoynunda,
Bu qızdan çəkinməli qorxulu eşq yolunda.

*11 fevral, 1935*

## QIZIM ÜÇÜN

Ay qızım, bu ömür yaman fırtına,
Mən özüm də bir gün tutuldum buna.
Azğın küləklərlə gəlib üz-üzə
Gah batdım dənizə, gah çıxdım üzə;
Nəhənglə çarpışdım, dalğalar aşdım.
Qoçaqlıq göstərdim, əcəldən qaçdım.

Ruhumda bir boşluq, hər yerim yara,
Yorğun, əzgin bir gün çıxdım kənara.
Süründüm çöllərdə, batdım qan-tərə,
Cansız meyid kimi sərildim yerə;
Düşündüm-daşındım, ümidim sönük,
Dedim ki: "Taleyim nə qədər dönük!
Bu uzun gecənin bir sonu yoxmu?"
Az sürdü, bilmirəm bu halım çoxmu.
Demə, möhlət vermiş imansız əcəl,
Toxundu qəlbimə çox isti bir əl.
Artıq səadətlə yumdum gözümü,
Yumuşaq bir ələ sürtdüm üzümü;
Bir gözəl dost tapdım, yaram bağlandı,
Qumral gözlərinə içərək andı –
O gözəl xilqətin oldum əsiri,
Onun bir quluyam o gündən bəri.
O gündən qaranlıq yolumdan qaçdı,
Dostum mənə nurlu cığırlar açdı,
O olmasaydı, mən yolda qalardım,
İnan ki, çürüyüb torpaq olardım;
O olmasaydı, mən coşa bilməzdim,
Bu ağır dağları aşa bilməzdim.
O olmasaydı, mən nə idim – bir heç,
Yetən bağırardı: "Çəkil, durma keç!"
Onun ılıq səsi, inamlı səsi,
Şəfəqi, şöləsi, məhrəm nəfəsi;
Mənə qüvvət verdi, gəzdim, dolandım.
Artıq bütün dünya mənimdir sandım.
Bir gün yuvamıza döndüm bu sayaq;
Beşikdə nə vardır – dedilər – bir bax!
Baxdım ki, doğmuşdur mənim yıldızım;
Uğurlu bir gündə gəlmişdin, qızım!

Böyüyüb çatınca sən bir yaşına,
Nə qədər dolandım, bilsən, başına.
Bir gün gəldi çatdı yaşın ikiyə,
Qızıl beşlik atdım boş nəlbəkiyə.



Böyüdün, əndamın olduqca incə,
Yeməli qız oldun üçə gəlincə.
Çiçək-qızılcasız yetişdin dördə,
"Get, yolun açıqdır!.." Söylədim dərdə.
Beşində büsbütün dəyişdi dilin,
Sənə qurban kəsdi ailən, elin.
Çatınca altıya düşdün dillərə,
Sırmalar düzdürdüm ipək tellərə.
Tanıyanlar bilir yeddi yaşında,
Ciddi bir qız idin əqlin başında!
Səkkizində artıq öyrəndin savad,
Nə qədər sevindi biçarə Cavad.
Doqquzuncu yaşa qoyunca qədəm,
Yalnız qız deyildin, sən mənə həmdəm...
Səni on yaşında görüncə dostlar,
Dedilər: "Bu qızda başqa aləm var!"
On birində güldü ala gözlərin,
Mənə ürək verdi şirin sözlərin.
On ikinci bahar birdən boy atdın,
Ömrümə bir başqa uğurluq qatdın.
On üç yaşında bir mükafat aldın,
Məktəbdə çalışdın, yaxşı ad aldın.
On dördündə döndün on dördlük aya,
Artıq gözəlliyin gəlməzdi saya.
On beşində süzdü tamam sünbülün,
Bəzəndi əndamın, açıldı gülün.
On altıncı bahar, nə qanlı bahar!..
Ox, qızım, fələkdə nə dönüklük var!?
Bir ağrı başladı, qovrulub yandın.
Ağrıyır deməyə bəzən utandın.
Soldu yavaş-yavaş pənbə dodaqlar,
Gülümsündü acı gülgün dodaqlar;
Ala gözlərində kəsər qalmadı,
O şaqraq səsindən əsər qalmadı.
Artıq oynamadın, əl çalınmadı,
Qədəhlər boş qaldı, mey alınmadı.
Bizim xanımanın söndü şənliyi.

Ananın, babanın bitdi mənliyi.
On ay evimizdə kaman ötmədi,
Təbabət çalışdı, bir şey etmədi.
Ağırlaşdı başın, kəsildi saçın,
Dedin "uçacağam, yolumdan qaçın!"
Şəhər-şəhər səni gəzdirdi baban,
Dərdini dağlara sezdirdi baban;
Qucaqladım səni, hər yerə vardım,
Dərmana yalvardım, dərdə yalvardım.
Bəlkə oldu deyə, sehrə inandım,
Fələk də qəlbimə acıyar sandım.
Fələkdən nə gördüm? Haqsızlıq ancaq,
İndi gəl babanın bir halına bax, –
Mənə də yer göstər, dincəlim, qızım!
Yalqızlıq yamandır, qoy gəlim, qızım!

Səndən sonra, qızım, bir bayram oldu,
İnsanlar axışdı, şəhərlər doldu...
Sevdiyin Bakını döndərdik bağa,
Söykəndi yollarda bayraq-bayrağa.
Lalədən don geydi əmək ölkəsi,
Çulğadı göyləri gəncliyin səsi.
Cərgələr dəmirdən, səflər poladdan,
Hər kəs bəhs edirdi bir böyük addan.
Göydə təyyarələr çiçək taxdılar,
Buludlar ürküşdü, quşlar baxdılar.
Bir daha tarixə baxdı milyonlar,
Ümidlə, imanla axdı milyonlar...
Baban da qoşuldu bu vurhavura,
Sənin bayramına səsləndim: ura!
Bağırdım, ürəkdən bağırdım, qızım,
Bu yeni mahnını çağırdım, qızım!

Dünya dikmiş ikən göz bayramına,
Sən niyə gəlmədin öz bayramına?
Qızlar cərgəsinin düşüb önünə,
Neçin qoşulmadın bu şanlı günə?



Taxmadın köksünə qızıl qərənfil,
Bu il niyə çıxdın cərgədən qəfil?
Gün görmüş ölkənin qızları coşdu,
Bəs nədəndi sənin öz yerin boşdu?
Hər il coşub bayram edərdin, qızım,
Qızlardan daha tez gedərdin, qızım!
Bu il nə çox sürdü səhər uyğusu?
İpək tellərinin gəlməz qoxusu!..

Axşam oldu bütün üfüqlər yandı,
Xoruzlar çırpındı, səhərdir sandı;
Tazə gəlin kimi bəzəndi Bakı,
Çox türfə bəzənib, düzəndi Bakı;
Binalar gördüm ki, boyunbağı nur,
Şəhərin cəlalı, təmtərağı nur.
Üç nəslin gözündə parlayırdı fər.
Səsləndi hər yerdən rəqəmlər zəfər.
Bir az keçdi, baxdım yandı məşəllər,
Dəstə-dəstə seyrə çıxdı gözəllər.
Uşaqlar çırpındı, qocalar baxdı,
Sevinclər qabardı, nəşələr axdı.
Mənə də gəlmişdi bu aləm çox xoş,
Birdən baxdım, qızım, sənin yerin boş.
Sənin yerin boşdu, sevimli qızım,
Mənim alagözlü, gözəl yıldızım.
Sevdiyin bayramdır, quzum, gəl də bax,
Yoxsa bir şey oldu, gözümdən iraq!..

Köhnə adla deyim: cənabı Allah,
Tutaq işləyərək ömrümdə günah;
Keçirdim vaxtımı söhbətlə, sazla.
Niyazım eşq oldu, oynadım nazla,
Bəlkə dərk etmədim xeyri, səvabı;
Əlimdən qoymadım badeyi-nabı.
Qəflət edib dedim, solmasın güllər,
Köhnələr demişkən, xəstə bülbüllər;
Güllərin hicrindən ağlamasın qan,

Nə yıxılan olsun, nə vurub yıxan.
Bəlkə də küfr imiş gülmək, əylənmək,
Mərdsənsə könlümlə hesabını çək.
İndi ki, azğınam, günahım ağdır,
Tək mənim başıma ildırım yağdır!
Sənə neyləmişdi zavallı qızım,
O ipək kəkilli, o xallı qızım?!
Nə qədər yalvardı, vermədin aman,
Bir dərdə saldın ki, tapmadım dərman.
Sənin əməlinsə bu vicdansız iş,
Qoy giclər eyləsin sənə sitayiş?!

Sənə kim söylədi, ədəbsiz öküz,
Məxmər xiyabana bu gülləri düz;
Özün də bilmədən, gül ək, çiçək ək,
Əlvan rəngli boya, görünsün qəşəng.
Mənim əməyimlə becər bir zanbaq,
Elə bir zanbaq ki, nə deyim, axmaq! –
Görünməmiş olsun cahan bağında;
Bir əməl parlasın hər yarpağında.
Qəşənglikdə bol-bol verilsin payı,
Gözəllər içində olmasın tayı;
Sallanıb getdikcə satsın sərvə naz,
Böyüsün, boy atsın düz on altı yaz;
Yeni bir cilvəyə bürünsün gündə.
Mən də məftun olum, əsim üstündə.
Burda... birdən böyük, cəhənnəmdən çıx,
Ayaqla qəlbimi, vicdanımı yıx, –
Çeynə zanbağımı, didik-didik et;
Nə qədər yalvarsam, heç eşitmə, get.
Acısın halıma, ellər ağlasın,
Kamanlar ağlasın, tellər ağlasın.
Qızımı qəhr edən dərmansız dərdə,
Bilib-bilmədiyim dillər ağlasın!..

İnan, gözüm çıxdı, qalmışam gözsüz,
Sən, getdin, ağladım qırx gecə-gündüz.



Qırxında uğradım bir yığın torpaq,
Bir şeylər söylədi, qanmadım ancaq.
Bilmədim dəyişib güləmi döndün?
Qarışıb torpağa giləmi döndün?
Sızladımı yaran, gözəlim, bir də,
Yoxsa rahatmısan yatdığın yerdə?
Heç yata bilməzdin ipək yataqda,
Bəs necə dincəldin quru torpaqda?
İstəmərəm, yox, yox, qalxıb da gəzmə,
O müdhiş ağrını bir daha sezmə.
Artıq qollarımda qalmamışdır tab,
Üzmüşdü canımı çəkdiyin əzab.
Görmədin ömründə bir az dad, qızım,
Doqquz ay yatmadın, indi yat, qızım!

Sevdiyim çiçəklər, güllərə yandım,
Gül bənizin döndü küllərə, yandım.
Kəlməsi məshəfi – kəmal ayəsi,
Səndəki çox şirin dillərə yandım.
İpəkdən yumuşaq, yasəməndən xoş
O qumral, qıvırcıq tellərə yandım.
Almayan ömründə səadət payı
Şümşada oxşayan əllərə yandım.
Səni məndən aldı, basdı bağrına,
Bu otsuz, çiçəksiz çöllərə yandım.
Məni yersiz qoydu geniş dünyada,
Verdin əməyimi yellərə, yandım.
Dost tutdu yasını, düşmən ağladı,
Dərdinə ağlayan ellərə yandım!

Uçub gedən qızım, dolaş hər yeri,
Bir başqa rəngə gir, sonra dön geri.
Gəlib göylərimdən ulduz kimi bax,
Qaranlıq yollarda şimşəyim ol, çax!
Bağçamda yetişən incə gül yenə,
Səni az da olsa göstərsin mənə.
Dayanmaq güc oldu belə zavalə,

Bir daha bitsəydin, ey gözəl lalə!
Biçarə qəlbimin dərdli çağında,
Yasəmən ol, açıl könül bağında.
Anan, baban bu gün yazıqdan, yazıq,
Ey küskün bənövşəm, bir daha gəl çıx.
Qarışdı idrakım, getdi huşum, gəl,
İlk bahar günündə qaranquşum, gəl!

Ey şən bağçalarda aşıb daşanlar,
Sevinclə qabarıb, canla coşanlar;
Pambıqlı çöllərdə dövran sürənlər,
Odlu məmləkətdə ağ gün görənlər;
Məxmər xiyabanda sallanıb nazla,
Seyrə çıxan qızlar söhbətlə-sazla.
Ey ürfan ordusu oğlanlar, qızlar,
Həqiqət məşq edən dillər, ağızlar;
Susmayan dodaqlar, durmayan əllər,
Qaranlıq yollarda qoşa məşəllər;
Qapınız, tez olun, qüvvəti haqdan,
Qaya tək, seyr edim mən də uzaqdan;
Niyyətiniz aydın, qayəniz bəlli,
Bu imanlı yürüş mənə təsəlli!
Mənə bir təsəlli yalnız yüksəliş,
Bu yüksəliş, söz yox, uğurlu bir iş!
Çalışın, hər dərdə tapılsın çara,
Çalışın, insanlar görməsin yara.
Kəsin göz yaşını hər bir diyarda,
Sevincdən ağlasın ağlayanlar da!
Mən öz qızımdın da bunu gözlərdim,
Hünərlər göstərin, azalsın dərdim.
Fəlakət görmüş bir şairəm deyə,
Bir daha yazmayım mən də mərsiyə.

*10 oktyabr, 1935*



## "AY"A*

*"Peyğəmbər" şairinə*

"Boşluq diyarında çıx dolaş" deyə,
Səni kim fırlatmış o dərinliyə,
Ey solğun bənizli, sevdalı pəri?!

Mənim sevdiyimin xəyalı kimi,
Bəzən bürünərək pənbə bir tülə.
Çıxarsan üzməyə o dərin gölə...

Çıxdıqca yoluna buluddan dalğa
Sən onun yanından baxıb uzağa,
Keçərək, ədalı yürüşün gözəl.

Arayırmış kimi onu gizlicə.
Dolaşdıqdan sonra bir uzun gecə,
Səhər ulduzuyla görüşün gözəl.

Bəzən nədən isə umuzun çılpaq,
Saçların dağınıq, dolaşırsan tək;
Sıxılır yalqızlıq əlində ürək.

Elo günlər olur, bizlərdən uzaq,
Görünməz olursan bir uzun gecə,
Deyirlər, ağlarsan onda gizlicə.

Durmadan gəzirsən illərdən bəri;
Nə olmuşdur, səsin çıxmayır çoxdan,
Sən də o boşluqda avaramısan?!

Sənin o sevdalı, solğun baxışın,
Xatırladır mənə bir pərizadı;
Ki, düşməz ölüncə dilimdən adı.

* *Qeyd:* Şeir tamamlanmamışdır.

Oh... sevdiyimin də belə sarışm,
Baxdıqca ağlayan baxışları var;
O da sənin kimi güldükcə ağlar...

Könlümün səninlə tanışlığı var,
O səni gördükcə təsəlli duyar;
Sənin ilə mənim dərdimiz bəlli.

Birlikdə taparıq bəlkə təsəlli,
Qoy götürüm ələ mən sədəfli saz,
Sonra da dərdləşək səninlə bir az...

Xatırında varmı yürgəkdə keçən,
O dadlı günlərim? O zaman ki mən
Duyduqca günlərlə sallandığımı,
Başa düşməzdim heç allandığımı.
Elə düşünərdim mənimçün ancaq,
Hər şey olmaqdadır, hər şey olacaq...
Göylərdə görünən pənbə yığıncaq,
Onların üstündə o qucaq-qucaq
Sərpilən yıldızlar, söz atan gözlər,
Bunlarla bərabər o gözəl səhər
Və solğun axşamlar. Deyirdim əlbət,
Yalnız bir mən üçün bu gözəl cənnət...
Bir cənnət ki, orda yarpaqlar ipək,
Hər yerdə gözəllik, hər yerdə çiçək!

Haralısan, söylə, gözəl sərsəri,
Sənin dolaşdığın ulduzlu diyar;
Səninsə, çox gözəl bir diyarın var!..

Nədir üzündəki ağlayan kölgə?
Bir pəri eşqinin məlalımıdır?
Söylə sənin başın bəlahmıdır?

Sənin dolaşdığın o geniş ölkə,
Mənim ruhum kimi ruhuna darmı?
Heç olmasa sənin bir kəsin varmı?



Dur, soruşum səni bu sarı güldən,
Bu ağlayan quşdan, xəstə bülbüldən,
Onlar da səninlə dərd ortağımı?

Söylə sənin yurdun qəm torpağımı?
Hər zaman üzündə böylə sarılıq,
Nəsibin göz yaşı, bir də ayrılıq.

Sənin baxışına hansı yaradan
Əlilə çəkilmiş bu solğun boya,
Ki, qız ikən vərəm almışsan guya?..

Bəzən dərdli-dərdli yaşmaq altından
Solğun baxışınla sakit baxırsan,
Baxdıqca qəlbimi gizli yaxırsan.

Hər şeyi sanırdım bitməz əyləncə,
Onların biri də sən idin məncə.
O zaman anamın titrəyən səsi
Verdikcə ruhuma uçmaq həvəsi,

Kiçik bir quş kimi kölgəsiz, adsız
Uçduqca uçardım qolsuz-qanadsız.
Əsla keçməyirdi günlərim hədər,
Ah, o gözəl dəmlər, o gözəl günlər!..

Mən uşaqkən, rəngin belə deyildi,
Sən məni görəndə gülməyirmidin?
Sən mənimlə, indi yadıma gəldi,
Oyunda yoldaşım olmayırmıdın?

Qızlarla bərabər çıxıb çayıra,
Məsum bir eşq ilə oynamazmıdıq?
Kimi şeir olurdu, kimi şairə,
Şairlikdə coşub qaynamazmıdıq?!

Xatırmda yoxmu, yaylaq səfəri?
Xoruzlar ötmədən çıxardıq yola.

Hər kəsdən sən əvvəl keçib iləri,
Gülərək deyərdin: "uğurlar ola".

Ta əzəldən bəri ildə bir kərə
Çıxardıq dağlara, bizim elləri
Göstərdin illərcə görməyənlərə
Kəskin qayaları, coşqun selləri!..

*1923*

## PƏRİZADƏ

Süzər yaşılbaşlı sonalar kimi,
Oxur pərizadə ləzgi qızları!
Dadmışlarmı nədir eşqin camını,
Gəlmişlər fəryadə ləzgi qızları!

Bilməzlər ki, məndə bir qığılcım var,
Bircə zərrəsindən yanar dünyalar!
Etdilər könlümü yaxşı tarimar,
Gəlməzlər ki, dadə ləzgi qızları!
Oynadaraq durur gözəl gözəli,
Eşq anlayanların yorulmaz əli.
Süzgün gözlərini yana süzəli
Saldı məni oda ləzgi qızları!



# "QOŞMA" KİTABINDAN SƏHİFƏLƏR

## YARALI QUŞ

Yaralıdır könlüm quşu, yaralı,
Yaralandı yazıq şair olalı!

Bir dərinlikdə ki, hər düşən çıxmaz,
Qurtulmaq istəyir, qanad yaramaz!
İmdadına gələn ümidindən az,
Yaralıdır könlüm quşu, yaralı!

Dost ararkən ovçu çıxdı yoluna,
Əzrayıl sağına, ölüm soluna;
Vurma, ovçu, qanadına, qoluna,
Yaralıdır könlüm quşu, yaralı!

Aman ovçu, bunun halını düşün,
Gözündə yaşı var, qoy onu töksün!
Sonra amadədir ölümə hər gün,
Yaralıdır, könlüm quşu yaralı!

Kədərli bir qəlbin yanıq fəğanı,
Yandırar ürəyi daşdan olanı!
Ovçu, bu çırpınır, öldürmə bunu,
Yaralandı yazıq aşiq olalı!

Yurdundan ayrılmış, yuvadan uzaq,
Dostunun könlündən, gözündən iraq;
Ümidi sənədir, ey yaradan haq,
Yaralandı yazıq aşiq olalı!

*5 dekabr, 1913*

## SƏN!..

Ruhum müdhiş bir qaranlıq içində
Çırpınırkən, imdadıma yetişdin!
Fırtınalar ümidimi boğarkən
Xızrım oldun, fəryadıma yetişdin!

Bir sınıq şəhpərlə çıxmışdım yola,
Üzlədigim yeri görmədim əsla;
Yorğunluq çökmüşkən qanada, qola,
Qüvvət oldun qanadıma, yetişdin!

Azmışdım yolumu, qarşımda ölüm...
Yaslara batmışdı gülüm..., bülbülüm.
Ölmüşkən əməlim, solmuşkən gülüm
Gözlərinlə sən dadıma yetişdin!

*8 noyabr, 1913*

## DİLİMİZ

Baxaq dilimizə, nələr görünür?
Oxuyub anlamaq yazmaqdan gücdür.
Yazan düşünmədən yazsa da belə,
Oxucu beş-on gün gərək düşünə:
Ki, anlasın bu söz ərəbmi, farsmı?
O ki, qaldı mənə... anlayan hanı.
Çoxları anlamaz millətdən, aydın,
Bircə parçasını şair yazanın.
Gün oldu şairlər, göyə çıxdılar,
Bu yazıq millətə ordan baxdılar.
"Od" etmədi, yağdı "atəş" başına,
"Siyah" qondardılar "qara" qaşına.
Alınır "dil"ləri "zəban" verilir,
İsmarlanıb "baran", "yağmur" kəsilir.
"Ağ"ları "bəyaz"a, "sarı"sı "zərd"ə



Döndü. Can dayanmaz bu ağır dərdə.
Dəyişdi hər şeyi, "bum" oldu "bayquş",
"Əlbəsə" geyildi, "paltar" qaldı boş.
"Düzlüy"ün yerində bir "istiqamət"
Görərək, yeməli, zənn etdi millət.
Çalındı "qardaşı" gəldi "bəradər",
"Bacı"nın yerində "həmşirə" gəzər.
Nədir bu qiyamət, nə işdəsiniz?
Ey bizim qocaman ədiblərimiz?
Yaxasından tutub bu "el oğlunu"
Fars ilə ərəbin bir "həmvətən"i
Şəklinə soxdunuz, baxınız sonra,
Oxunacaq lənət belə yazana!

*12 aprel, 1913*

## QUŞLARA

Yavaş uçun, nazlı quşlar, sizə mənim bir sözüm var,
Doydunuzsa bu yerlərdən, kimə qaldı bu yuvalar?
Siz də bəlkə insan kimi buraxdınız yuvalarda,
O gül üzlü balanızı... Yoxsa nə var havalarda?
Aman, quşlar, mən yanıldım, sizdə ürək nur parçası,
Bizdə murdar yığınır, o məhəbbətin Kərbəlası!
Sizdə heç bir baba yapmaz belə müdhiş cinayəti,
Bizim kimi sizdə yoxdur anaların xəyanəti.
Gedin, quşlar, gedin, Allah yaxşı yollar versin, gedin,
Siz kimsədən inciməyin, kimsə sizdən inciməsin!
Aman, quşlar, bilməm nə var bu məzarlıq aləmində?
Ruhum aydm bir iz arar bu qaranlıq çöl içində.
Varsa sizdə artıq qanad, Allah üçün, verin mana,
Mən də sizsiz qəribsədim, uçmaq istər ruhum daha!
Heç olmasa, onu alın – çox yazıqdır – yanınıza,
Nazlı quşlar, sığınmışam adımza, şanınıza!

*5 fevral, 1914*

## ŞERİM

Şerim, o bir sınıq könül ənqazidir bənim,
Şerim deyilmidir bənim ən zorlu düşmənim?
Bən nəşə istərəm, o fəqan dinlədir bana,
Öz sözlərim həyatıma matəmgah olmada!..

*15 dekabr, 1913*

## M.Ş.

Sən kimsən, ey qatil, hansı millətsən?
Vicdan pəncəsilə canın didilsin.
Sən nasıl öldürdün bütün milləti?
Nasıl sərdin yerə böyük şövkəti?

*2 iyun, 1913*

## ŞERİMƏ!

Ey çürük ruhumda doğan nəşidə,
Bən səni çox sevdim doğduğun gündə.
Səmimi bir cocuq gülüşləriylə,
Çırpınıb açdığın o dadlı dilə;
Heyran oldum, dönə-dönə dinlədim,
Uyudun, üstündə ninni söylədim.
Doğarkən təbimdə, duydum dilindən,
Əlimdən çıxarkən öpdüm əlindən.
Bilmədən başına nələr gələcək?
Sən bir çiçək oldun, bən bir kələbək!

Yeltənmə bu gün kəndini sevdirməyə yersiz,
Əlləşmə bənim açmağa qəlbimdə bir iz!



Get, qalma yolundan "sonu yoxluq" Vətənindir!
Al, get! Sana göz yaşları, bunlar da sənindir!
Gəldin də sevindim, gedər olsan yenə öylə,
Artıq o yavan sözləri şeytanlara söylə!
Şerin canı, şairdə olan canlı hərarət,
Yox səndə o, çünki bana heç olmadı qismət!
Təbimlə bərabər yürü "heçlik", yürü "yoxluq"!
Get, get bana təsir edəməz yapma cocuqluq!

*Fanili, 2 iyul, 1913*

## MÜƏLLİM

Döşündə üç qızıl medal,
Gözlərində bir general.
Baxışı var, yüksək boylu,
Qalın bığlı, köksü dolu;

Əllərində yun əldivən,
Kimdir bu sallanıb gedən?
Müəllimdir, bu müəllim.
Çox mükəmməl almış təlim!

## ON İL SONRA

İki medal daha artmış,
Lakin saç-saqqalı ağartmış...
Başı əsir, bel bükülü...
Ah! Ey cavanlığın gülü,
Nə tez soldun, xarab oldun?
Nədir sənin bu tutduğun?
Vəfasızlıq yolu bilməm,
Sənin ömrün nə qədər kəm?!

## BEŞ İL SONRA

"Ay qardaşlar, verin, verin!
Əvəzini Allah versin!"
Əlində bir bağlı yaylıq,
Qucağında on bir aylıq;
Bir uşağı bir müəllim –
Gəzdirərkən görüb dedim:
– Kimə məxsus bu ianə?
– Qucağımda uyuyanə;
Babasını vərəm aldı,
Müəllimdən bir bu qaldı!

*12 dekabr, 1913*

## QALDI

Bir gül əkdim, açılmamış dərdilər.
Zəhmətimdən mənə bir tikan qaldı.
Əmək çəkdim, gün keçirdim, gül əkdim,
Əməyimdən solğun bir fidan qaldı!

Nə yazım yaz, nə də günüm gün oldu,
Könlümün çiçəyi açmadan soldu.
Qanadımı bir uğursuz əl yoldu.
Yerində bir damla quru qan qaldı.

Söylədiyim boş söz, tökdüyüm qan-yaş,
Haqqıma, – kim ison – əl vurma, yavaş.
Yavaş ki, dərdimə ağlayan qardaş,
Yerində, arxamda bir düşman qaldı.

Yaralandım, sarmadılar yaramı,
Yas gününə döndərdilər bayramı.
Əlimdən aldılar son bir çaramı,
Əsəri ruhumda bir fəğan qaldı!

*8 aprel, 1913*



## XORTDAN

İki qonşu bir gün bəhsə girdilər,
Biri bizim Həsən, biri də Cəfər.
Həsən dəmir şişi götürüb dedi:
– Əgər bu dəmiri sən gecə vaxtı.
Bir məzara yalqız sancıb gələsən;
Nə istəsən verrəm, bu sən öləsən.
Cəfər kişiləndi, aldı dəmiri,
Həsən də göstərdi bir köhnə qəbri.

Axşam oldu, ay qaranlıq gecədə
Cəfər yola düşdü, şiş də bir əldə.
Aradı, aradı qəbrə yanaşdı,
Tələsik şişi də sağına sancdı.
Bilmədi, dəmiri çuxuya çaldı,
Getmək istəyəndə lap donub qaldı.

O qalxmaq istədi, dəmir sarıldı,
Xortdan xəyal edib zəhri yarıldı.

*10 aprel, 1913*

## H-C

Ey axund, ey pişivayi-əhli-iman, bir utan!
Əllərindən dad edir ehkami-Quran, bir utan!
Hansı dinin əhlisən sən, yolmudur göstərdiyin?
Ümməti məhv eyləyəndə varmı iman, bir utan?
Hansı "Quran"dır sənə öyrətdi şeytan sirrini?
İşlərinçin qaldı şeytanlar da heyran, bir utan?!
Zati-napakında, yahu, hissi-rəhman yoxmudur?
Saymadın Allahı, ey Allaha düşman, bir utan!
Saldırıb sən ac köpəklər tək qan içməkdən bütün
Əllərin qan, dişlərin qan, surətin qan, bir utan!
Geydiyin əmmamə ağ, amma yazıq, qəlbin qara,
Daşmısan, daşdanmı ruhun, ey müsəlman, bir utan?!

Kər gözün, şil əllərin bir qövmü məhv etməkdədir,
Bax, onun ənqazidir bu ahu əfqan, bir utan!
Çox uzaqlaşdın həqiqətdən, dur, Allah eşqinə,
Ey həqiqət qatilə, ey canlı peykan, bir utan!
Toqi-lənətdən nişanın var, çalış – əz, parçala,
Başqa bir şöhrət qazanmaqçın yox imkan, bir utan!
Milləti sərməst edən sözlər – o pək müdhiş şərab, –
Həp sənindir, dəhşətindən xamə lərzan, bir utan!

*16 aprel, 1913*

* * *

Qara günlər əl götürməz yaxamdan,
Yazmasın mələklər sözümü küfran, –
Yaradılışımdan oldum peşiman!

*25 mayıs, 1913*

## DAN ULDUZU

Bu qaranlıq gecə nə qədər sürdü,
Yetiş imdadıma, ey Dan ulduzu!
Barı sən gəl, mənə yuxu gəlmədi,
Yetiş fəryadıma, ey Dan ulduzu!

Qudurğan qasırğa, çarpaşıq yollar,
Yolumda zülmət var, uçurumlar var.
Yetiş ki, ömrümün karvanı ağlar,
Aman, gəl dadıma, ey Dan ulduzu!

Bu sönük ulduzlar məni aldadır,
Süzgün gözlərinlə gəl "onu" andır!
Gəzlərim yolunda, üzüm haqdadır,
Aman, sən "yox" demə, ey Dan ulduzu!

*Gəncə, 1914, 21 fevral*



## QAFQAZLISAN, SEV QAFQAZI!

Sev bu yalçın qayaları,
Bunlar şahin yuvası...
Sev bu ıssız ormanları,
Bunlar ərlər obası!
Olduğunu keçmiş günlər-,
Geri dönməz, bilirsən!

Lakin şimdi günahımız
Pək böyükdür, əl vurma!
Qadınlardan belə qorxaq
Kişilərdən iş sorma!

Əsrlərcə Qara doniz
Hayqıraraq, coşaraq;
Bu ölkənin hər yerini
Bu dağlardan aşaraq;
Yığılsa da, cəhənnəmlik
Qara üzlər ağarmaz!..

Dünyada bütün ellər
Bir araya toplansa;
Ölkəyi gedərəməz,
Ey ulu haqq, bağışla!

Yox, müqəddəs göy üzünə
Səslərimiz gedəməz!
Namussuzluq çox alçaqdır,
Bizi haqq da dinləməz!
Qorxaq, alçaq bir millətə
Tanrı da yol göstərməz!

Ay qardaşlar, iş başına!
Biz də bir iş görəlim!
Yarın haqqın hüzuruna
Tutalqacla gedəlim!

Yoxsa bizim bənliyimiz,
Varlığımız bitəcək!
Tarix bizi lənət edib,
Namus bizi itəcək!

*25 yanvar, 1911*

## ANA

Şu bürüşmüş əllərində göydən enmiş bir qüvvət var,
Nə zaman ki, xəstə könlüm ölgün düşüb inlər, ağlar!
Fırtınalı göylərimi yıxmaq istər ildırımlar,
Nə zaman ki, qərib ruhum yad ellərdən cana doyar!

Sən o zaman yetişərsən bir risalət qüvvəsilə!
Bir analıq ürəyilə... Nədir, Allah üçün söylə,
Bu ərənlər silahını kimdən aldın, anlat böylə?..

Ağıldan da əvvəl mənə sən verdiyin o təmiz süd,
Vicdanıma dinlətdiyin o səmimi, o saf öyüd,
Müqəddəsdir, gücün varsa, insan oğlu, gəl də unut?!

Bəzən olur, həyatımın dağlarını duman alır,
O gün sənin titrək laylan yollarıma işıq salır!
Sənin məmnun olduğun gün, ruhum məndən məmnun qalır,
İnandım ki, cənnət sonin ayağının altındadır!

*Gəncə, 14 mart, 1914*

## BALALARIMA

Aydın olsun gözləriniz,
Gəldi bahar gülə-gülə!
Gedər qışdan qalmaz bir iz,
Gəldi bahar gülə-gülə!
Oldu bahar gülə-gülə!



Çıxsın kəfəndən təbiət,
Yaz yağışı böyük nemət.
Qoy olsun yer üzü cənnət,
Gəldi bahar gülə-gülə!
Oldu bahar gülə-gülə!

Çal qış! Buyur, uğur olsun,
Qır saçım cinlər yolsun!
Gəl, ay Durna, gəl, ay Dursun;
Oldu bahar gülə-gülə!
Gəldi bahar gülə-gülə!

"Yaman günün ömrü azdır"!
Mövsimlərin gülü yazdır,
Oldu bahar gülə-gülə!
Gəldi bahar gülə-gülə!

Böyük dərddir Vətən dərdi,
Bu qış sizə ağır gəldi.
Gəlin, quşlar, yazdır indi, –
Oldu bahar gülə-gülə!
Gəldi bahar gülə-gülə!

Toplayıb bir dəstə çiçək
Di gəlin məktəbə gedək.
Tənbəlliyə lənət edək,
Oldu bahar gülə-gülə!
Gəldi bahar gülə-gülə!

## ÜMİDİMƏ

Bənim bu gün cəhənnəmlik duman almış yollarımı,
Bir əzrayıl pəncəsi ki, sarmış cansız qollarımı.

Bir yolçuyam, səmum yeli doldurmuşdur gözlərimi,
Bir qəribəm, yad ellərdə anlayan yox sözlərimi.

Barı sən gəl, ey gözəl qız,
Ey ruhumda doğan ulduz,
Göstər mənim qibləm hanı?

Bir zülmkar dəmir qəfəs... Boğulacaq ömrüm, yazıq,
Parçalandı dərdli könlüm, parçalandı sənsiz artıq.
Günahkarın ah-zarını nə haqq dinlər, nə də insan.
Yetişərsən fəryadıma, fəğanımı duymuş olsan!

Barı sən gəl, gözəl mələk,
Gözlərimə bir qanad çək,
Göstər mənə cənnət nerdə?

*Gəncə, 1914, 17 aprel*

## NƏDƏN YARANDIN

Sən qüdrətin aşıb coşan vaxtında
Mələklərin gülüşündən yarandın!
Səhər dilli bir fırçanın əlilə
Ahuların duruşundan yarandın!
Ay işığı: gözəlliyin, qızlığın,
Çiçəklərin öpüşündən yarandın!
Sərinlətdin baxışınla könlümü,
Buludların uçuşundan yarandın!
Qaranlıqda boğularkən ümidim,
Dan ulduzu yürüşündən yarandın!
Masəvadan uçmuş birər kölgənin
Dan yeriylə görüşündən yarandın!
Gözəllikçin təbiətlə qüdrətin
Yavaşca bir sovuşundan yarandın!
Qələm əldə ilhamını dinlərkən
Sən qəlbimin vuruşundan yarandın!

*1914, 28 may*



## DƏRDİM

Qərib könül, yenə dərdim yüksəldi,
Gördünmü keçmişin haldan gözəldir!
Aşdın, coşdun, dünya sana dar gəldi,
Ağla, ağla, qoy tükənsin göz yaşın,
Burax o da getsin, bənim sirdaşın!

Zülm daşı döyər zülmün havası,
Azğınlarla doldu Allah yuvası.
Xəlilə söyləsin: Kəbə binası –
Yıxıldı Həccağın murdar əlindən!
Yanıq bir səs gəlir Zəmzəm elindən!

Haqq görmədim, bən anınçün saraldım,
Boş yerə deyildir qəmim və ahım.
Sınasın Əyyubi indi Allahım,
Mal, can dərdi degil, vicdan əsirdi,
Xəstə degil, yazıq insan əsirdi!

Doğmaz oldu artıq sağlıq yıldızı,
Ay görmədik, gecə saydıq yıldızı!
Nədən gəlməz, Allah, səhərin qızı?
Gülsün ki, yolçular yol üstündədir,
Bən ağlaram, çünki könlüm xəstədir.
Bir xəstə ki, yazıq yol üstündədir!

## ŞERİM

Şerim sınıq bir türk sazı, ağladaraq tellərini,
Adaq-adaq gəzmək istər könlüm Turan ellərini!
Ben bir Turan yolçusuyam, əlimdə bir sönük məşal,
Aman, şerim, hümmət eylə, aman, təbim, bir qanad çal!
Açın qəlbim qubarını, baxın nədir baş yazısı?
Əvvəl Allah göndərəndir, sonra Türkün bayatısı!
Turan öylə bir müqəddəs Kəbədir ki, hər bir daşı
Kölgəsində düşər yerə Türkün əgilməyən başı!

## QASPİRİNSKİ ÜÇÜN

Milli sazlar çalır matəm... müsibət...
Başdan-başa qan ağlayır bir millət!

Dağlarına çökmüş matəm havası,
Baxdım, ağlar türkün bağı-bağçası.

Dedim nədir dərdin çarası?
Nədən qara geymiş dostlar obası?

Oxunur alnında dərin bir tasa,
Qoca Türk, sən nədən batdın bu yasa?

Tutmuşa bənzərsən xanlar qazası,
Çoxmu böyük dərdin, yoxmu dəvası?

Ortaq çoxaldıqca, kədər azalar,
Anlat, bu duruşun bəni yaralar!

Bayatına yaslı şerim qoşulsun,
Sənin dərdin, bənim şerim bir olsun!

Yıxıldı bir Kəbə mövtin əlindən,
Yanıq bir səs gəlir Zəmzəm elindən!

Hacər qurban verdi, Tanrı sınadı,
Bənimkini qoyub onu almadı.

*Gəncə, 1914, 22 sentyabr*

## İMANSIZA

Qısqırılıb hürürsən ki: "Sənin bəndən nəyin artıq!"
Qızma, dostum, elmə qalsa, bən də sənin günündəyim.
Elmnən bizi dinləyənlər "yazıq" deyə, bizə "yazıq!"
Əsr bizdən nə istiyor onu bilə bilməyəlim?!.



Ancaq səndən fərqim bu ki, bendə sağlam bir "iman" var,
Bir kainat yaradar ki, nəşəsindən doymaq olmaz!
Sənin kibi imansızlar o cənnətdən heç anlamaz!

Bu tikanlı yollar bana gücmü sandın? İmamm var!
Bən bir dəfə inandım ki, ot kökünün üstə bitər,
Həqiqətmi, xəyalmı bu?.. Nə isə, bol-bol yetər!

*Gəncə, 1914, 5 dekabr*

## ONA!

Görünməz yollardan gələn səsləri
Tükənməz eşqimlə səninki sandım.
Qəribsədim sənsiz "o" gündən bəri.
Şikayət olmasın, artıq "usandım!"
Sazlar, bayatılar mühitdən anlar,
Bilirmisən, bunlar səninçün ağlar!

Çoban anlar səni, düdüyü sızlar,
Ellər toy eyləməz, həp səni gözlər!
Bəzənmiş gəlinlər, nişanlı qızlar
Yolunda sərilmiş güllərə bənzər.
Qarılar, qocalar yolların üstə,
Qış görmüş ellərdən gəl çiçək istə!

Keçdiyin yerlərdə bir daş olaydım,
Öpeydim yorulmaz ayaqlarından!
Sevgin əmr edəydi, bir quş olaydım,
Vətənin hilalsız bucaqlarından, –
Yıldızsız göyündən şikayətim var!
O qədər ki, dərdim!.. Bir quş nə yapar?!

*1915, 7 oktyabr*

## ŞƏHİD ƏSİR

Əsirim, umdum ki, Xızrım gələcək,
Çıxdım ki, yollara edəm sorağın!
Dedim gəlsən, könlüm, gözüm güləcək,
Baxdım bükük boynun, solğun yanağın,
Əsir cənazənlə qarşıma çıxdın!

Bir quşa zülm etdin, bir yuva yıxdın!
Şəhid qardaş, bu gün sizin obalar,
Anar qərib səni, düşünüb ağlar.
Qardaş yada salmaq böyləmi olar?!
Qapanmaz gözlərin, bir sözünmü var?
Qəbrin "gül" açınca ağlaram sana!
"Qara gün" keçincə ağlaram sana!

Dağlar gülümsərkən, dumanlar aldı!
Bükülməz qolların nədən boşaldı?!
Gəldin, yoxsul ninən kimlərə qaldı?
Ölmə! Qardaş, ölmə! Düşmən çoxaldı!
Ölsən də söz yox ki, qanın coşacaq!
Düşman boğmaq üçün dağlar aşacaq!

## HƏRBZADƏLƏRƏ

Ey görünməz dost elindən gələn quş!
Hansı murdar əllər yıxmış yuvanı?
Qəribmisən, yoxsa nədir bu duruş!

Əlindənmi aldı ovçu balanı?
Ovçu, görüm yavrun sənə qalmasın,
Əkdiklərin solsun, kölgə salmasın!

Qərib bacı, gözün nədən yaşarmış?
Öpmədinmi nişanlını doyunca?
– Fələk sənə nə istərsə yaparmış?.. –
Ağladınmı qaçdığın yol boyunca –
Dikmə gözün hər yalqızca məzara,
Gedən gəlməz, bacım, baxma yollara!



Aşıqlardan səs yox, sazları qalmış,
Çoban, sürün hanı, tozları qalmış?!
Ellər köç eyləmiş, izləri qalmış,
Yolları qar basmış, yox gəliş-gediş,
Sizə nə çox ağır keçdi bu yıl qış?!

Baxdım o yerlərdə buludlar ağlar,
Məzarlığa dönmüş bağçalar, bağlar,
Maralsız qaldınız, a qarlı dağlar,
Tutan olsa Sizdən maral sorağı.
Görəcək ki, hər yer düşman yatağı!

Nişan məclisində şərbət kasası
Qırılmış, yerlərə şərbət tökülmüş.
Baxdım, çalır sazlar ölüm havası;
Toylar qara geymiş, bellər bükülmüş,
– O yerlərdə daha gəlin köçərmi?!
Bu qanlardan adil Allah keçərmi?!

Didilmiş bədənlər, yolunmuş saçlar...
Dağılmış yuvalar görmək istərsən;
Qardan kəfən geymiş, yoxsullar ağlar,
O ellərdə nə var bilmək istərsən, –
Sənə bir kamança hər şeyi söylər,
Mən bir kamançayam, tellərim inlər!

"Əzizim, ay har aylar,
Hər həftələr, hər aylar.
Gözü yolda dul bacımız
"Qardaş" deyib haraylar"!
Onlar sana göz dikərkən
Şərab içmə, düşün bir az.
Ey, hər zaman "mərdim" deyən!
Bundan artıq fürsət olmaz!

Ay ağalar, ay xanımlar,
Görün, sizə göz dikən var!..

## NƏ GÖRDÜMSƏ

Ərməğanım yaslı nəğmə,
Bir quş oldum, çıxdım yola.
Getdim gördüm dost elində
Nə bir səs var, nə bir layla.

Bir yığıncaq gördüm, dedim:
Bəlkə toydur qızlar oynar?
Baxdım ellər batmış yasa,
Nə oynayan, nə gülən var.

Sordum qərib minarədən:
Axşam olmuş, əzan hanı?
Bayquş qonmuş minbərlərə,
Deyən hanı, duyan hanı?

Belə getsə, o dağlarda
İllər keçər, çiçək bitməz.
O dağları duman basmış,
Duman getməz, yaman getməz.

Coşqun irmaq kənarında
Nə qızlardan bir nişan var.
Nə oğlanlar islıq çalır,
Nə qaynayan, nə coşan var.

Bir dul gəlin könlü coşmuş,
Yol göstərin ham yarı?!
Oğlan çıxmış dönməz yola,
Nə nəşi var, nə məzarı.

Vicdan mənə əmr edir ki:
Belə gündə bayram etmə!
Quran mənə yol göstərir:
Yoxsulları məyus etmə!..

*Gəncə, 1915, 22 mart*



## İMDAD

Vicdanım əmr etdi, imdada gəldim,
Məzlum səsi duydum, mən dada gəldim!

Ziyafət görmədim, yaslıdır ellər,
Çoxalmış məzarlar, dərdini söylər.
Talanmış şanələr, yolunmuş tellər,
Olduğunu duydum, imdada gəldim!

Yarılmış qorxudan pənbə dodaqlar,
Aşiqlər ah çəkər, dərdindən ağlar.
Bax, nələr söyləyir tarlalar, dağlar,
Qardaş səsi duydum, imdada gəldim!

Qonşularda toydur, bizdə ağlaşma,
Bu yerdə qız gülməz, gəl heç uğraşma!
Sən ey dərdli könlüm, burda dolaşma!
Bən səninçün deyil, imdada gəldim!

Qarları boyamış məzlumlar qanı,
Ölənlər çox, fəqət məzarı hanı?
Ayaqlar altında şöhrəti, şanı
Qalanları görüb, imdada gəldim!

Bir yerdə ki, zalım bayrağı sanca,
Göz yaşı tökülər o yerdə bunca;
Bu dərdə ağlayım, bir ah, doyunca,
Qərib səsi duydum, imdada gəldim!

Verib yad əllərə sırma telini,
Gəlinlər buraxmış gözəl elini.
Anasızdır yavru, sən söylə ninni.
Ninnisiz yavruya, imdada gəldim!

Tutmaz bacaları, yanmaz çıraqlar,
Qardaşı bacıdan ayırmış dağlar.
Bacılar nerdədir, buludlar ağlar?
Qardaşsız bacıya imdada gəldim!

Cəsədlərlə dolmuş qarların altı,
Aylar var ki, minməz igidlər atı.
Gəlmə, yaxar səni qərib bayatı!
Sus!.. qərib bayatı, imdada gəldim!

Fəlakət görməyən millət olarmı?
Düşün, bir az düşün, heç qanın varmı?!
Gözlər kormu, yoxsa könüllər darmı?
Ah, niyə bən yenə fəryada gəldim!

## NİYƏ GƏLMƏDİN?

"Mey"dən könül küsdü, sana sarıldı,
"Gəldim" deyib durdun, niyə gəlmədin?
Andım səni, bana "ney"lər darıldı,
"Bildim" deyib durdun, niyə gəlmədin?!
Artıq bənim yarım deyil xəyalı,
Heç bir qaşa bənzətmərəm hilalı;
Bir dəliyəm sana məftun olalı,
"Bildim" deyib durdun, niyə gəlmədin?

Bən inləməm hər bir ufaq yaradan,
Bənim qönçəm gülmüş bahar olmadan.
"Birləşin" dedi ki, bizi yaradan,
"Bildim" deyib durdun, niyə gəlmədin?!

Pərişandır könül, pərişanam bən,
Gözəl qız, qoşarsan, dərdimi bilsən!
Gəl, bu yad ellərdə şənliyim ol sən!
"Gəldim" deyib durdun, niyə gəlmədin?!

Qələm sağər, deməz, etməz istiğfar,
Səninçün sərxoşdur, saçılar yazar.
Bən səni sevmişəm, bunu kim pozar?
"Bildim" deyib durdun, niyə gəlmədin?!

*1916, 5 yanvar*



## İRAQ

Çoxdan ayrı düşdük biz yar elindən,
Əcəb o yerlərdə "biz deyən" varmı?
Biz anmaqdan,söyləməkdən yorulduq,
Bir düşünən bizi, söyləyən varmı?

Bizdə qələmlərin düşüncəsində,
Yazılan sözlərin ən incəsində;
Qərib minarənin yanıq səsində
Yalnız "O" var... bilməm, dinləyən varmı?

Hər kəs deyir ki, bənim könlüm nə dolğun,
Bilən yoxmu "Kim"ə məftun olduğum?

## HARALISAN

Nerəlisən, cənnətdirmi məkanın?
Mələkmisən, nə dadlıdır lisanın?

Bən Tanrımın baxımı ilə əzəldən,
Bir badə içmişəm, bir gözəl əldən!
Ən ruhani nəşələrdən qanadım,
Çıxdım, səni buludlarda aradım!
Yıldızlardan sordum: – "Aydır!" – dedilər,
Aya getdim, o da sənsiz mükəddər.
"Sənsiz" gördüm, mələklərə darıldım,
Endim yerə, qələmimə sarıldım!
Yazdım... yazdım, fəqət gəlməz bizim yaz,
Heç bir şeir baxdım, sənsiz şən olmaz!
Heç "yazmayım" dedim, istəyim söndü,
Qələm sükut etdi, könül düşündü...
Bir səs duydum, qələm əldən düşüncə,
– Həp bənimçün vursun qəlbin ölüncə!..
... Bayılmışdım... durdum, gördüm ki, həp sən,

Sən imişsən, bana badə içirtən!..
Nerdə idin, cənnətmidir məkamn?!
Mələkmisən, nə dadlıdır lisanın?!

*1916, Batum, 25 yanvar*

## MÜNACAT

Əsirgəsin Tanrım yabançı gözdən
Bizim eldə məbədinin daşını!
Acı bizə, imanımız sönməsin,
Rəhmətinlə keyit bu göz yaşını!
Yarəb, Vətən sənin, iman sənindir!
Mömünü güldürən Quran sənindir!

Vətəndə lal qalan məscid, minarə.
Gözün dikmiş səsin gələn diyarə.
Qəribliyə deyilmi bu işarə?
Məhşər oldu... atma bizi kənarə!
Yarəb, Vətən sənin, iman sənindir!
Mömünü güldürən Quran sənindir!

Sufilərin böylə olub, küsməsi,
Azanların titrəyərək əsməsi.
Xətmlərin, xütbələrin hər səsi
Çağırmaqda imdadına bir kəsi!
Yarəb, Vətən sənin, iman sənindir!
Mömünü güldürən Quran sənindir!

Ey mərdliyi ilham edən böyük haqq!
Buyruq sənin qullarına, nə sormaq?!
Pək dərdliyiz, bir arzumuz var ancaq,
Cəbrayılla göndər bizə bir sancaq!
Yarəb, Vətən sənin, iman sənindir!
Mömünü güldürən Quran sənindir!



Kəraminlə xəbər verdin adını,
Bizə daddır o cənnətin dadını!
Ümmətinin düşündürüb şadını,
Ağa, tikmə bizə, hər yad qadmı!..
Yarəb, Vətən sənin, iman sənindir!
Mömünü güldürən Quran sənindir!

*28 yanvar*

## AXŞAMLAR

Ölkənizdə varsa sizin bir qərib,
Baxın gözlərində nə var axşamlar!
Qəribin halını vətəndən əsən
Tanrının yelləri sorar axşamlar!

Qayıq qucağında, dəniz üzündə,
Dalğanın nəğməsi deyil gözündə.
Bir şeylər söyləyir, onun sözündə
Könül bir incəlik duyar axşamlar!

Açmayır dərdini qərib bir kəsə,
Qulaq verib durur hər yanıq səsə;
Vətən müjdəçisi ruzigar isə,
Bəzi günlər olur susar axşamlar!

Bir söz ismarlamış bəlkə yar eli,
Nədən anlaşılmaz quşların dili?
Sanki boğmaq istər göz yaşı seli,
Qəribin gözləri yaşar, axşamlar!

Axşam ona kədər, ona düşüncə,
Toxunmayın, qərib qəlbi pək incə!
Yollarla söyləşir məktub gəlincə,
Onun üçün yollara baxar axşamlar!

Əcəb, yoxmu onun baxçası, bağı,
Güllərə baxmayır, gül solu-sağı;
Sən, eylə gəl, onu sanma bayağı,
Nasıl duymadınmı coşar axşamlar?!

Ey o yanıq qəlbin eli, vətəni,
Varmı səndə onun halın soranı?
Əcəb, sağmı onlar, varmı qalanı?
Varsa söylə, qələm yazar axşamlar!

*Qudaud, 25 mart, 1916*

## MAYIS

Bən hər yılda bir mayısa
Pək çox ümidlər bağlaram.
Hər gələcək mayıs üçün
Neysan ağlar, bən ağlaram.

Düşdüm çorluq biyabana,
Sığınamam bir insana.
Gözəl mayıs, ümid sana,
Hər yan ağlar, bən ağlaram!

Bax dumana dağ başında,
Dərdə düşmüş gül yaşında.
Coşmuş gözlər, yaz başında
Duman ağlar, bən ağlaram!

Sənsiz bir gül, ya bir şeir
Nerdən bəni məmnun edir!
Sorsa bir kəs dərdin nədir?
Soran ağlar, bən ağlaram!

Açmazmı gül sağda, solda?
Görünməzmi bəyaz alda?
Sənsiz böylə, yarı yolda
Qalan ağlar, bən ağlaram!



Olmadan axşam əzanı
Yola çıxart yol azanı!
Kəsmiş yolu dərd tufanı,
Karvan ağlar, bən ağlaram!

Səccadəyə alın sürtən,
Birlikdə bir cənnət görən:
Haqq yolunda Xəlil verən,
Qurban ağlar, bən ağlaram!

Boş çıxarsa bunca əmək,
Babalarca bu nə demək?
Qədərmidir, yoxsa fələk,
Duyan ağlar, bən ağlaram!

Xoş hər mayıs batmaz yasa,
Hər zamanmı bana taza?!
O gün də bir gün olmasa,
Vicdan ağlar, bən ağlaram!

*Suxumi, 1916*

## OYAN

Dinlə, bir səs söylər sana,
O "səs" sənin öz vicdanın.
Deyir: "Ey sən batmış yasa!"
Gəlir yenə bəyin, xanın;
Sən ey yatan, oyan, oyan!
Qiyamətdir, olmuş əyan!

Oxutma ölüm fərmanın,
Ver yolunda gözəl canın.
Göyərçinlər xəbər söylər –
Gəlir təxti-Süleymanın.
Sən ey yatan, oyan, oyan!
Qiyamətdir, olmuş əyan!

Oldun yadlar oyuncağı,
Yurdun arsızlar ocağı.
Tapmma azğm şeytana,
Yüksəldi "birlik" sancağı!
Sən ey yatan, oyan, oyan!
Qiyamətdir, olmuş əyan!

Səs yox sizin yapılarda.
Yol azmış gözlərin harda?!
Uzaq yoldan yarın gəlir,
Qurbanm yox qapılarda.
Sən ey yatan, oyan, oyan!
Qiyamətdir, olmuş əyan!

Kim demiş: cansız daş ol!
Azğınlara gəl yoldaş ol!
Yadlaşan qardaşın gəlir,
Yenidən and iç, qardaş ol!
Sən ey yatan, oyan, oyan!
Qiyamətdir, olmuş əyan!

Bir qız gəlir sevinci var,
Qızın boynunda inci var.
Yoxsa, sevən bizim yurdun,
Bir dəlisi, ya dinci var?!
Sən ey yatan, oyan, oyan!
Qiyamətdir, olmuş əyan!

*1916, 5 dekabr*



# "DALĞA" KİTABINDAN SƏHİFƏLƏR

## AZƏRBAYCAN BAYRAĞINA

*İngilislərin Bakıya gəlişindən sonra birinci dəfə Bakıya getdiyim vaxt – 10 aprel 1919-da parlament binası üzərində dalğalanan milli bayrağa söylənilmişdir.*

***Ə.Cavad***

Türküstan yelləri öpüb alnını
Söylüyor dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən
Ərmağan yollasın yara, bayrağım!

Gedərkən Turana çıxdın qarşıma,
Kölgən Dövlət quşu, qondu başıma!
İzn ver gözümdə coşan yaşıma –
Dinlətsin dərdini aha, bayrağım!

Qayi xan soyundan aldığın rəngi,
Qocalmış Elxanla müsəlman bəgi.
Elxanın övladı, dinin dirəgi,
Gətirdin könlümə səfa, bayrağım!

Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım!

*1919, aprel*

## BƏN KİMƏM?

Soranlara, bən bu yurdun
Anlatayım nəsiyəm:
Bən çeynənən bir ölkənin
"Haqq!" bağıran səsiyəm!

Bən şairəm, doğru, amma
Başqa dilim, diləyim!
Bu gördüyüm xərabədə
Nə nəşidə söyləyim?!

Toxundumu yazdıqlarım
Qəlbin incə telinə?
Bax, nə haqsız bir axın var
Yoxsulların elinə?!

Sən nə dersən bu sevdalı,
Həm bu dərdli gedişə?
Ey yarımın həsrətilə
Boynu bükük bənövşə!..

Bən qıyamam yar gəlirkən
Salladığım məndilə,
Ah, ey fələk, ağlar isəm
Göz yaşımı kim silə?..

*Gəncə, 1919, 20 dekabr*

## GƏLMƏ

*Albərk təkrar Bakıya gələcəkləri xəbəri çıxdığı vaxt söylənilmişdir.*

***Ə.Cavad***

Bu dağlar bənimdir, yeni gün gördü,
Boğar səni ahım, ey duman, gəlmə!
İnanma fələyə, dönükdür üzü,
Bir üzə gülməyir, hər zaman, gəlmə!



Ey yağmursuz bulud, uğursuz kölgə,
Dəyişməm bən "alı", o çirkin rəngə!
Sevdası könlümdə bir dərgın ölkə,
Baxar yad gözlərə pək yaman, gəlmə!

Könüllər bir dəniz, coşdurma onu,
Coşqun könüllərin fırtma sonu!
Sən ey Şimal yeli, gəl etmə bunu!
Yox isə əmrinə uymayan, gəlmə!

Sən ey gözlərimə batan quruntu,
Sağlam bir imana səndən nə qorxu?!
Bəslərsə vicdanlar pək böyük duyğu,
Yenilməz bir qala – hər vicdan, gəlmə!

## ELİN BAYRAĞI[1]*

*Milli şuraya*

Sən çıx bu minbərdən doğrunu söylə,
Yalvarma kimsəyə Tanrıdan başqa!
Küskünsə taleyin, sən ona küsmə,
Dinlə qədir səsin, çalış-çabala!

Bu bəxtsiz millətin daddığı acı,
Çalış əlac olsun, diriltsin onu!
Düşmən başındakı o zəfər tacı,
Görsün ki, ər qəmin deyildir sonu!

[1] 16 nəşinin 1919-cu il şuranın iclası münasibəti ilə Azərbaycanın fövqəladə nüsxəsi üçün yazılan variantda aşağıdakı kimi misralar var:

1. Qalxıb, bir də enməz elin bayrağı,
   Soldurmamaq sənin alnındadır, bil.
2. Vətən bir fidandır: yaşlı bayrağı,
   Soldurmamaq sənin əlindədir, bil!
3. Vətən bir fidandır, vəsmil bayrağı,
   Endirməmək sənin əlindədir, bil!

* *Qeyd:* Bu şeir 1918-ci ildə ilk dəfə gəncədə ADC elan olunduğu, üçrəngli bayraq qaldırıldığı zaman söylənilmişdir. Sonra şair onu təkmilləşdirib "Dalğa" kitabında çap etdirmişdir. Buna görə də biz ilk variantı çap edir, sonrakı düzəlişləri şerin sonunda veririk (*Tərtibçi*).

Qüruru cahandan, nuru haqdan al
Hidayət etməyə yol azanları!
Gəlməsin yardımsız qəlbinə həlal,
Yardım: münavələr... sübh əzanları!

Təmiz al alnındakı tozu, torpağı,
Haqq üçün açdığın əllərinlə sil!
Qalxıb, bir də enməz elin bayrağı,
O sənin, o mənim əlimdədir, bil!

## AL BAYRAĞA

Gül rəngində bir yaprağın
Ortasında bir hilal!
Ey Al Bayraq, sənin rəngin
Söylə neyçün böylə al?!

Hakim olub bir torpağa,
Ona etmək böylə naz?
Səndən başqa bir gözələ
Söylə, neyçün yaraşmaz?

Bu bənzəyiş nədən gözüm,
Şəhidlərin qanına?!
Uğurunda can verənlər
Neyçün qıyar canına?!

Yol üstündə dərdli nənə
Görür səni ağlamaz?!
Sən öylə bir şeirsən ki,
Sevməyənlər anlamaz!

Ey sevgili bayrağımın
O dalğalı duruşu!
Sandım salam rəsmi sana
Buludların yürüşü!



Sən ey hilal, al qoynuna,
Aldın göydən yıldızı!
Məftun etdin sən kəndinə,
Ən sevdalı bir qızı!..

*Bakı, 1919, 24 iyul*

## RÖYASINI GÖRMÜŞDÜM

Bən röyada nazlı yarın
Tellərini hörmüşdüm!
Bu sevincli zamanların
Röyasını görmüşdüm!

Elin dalğın olduğu gün
Xülyam bəni güldürdü!
İnanmayan imansızın
Dərdi bəni öldürdü!

Bir zamançün bizim Günəş
Qara tülə sarıldı.
Hər kəs ondan ümidsizkən...
Bənim könlüm darıldı.

Unudaraq "kor" sevdayı
Yaşıl söyüd dallarında
Bənim gözüm ilk aradı
Onu "Turan" yollarında!

Bir gün oldu bizimkilər
Oldu bizi bəgənməz!
Bən dedim ki, Millətimin
Sərmayəsi tükənməz!

*Hacıkənd, 1918, 5 avqust*

## YAZIQ

*Azərbaycan mühərrir və şairləri tərəfindən nəşr edilən "Qardaş köməyi" üçün yazılmışdır.*

*Ə.Cavad*

Dəniz dərdə düşər, dalğalar ağlar,
Dağlara dərd gəlsə, dumana yazıq!
Sənsiz öz elində qərib kəsilib
Durnalardan xəbər umana yazıq!

Bir quş oxur bizə sabah əzanı,
Çağırmaqda yola yoldan azanı.
Ərənlər söyləyən, Allah yazanı
Duymadan yox olan imana yazıq!

Zəmzəmin dərdini dinləyən qardaş,
Ölkəndə bir könül yapmaya uğraş!
Açılınca yollar Kəbəyə birbaş
Bir könül yapmayan vicdana yazıq!

Gün batanda sarı bulud sarısı,
Söylər sizə düşmüş dərdin yarısı!
Ey elin xanımı, qızı, qarısı.
Əl açmış bacılar düşmana, yazıq!

*Çakva, 1917, 10 fevral*

## İSTANBUL

Mən sevdiyim mərmər sinəli yarın,
Deyirlər, qoynunda yabançı əl var!
Baxıb üfüqlərə, uzaq yollara
Ağıyormuş mavi gözlər, axşamlar!

Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri, ipək bayğın İstanbul!



Bənim sevdiyim qız dünya gözəli,
Ona bu dünyada eş yaranmamış!
Deyirlər, könlünü fələk pozalı
Sürməli telləri heç daranmamış!

Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri, ipək bayğın İstanbul!

Qırıq dala qonmuş dün yavru bir quş,
"O"ndan xəbər verdi, gözüm yaşardı.
Gəl, zavallı könlüm, sorma nə olmuş?
Sorma ki, sevdiyin kimlərə vardı?!

Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri, ipək bayğın İstanbul!

Deyirlər, sevdiyim "Qız qülləsi"ndə,
Baxıyorkən qırıb rübab telinə!
Uçuyorkən şerin sevdasında,
Bir yılan sarılmış incə belinə!

Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri, ipək bayğın İstanbul!

Ey yolum üstündə yüksələn dağlar,
Gizli sevda üçün çırpınan dəniz!
Yol verin, yol verin, bənim dərdim var,
Qeyb etdim yolumu, qaldım kimsəsiz!

Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri, ipək bayğın İstanbul!

Bu qəlbimdən qopan yanıq bir fəryad,
Çəkdiyim dərdlərin tərcümanımı?
Yoxmudur kimsədən könlümə imdad,
Bu bəxtsiz sevdamın son zamanımı?

Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri, ipək bayğın İstanbul!

Yarəb, bilməzmidin qəlbimi sən də,
Ki, qırdın sazımın canlı telini?!
Doğuyorkən yeni bir ümid bəndə,
Neyçün məyus etdin Turan elini?!

Ah, ey solğun yüzlü, dalğın İstanbul!
Mavi gözləri, ipək bayğın İstanbul!

*Gəncə, 1919, 19 mart*

## AŞİQİN DƏRDİ

Soraraq yıldıza, Aya,
Ararkən gözlərim səni;
Bənim kimi bir sevdaya
Düşən gördüm bir də bəni!

Nə zaman ki, insan oğlu
Azar qərib eldə yolu;
Bənim kibi gözlər dolu
Yaşla salamlar Vətəni!

Bəncə, dərdin ən yamanı
İtirmək dərd anlayanı!
Hər yetənə sordum hanı,
Göstər bir dərd anlayanı?!

Ah, ey gözəl elim, günüm,
Düşsə sənə bir də yönüm?!
Tanrım, olsun ən son günüm
Göstər bana "can" deyəni!

Ayrı düşdüm bən elimlə,
Gedən bulud, getmə, dinlə;
Ağla bana öz dilimlə,
Türk aşiqi söyləyəni!



Aşiqin bir el dərdi var,
Ellər oxur, ellər yazar!
Bən düzərəm, zaman pozar,
Göz götürməz bu gülşəni!

*Kutais, 1916, 31 avqust*

## KUROPATKİNƏ

Kimdir bizim minarədə əzanları susduranlar?
"Doğru yola sapma!" deyib qanlı irin qusduranlar?
Kimlər böylə qara pərdə çəkdi bizim bu minbərə?
"Qari!" deyə xitab etdi Türküstanda yigitlərə?
Təkmələyib Türküstanın əgilməyən başlarını?
Kimlər çaldı babaların əski məzar daşlarını?
Kimdir qəzetlə, kərpiclə muzeyləri dolduranlar?
Kəndimizi heyvan sanıb, yurdumuza od vuranlar?
Hansı qanun əllərilə, hansı yasa, hansı yazı?
Söyüdlərin yerlərinə dikti Sibir akasıyası!
Heç bir tarix göstərməzkən türkün xain olduğunu,
Kimdir çalan türk ərzini, türk elinin var-yoxunu?
Sənin kimi kölgəsindən qorxanlar,
Sənin kimi düşünənlər, duyanlar!
Unut, əski günü, unut!
Bax, göydəki qara bulud
Məzlumların ahıdır!..
"Din" söylədik, Quranların təbdilinə yeltəndiniz,
"Dil" söylədik, fikrimizə məzar oldu Qara dəniz.
Zəngin idik, qurd oldunuz, yurdumuza saldırdınız,
Gözəllərin köksündəki altunları çaldırdınız!
Adlarını dəyişdirib məmləkətin, ilin, ayın,
Siz "şapqasız" sadə türkü məktəblərə buraxmayın,
Xor baxaraq əcdadının adətini sevənlərə,
Zəhər verin can yerinə, sizə "can" söyləyənlərə;
Elinizdən rahib olub itiqafə çıxanlara,
Söyləyin ki: başqa şeylər düşünürsən, haydı ora!

Sonra bizi Avropada vəhşi deyə yazın, pozun,
Bunun doğru olduğuna inandınmı sənin özün?
Sənin kimi bir çox miras yedilər,
Bizi daha nələr... nələr etdilər;
Unut, əski günü, unut!
Bax, göydəki qara bulud
Məzlumların ahıdır!

Bu ellərin torpağına, daşına
Çökən, ölmüş yigidlərin yasıdır!
Duman deyil, bu dağların başına
Qonan, məzlumların ahı, vayıdır.
Vətən xarab oldu, siz onda bayquş,
Of, bənim gözəlim kimlərə uymuş?

Sibiryada qazmaların guşəsi
Məzlumların kəmikiylə doludur!
Sənin kimi "əskiklərin" peşəsi,
Getdiyi yol azğınların yoludur!
Xoş hər vaxt gecə getməz, dan atar,
Bilməzmiydin səni bir gün qan tutar?

Söyləyiniz, hansı yurdun balası,
Əlinizdən ölüm canmı içmədi?
Göstəriniz hansı mülkün havası,
Sizin üçün saflığından keçmədi?
Sənin yavrun beşigində gülümsər,
Ərənlər yurdunda ancaq yel əsər.
Unut, əski günü, unut!
Bax, göydəki qara bulud
Məzlumların ahıdır!

Bir katolik kilsəsi qədər lal,
Türküstanın cəlladına nifrətim.
Sənin kimi azğınlara bir məlal
Gəlməzmi heç? Bən o günə həsrətim!
Türküstandan başqa bir çox yerlər var!



Sizə lənət edir, dargın obalar!
Unut, əski günü, unut!
Bax, göydəki qara bulud
Məzlumların ahıdır!
Dərdə düşmüş insan oğlu yolunda,
Ey hürriyyət, dərman sənin əlində!
Asılmaya məhkum olan qardaşı,
Qurtaracaq fərman sənin əlində!
Yad ellərdə yurək ver haqq qoluna,
Günəşlər saç zavallının yoluna!

*Çakva, 1917, 20 mart*

## BİSMİLLAH

Atıldı dağlardan zəfər topları,
Bürüdü elləri əsgər, bismillah!
O xan sarayında çiçəkli bir qız
Bəkliyor bizləri zəfər, bismillah!

Ey döyünən yürək, dumanlı şəhər,
Bilirmisən, bu zor gurultu nədir?
Aç sisli qoynunu, ordumuz gəlir,
Nişanlın qoynuna girər, bismillah!

Ey hərbin taleyi, bizə yol ver, yol!
Sən ey gözəl dəniz, gəl türkə ram ol!
Sən ey sağa, sola qılınc vuran qol,
Qollarına qüvvət gələr, bismillah!

Ey Baku, sən qorxma, gəldik, gələli,
Səninçün atıldıq daim irəli!
Sağ qalanlar annələrə təsəlli,
Şəhidlərin ruhu gülər, bismillah!

Ey düşman, alnının yazısı qara,
Öldürməz bizləri, vurduğun yara!

Yolladığın qurşun ərməğan sana,
O kirli alnını öpər, bismillah!

Sən mərd olub dursan qarşımda əgər,
Qudurğan saçmalı növbətin keçər;
Sağlandığın topraq qanını içər,
Yurdun olmaz sana sipər, bismillah!

Yurdumuzda bizə meydan oxuyan,
Murdar cəmdəkləri murdar qoxuyan.
Tək bir səslərini uzaqdan duyan,
Düşmənimi zaman istər, bismillah!*

*Yasamal, 1918, 16 iyul*

## BƏN BULMUŞAM

Ey Tanrının cənnət uman qulları,
Bən cənnəti bu dünyada bulmuşam!
Aramaqdan bezdiyiniz yolları
Aramadan bən sevdada bulmuşam!

Oxşayaraq Yıldızını, Ayını,
Bən sayamam cənnətimin sayını!
El deyən cənnətin bən bir tayını
Açıq gözlü bir röyada bulmuşam!

Eşitmədən, anlamadan yerini,
Dərvişlərin çağırdığı pirini;
İnandığım ərənlərin birini
Uc-bucaqsız bir səhrada bulmuşam!

Daşıyanlar vicdanların dərini,
Bucaqlarda arar gözəl yarını;

* Haman tarixdə türk əsgəri tərəfindən Bakıya hücum edildiyi vaxt yazıldı.



El cəfada diləndigi varını,
İmanını, bən səfada bulmuşam!

Yürəkdən "ney"lərə çəktirən ya hu!
Aşiqin inləyən neylə sorduğu;
Böyüklərin sanıb, heyran olduğu,
Nöqtəyi bən macərada bulmuşam!

Şərqin gülü, milli meyi, nəvası,
Qərbin könül sıxan ağır havası;
Rahiblərin, keşişlərin duası
Umduğunu masivada bulmuşam!

Çıxmışkən günahı vaizin dizə,
Vəz edib durmaqda bax yenə bizə!
Söylənəcək sözü dinə, dinsizə,
Vicdandakı bir sodada bulmuşam!

Bən ki, hindin sofisinə, sözünə.
Qulaq verməm, Qərbin baxdım yüzünə.
Büründüyü tülə degil, gözünə,
"Ney"dəkini bən nəvada bulmuşam!

Ağlamazsa qara bəxtin bulutu,
Bəsliyor vicdanım bir böyük duyğu!
Hər iki dünyanın nerdədir sonu,
Cavabını intihada bulmuşam!

İnandım ki, hər fəryadın sonu var,
Bir gün gələr Yer yüzündə yaz olar!
Gələn günü düşünənlər, yazanlar
Duyduğunu bu xülyada bulmuşam!

*Çakva, 1919, 11 aprel*

## ÇIRPINIRDIN QARA DƏNİZ

Çırpınırdın Qara dəniz
Baxıb Türkün bayrağına!
"Ah!.." deyərdin, heç ölməzdim
Düşə bilsəm ayağına!

Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən!..
Vəfalıdır gəldi, gedən,
Yol ver Türkün bayrağına!

İncilər tök, gəl yoluna
Sırmalar səp sağ, soluna!
Fırtınalar dursun yana,
Salam Türkün bayrağına!

"Həmidiyyə" o Türk qanı!
Heç birinin bitməz şanı!
"Kazbek" olsun ilk qurbanı!
Heyran Türkün bayrağına!

Dost elindən əsən yellər,
Bana şeir, salam söylər!
Olsun bizim bütün ellər
Qurban Türkün bayrağına!
Yol ver Türkün bayrağına!!.

*Gəncə, 1914, 4 dekabr*

## İNGİLİS

Bakuya gəlmisiz salam verməyə,
Ey Xan sarayını tutan ingilis!
Gedirkən Kəbəyə hacı karvanı,
Hacılar yoluna çıxan ingilis.



Damağında Çanaqqala ağısı,
Sənmisən türk ellərinin yağısı?
İslam dünyasının ölüm çalğısı,
Ölüm ninnisiylə yaxan ingilis!

Sarıb Hindistanın cansız qolunu,
Gəldin bağlamaya "Turan" yolunu.
Aldadıb hər yerdə Tanrı qulunu,
İnsanları ucuz satan ingilis.

Bax, yenə qarşında köksümü açdım,
Bakı dağlarına al bayraq sancdım.
Sən meydan oxudun, gəldim, ulaşdım,
Mərd deyil meydandan qaçan ingilis!

Sən bağla hər yolu, süngüm tez açar,
Üç ayda gələnlər, üç gündə qaçar.
Zənn etmə, qurşunum havaya uçar,
Türkdür, bu qurşunu atan, ingilis!

O xain gözünü dikdiyin ellər,
Bənim nişanlımdır, türkülər söylər...
Göz dikmə təxtimə, bax, əlim titrər,
Düşəcək təxtinə talan, ingilis!*

*1918, 12 iyul*

## EY ƏSGƏR!

Dağa, daşa sancağını öpdürüb
Duman kimi bu dağları bürüdün!
Dənizlərə salam rəsmi yapdırıb
Göylərdəki bulud kimi yürüdün!

Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan Günəş yüzünə!

* Bu parça əsgərimiz tərəfindən Bakı mühasirə edildiyi vaxt Bakı ətrafında bulunan Güzdəkdə söylənilmişdir.

Baş əydi bax, toplarının səsinə
Yad ellərin yıldırımı, şimşəyi!
Quzğun kimi qurumağa başladı
Səni görən cəlladların biləyi!

Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan Günəş yüzünə!

Arslan kibi saldırdığın düşmana,
Ər oğlu ər olduğunu göstərdin!
Fələk bu gün uyğun sana diyor ki,
Türk əsgəri, sən böyləmi istərdin?!

Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan Günəş yüzünə!

Qardaşlığın fərmanına baş əyib,
Məzlumların imdadına yetişdin!
Qaranlıqda süngün sana yol açdı,
Sən o yoldan muradına yetişdin!

Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan Günəş yüzünə!

Ey Türk, sənin hansı dində olduğun,
Minarəyə buyur, bizə söyləsin!
Eşitməyən qulaqlara səsini
Əsən yelə buyur, xəbər eyləsin!

Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan Günəş yüzünə!

Şu qarşıkı duman çıxan bacadan
Sən gəlmədən iniltilər çıxardı!
Geciksəydin, məzlumların fəryadı
Yeri, göyü, kainatı yıxardı!

Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan Günəş yüzünə!



Ey Türk, bana sevda çiçək bu şeylər,
Göydə hilal, yerdə sənin sancağın!
Durnalarla göndərdiyim salamı
Yetirdimi, sana ninen torpağı?!

Yürü, yürü batan günün izinə!
Gülümsəyir doğan Günəş yüzünə!

## TÜRK ORDUSUNA

Ey şanlı ölkənin şanlı ordusu,
Unutma Qafqaza girdiyin günü!
Gəlirkən qovmağa Turandan Urusu,
Ayağını Qara dəniz öpdümü?!*

İlk atarkən əsgi bürcə addımı,
Kars qalası salam topu atdımı?
Sən yaparkən orda zəfər şənliyi,
Məğlub düşman qaşlarını çatdımı?

Çıxdığın gün Allah Əkbər Dağına
Dağıstan dağları qibtə eylədi!
Baxdım ki, sarayın viran tağına
"Sən gəlirsən, şən oluram!" söylədi!

Gəldiyin gün Kürün axar-baxarı
Əski günahlardan silkindi, çıxdı!
Eşidib Cümrüdə təkbir səsini
Araz sevincindən dünyam yıxdı!

*Gəncə, 1918*

* Bu parça Bakını fəth edən əsgərlərə ithaf edilmişdir.

## DƏRDİM

Nə yaman dərddir bənimki,
Söyləməyə dilim yoxdur.
Nə qəribəm, qərib kibi,
Nə dərd bilən elim yoxdur!

Qaldım belə, bir ah, bir bən,
Tanrım sənsən, pənahım sən!

Başım üstə qara bulud.
Qaranlıq kölgə salmaqda.
Dəniz söylər "Onu" unut,
Gecikdi könül almaqda!

Nə yapayım, ah, bu günlər?
Onunçün yürəgim titrər!

Ahlar dönmüş, yağmur olmuş,
Yer yüzünə düşər, ağlar.
Viran eldə yatan bayquş
Üçün, yuva bizim bağlar!

Nə çıxar biz sızlamaqdan?
Boş təvəkkümidir haqdan?!

Əski "Turan" masalları
Kor aşığın sinəsində.
Tənəzzül et, dinlə barı,
Bax, nə coşqunluq səsində!

Bir kişnərsə erkək atlar,
Ağzının yürəgi partlar!

"Turan"m şanlı toprağı
Nerdədir taxtı, divanı?
"Yaşa"nın cırıq yaprağı.
Yol göstərir, gedən hanı?

Yazıq yoldan sapanlar!
Çürük bütə tapanlar!

*Çakva, 1917, 1 mart*



## ŞƏHİDLƏRƏ

*Azərbaycandakı Osmanlı şəhidlərinə*

Qalx, qalx sarmaşıqlı məzar altından,
Gəlmiş ziyarətə qızlar, gəlinlər!
Ey karvan keçidi, yollar üstündə
Hər gələn yolçuya yol soran əsgər!

Sənin qovduqların yabançı xanlar,
Qurtardı ölkəni tökdüyün qanlar!
Bax nasıl öpməkdə tozlar, dumanlar
Qərib məzarını, bən də bərabər!

Sənin qanındanmı düzlərdə böylə,
Qüdrət bitirmişdir sayılmaz lalə?!
Dost elindən qopdu bir yanıq nalə,
Yoxsa o nalənin ruhumu söylər?!

Keçərkən göylərdən bir qatar durna
Ağlar buraxdığın gözləri sorma!
Bax, doğru çıxmaqda gördüyün röya,
Bəslədiyin əməl bu gün gülümsər!

Çarıqlı qardaşın, sadədil köylü,
Gəldi məzarına bir örük urdu.
Toplamb baş-başa hər üçü, dördü,
Hər gün köylü qızlar dərdini dinlər!

*Gəncə, 1919, 10 mayıs*

## OF, BU YOL

Bənim yolum yalançı
Girdablarla dolmuşdur.
Yıxılmamaq bu yolda
Bana haram olmuşdur.

İman etmək güc olmuş,
Bir doğruya, yalana.

Hər kəs əngəl oluyor
Bir imanda qalana!

Hər gün yeni bir ümid,
Hər gün yeni bir xəbər;
Ancaq dünya əsgidi,
Haqq və doğru nə gəzər?!

İnsaniyyət, o bir kitab –
Hər oxuyan yalançı.
Güc, bir həyat meydanıdır –
Hər bir güclü talançı!

Yazıq bir çox məhkumlar
Hər bir sözə inanmış!
Sonra baxmış, qızaran
Şəfəq deyil, qan imiş!

Göy üzünün şimşəyi,
Yıldırımı, yağmuru
Soyutmadı, bu insan
Qanı içən dəmiri!

Ey Allahım yamltdın
Hər bir doğru addımı,
Yoxsa, yoxsul dünyadan.
Ədalətin qalxdımı?

Ey dinlinin, dinsizin
İnandığı son qüvvət!
Qalmadımı səndə də
İnsanlara mərhəmət!

Bən ki bilmək istərdim,
Kimlər ağlar, kim gülər?
Onunçündür etmişdir
Fələk bəni dərbədər!



Ariyorkən təsəlli
Baxdım mavi göylərə!
Bulamadım bir nöqtə,
Çıxamadım bir yerə.

Bən söylədim dərdimi,
Tazə yaşıl yaprağa!
Daha dərdim bitmədən
O sərildi toprağa!

Nə yoxsuldur təbiət,
Ömrü nə az çiçəyin?!.
Yazıq bağban sana ki,
Boşa çıxdı əməyin!..

Bezdim artıq qəhr olsun,
Murdarlaşdı bu əsr!
Yaxşı günlər keçiyor,
Tövbə ölüm gətirir!..

* * *

Of, çəkilsin cəhənnəmə bir pərdə
Bu baxmaqdan yorulduğum dünyaya!
Neron kibi bən də yüksək bir yerdə
Dalsam rübabımla bir zövq almaya!

Sən ey çalan kainatın sazını,
O tellərdə canlı nəğmən yoxmudur?
Kimlər çəkir bax kimlərin nazını!
Naz eyləmək hər gözələ yoxmudur?!

Hər qələmqaş can almağa alışıq,
Aşıqların canlarına acı, bir!
Bu qurbançıl göylər yenə qarışıq,
Gəl bu qurban qanlarına acı, bir!!.

*Hacıkənd*

# BAYATILAR

Samovarı doldumu?
Çaynikdə çay oldumu?
Sizdən sual alıram,
Bizə izin oldumu?

Qateq qırağ toxmacar,
Yel əsib, burcun açar.
Dost buxoylu qalıbdı,
Gətir ona bir açar.

Yağış yağar Şirvana,
Gün doğar hər bir yana.
Ho deyilmi yar gəlir,
Şəm kimi yana-yana!

Gördüm Qateq qırağı,
Düşdüm yardan irağı.
Nə məni yandırırsan,
Ay gözümün çırağı?!

Hayleylə girdim bağa,
Qızıl gülü dərmağa.
Qızıl gül bəhanədir
Sevən yarı görmağa.

[1] 1977-ci ildə "Elm" nəşriyyatı tərəfindən "Bayatılar (XVII-XX əsrlər)" adlı bir kitab buraxılmışdır. Kitabı A.Məmmədova tərtib etmişdir. *Tərtibçi*yə elə gəlmişdir ki, bu bayatıları Əhməd Cavad (*ona aid hissəsi*) Qax, Balakən və Zaqataladan toplamışdır. Əslində Əhməd Cavad o yerlərdə olmamışdır və həmin bayatıları Batumda və Dağıstanda özü yazmış, daha doğrusu qoşmuşdur. Əhməd Cavadın saysız bayatıları vardır, ancaq yeri gəldikcə onlar məlum bayatılardan da əlavələr edilmişdir (*Tərtibçi*).



Tullanıb girdim bağa,
Başım qoydum bayrağa.
Qorxa-qorxa gedirdim,
Gözüm sataşdı sağa.

Balta qoydum bucağa,
Yar gəlibdir ocağa.
On beş yaşdakı qızı
Götürəydim qucağa.

Ağac başında qarğa,
Ağzı dolu qovurğa.
Sizin kimi şeyləri
Yolda mənə buyurğa.

Əl vuraram qaşığa,
Söz deyərəm aşığa.
Mən səni alacağam,
Məhləmə yaraşığa!

O qıza bax, o qıza,
Çəpərdən baxır bizə.
O qızı bizə verməsən,
Axirət olmaz sizə.

Göydəki dan yıldıza,
Maraldakı buynuza.
Heyf deyilmi o şahbaz,
Həsən deyən donquza?!

Aşiqəm, gül alanda,
Gül bitər Gülalanda.
Şükri yadıma düşər,
Əlimə gül alanda.

Məscidin bucağında,
Şam yanar ocağında.
Baş qoyub, can verəydim,
Dostumun qucağında.

Oturaram binədə,
Tambur çaldım sinədə.
Üç ildən bir görməsəm,
Unutmaram yenə də!

Ağ papaq geyən molla,
Dur bir söz deyəm molla!
Arzumanın olmasın,
Yadigar verrəm, molla!

Dağlar başı dolama,
Bəylər gedir salama.
Yar özü bostançıdır,
Məndən istir şamama!

Əziziyəm, Güləndama,
Şeh düşüb gül əndama.
Tafta köynək olaydım,
Yapışaydım gül əndama!

Gün çıxıbdır yoluma,
Kəmər bağla belimə.
Qız, sənin ağ məməni
Alaydım sağ əlimə.

Xəncərin bağı qasma,
Tasmadan qoyun asma.
Düşmən dili çox olar,
Hər dilə qulaq asma.

Çöllərin bulağına,
Köynəyin zolağına;
Dur gedək, əziz, yoldaş,
Sevginin oylağına.

Mən aşiqəm, bir yana,
Könül yandı büryana.
Məmələrin ağzıma,
Üzündəki bir yana.



Səhər getdim dükənə,
Darışdım gül əkənə.
Mənim qorxum ondandır,
Yarsız ömrüm tükənə.

Samovarı yan-yana,
Çaynik düşübdü qana.
Yarım, bir cüt öpüş ver,
Mən ölüm, sən dostyana.

Məsinə, can məsinə,
Ağ qolun düyməsinə.
Bu canım qurban olsun,
Yarımın gəlməsinə!

Qaradağın başına,
Qurban olum qaşına;
Qırmızı döşlük olub,
Sarılaydım döşünə.

Çıxdım çinar başına,
Baxdım evlər tuşuna;
Bir nişanlı qız gördüm
Oxşur cənnət quşuna.

Atılır top qoşuna,
Mindilər ağ maşına.
Nə insafsız zabitdi,
Baxmayır göz yaşına.

Əzizim, zülfü qara,
Ağ üzdə zülfü qara.
Hər kim bana eləsə,
Tapşırram Zülfüqara.

Çıxdım hündür çinara,
Telefon da vurdum Cara.
Məndən çox salam olsun,
Sevdiyim əziz yara.

Biz hara, bura hara,
Bizi saldılar tora.
Bizi tora salanı,
Getsin imansız gora.

Axtafa bizim olsa,
İçində qızıl olsa.
Necə mahnı deyərdim,
Məclisdə izin olsa?!

Seyrana gedən olsa,
Qızılgül görən olsa,
Yazıb kağız göndərrəm,
Dostuma, gedən olsa!

Tamburun yüzü taxta,
İkimiz bir otaqda.
Mən nə çarə eyləyim,
Allah verməyən baxta?!

Su gəlir qalxa-qalxa,
Ho qızın adı Zalxa.
Bu gün bir yar sevmişəm
Qardaşdan qorxa-qorxa!

Mən aşiq, qalx ayağa,
Su dolur, qalxa yağa.
İllər xəstəsi canım,
Yar gəldi, qalx ayağa.

Tutağacı boyunca,
Tut yemədim doyunca.
İstərdim xəlvət otaq,
Söyləməyə doyunca.

İstəkanı yarınca,
İçdim qaldı yarınca.
Bu gün bir qızı gördüm,
Gözüm qaldı dalınca!



Ağac başında qabaq,
Yaprağı qabaq-qabaq.
Sizin kimi şeylərin
Ağzına bir çapalaq.

Ağacdan kəsdim budaq,
Yerə düşüncə tutaq.
Bundan bizə yar olmaz,
Tazədən gəl yar tutaq.

Dəf çalan nazik barmaq,
Başında qızıl qarmaq.
Qız, sana layiqdirmi
Bəni bu dərdə salmaq?!

Tambur çalan tək barmaq,
Kəmərin qızıl barmaq.
Oğlan, sana eyibdi,
Bəni sevib, onu almaq.

Bazardan ağ alacaq,
İstol üstə salacaq.
Bizim işə baxmağa,
Akrujni sud gələcək.

Bu gecə toy olacaq,
Qız, gəlin oynayacaq.
İlan vurmuş anası
Qızını qoymayacaq.

Dəryada qızıl balıq,
Üstü göy, altı qanıq.
Çox istədim, gəlmədin,
Canıma qoydun yanıq.

Bazardan aldım piçaq,
Dərdindən oldum naçaq.
Bən belə yar sevmişəm,
Bir hesab boyu alçaq.

Gecələr yatan yerdə,
Can-cana çatan yerdə.
Ağ üzündən öpəydim,
Sarmaşıb yatan yerdə!

Ay doğdu, batan yerdə,
Can-cana qatan yerdə.
Dosta yadigar verdim
Yanından ötən yerdə.

Dəryanın o yüzündə,
At oynatdım düzündə.
İki muraz sevmişdim,
Biri qaldı gözümdə.

Seyrəçin o yüzündə,
Ceyran oynar düzündə.
Qoşa xallar görmüşəm
Yarımın ağ üzündə.

Dostum, gəzmə al gündə,
Çıxıb otur, balgunda.
Ömrünə duaçıyam,
Əl götürüb hər gündə.

Suyun yüzündə pərdə,
Düşmüşəm mən bu dərdə.
Vallah dözə bilmirəm
Dostum olmayan yerdə.

Dağlarda, meşələrdə.
Şam yanır şişələrdə.
Hər ay sən yar qoynunda,
Mən qaldım meşələrdə.

Əzizim, meşələrdə,
Mey qaldı şişələrdə.
Sən yatdın, yuxun aldın,
Mən qaldım küçələrdə.



Dəryalar üzə-üzə,
Üzübən çıxdım üzə.
Bir Tanrı kömək olsun
Bu bizim ikimizə.

Mən gedirəm o yüzə,
Qayıqda üzə-üzə.
Ay quşlar, siz şad olun,
Meşələr qalır sizə.

Yarımın adı Mirzə,
Göndərmişəm Tiflisə.
Sövqatın istəmirəm,
Sağlığı gəlsin bizə.

Dutdum bağı şərəkə,
Dişlədim oldu ləkə.
Necə yaman olurmuş,
Yar olmayan mərəkə.

Su gəlir lülə-lülə,
Dost gəlir gülə-gülə.
Əlində ol yaylığı
Qan-təri silə-silə.

Ay qız, çıxma çəkilə,
Çit köynəyin sökülə.
Bu canım qurban olsun,
Qız, səndəki şəkilə.

Yağış yağır üstümə,
Xəbər apar dostuma.
Əgər mənim dostumsa,
Çadır çəksin üstümə!

Əlinə, can Əlinə,
Tamburun beş telinə.
Aç qolların sarmaşaq
Nazik, incə belinə!

Düşdüm dərya dibinə,
Əl uzatdım gülünə.
Gülüm şeytan oluban
Heç çatmadım sirrinə.

Gəlinə bax, gəlinə,
Sarmaşaydım belinə.
O qızın incə beli
Nə vaxt düşər əlimə?

Tambur qalır siminə,
Düşmüşəm həvəsinə.
Bir neçə mahnı deyim,
Dostumun həvəsinə.

O palutun tirinə,
Heç çatmadım sirrinə.
Qalanla işim yoxdur,
Qurban olum birinə!

Car yoluna gələrsə,
Əsgər paltar geyərsə.
Yazıb kağız yollara
Qum kəndimə gələrsə.

Bu dərə uzun dərə,
Yazılıbdır dəftərə.
Burda işim düzəlmir,
Mən gedirəm sərdərə.

Ay doğubdur bizlərə,
Qulaq verin sözlərə.
Bu canım qurban olsun
Yalqız yatan qızlara!

Aşıqlara, sazlara,
Tamburda qotazlara.
Bu canım qurban olsun
Gəlinlərə, qızlara!



Quşların cürə-cürə,
Uçub gedər hündürə.
Qız, mənlə dostluq elə
Düşmənlər hürə-hürə!

Namaz qıldım sünnətə,
Adam saldım minnətə.
Atanı yilan vursun,
Anan getsin cənnətə.

Oğlan, otur daş üstə,
Yumru papaq baş üstə.
Oğlan deyər bir öpüş,
Qız da deyər: baş üstə!

Bir cüt quş var gül üstə,
Bir cüt göz var yol üstə.
Tanrım, məni öldürmə,
Toyum vardır il üstə!

Bu gecə sayan gecə,
Yar boyun əyən gecə.
Cəsəddə canmı qalar
Əl-ələ dəyən gecə?

Lampa üstündə pişə,
Gül üstündə bənövşə.
İlahi, yada salaq
Bəlkə sevən yar düşə.

Ay qız, adın Səlmiyaz,
Kağız verim, otur yaz.
İkimizin toyu var,
Üstə gələn qara, yaz.

Əl yaylığı açılmaz,
Saçaqları saçılmaz.
Bu mənim sönmüş könlüm
Yar görməsə, açılmaz!

Bu dağdan aşmaq olmaz,
Kağızdan başmaq olmaz.
Küsülü yar ötürdüm,
Daha barışmaq olmaz!

Suya gedən sarı qız,
Sarı köynək, sarı qız.
Gözləri şah alması,
Özü dünya malı qız!

Bazardan aldım kağız,
Papiros qoy yara, qız.
Ox, sana qurban olum,
İncə bel, qarayanız!

Aşığam, ovum, ay qız,
Çaxmağım, qovum, ay qız.
Yoldaşıma gəlsənə,
Başına dönüm, ay qız!

İstol üstə sinimiz,
Birdi, ay qız dilimiz.
Sevən yar əldən gedir,
Nədir yoldan günümüz?

Əzizim, gəzər bağı,
Dost gəlib gəzər bağı.
Məhəbbət bir dəstə gül,
Açılıb bəzər bağı!

Mən aşıq, bala dağı,
Bal dağı, bala dağı.
Hər yaralar sağalsa,
Sağalmaz bala dağı.

Getdim gördüm qanığı,
Suların bulamğı.
Ölsəm də yaddan çıxmaz
Əziz yarın yanığı.



Pəncərə, ay işığı,
Oldum ellər aşığı.
Gedibdir, gələr tapar,
Məhləmin yaraşığı.

Mizar yüzü qırmızı,
Yandırıb, yaxma bizi.
Ağ yüzünü dişləsəm
Qan çıxar qıpqırmızı.

Qara at qaş-qabaqdı,
Öyüm təknə-təbaqdı.
Dilin yansın, ay xoruz,
Niyə dedin sabahdı?

Minarə minə qaldı,
Məhəmməd dinə qaldı.
Yarımnan oynaşmağım
Qiyamət günə qaldı.

Çöllərdə bəfam qaldı,
Çəkmədim bəfam qaldı.
Cəfa çəkib yar sevdim,
Bana da cəfam qaldı.

Dərdim dəryada qaldı,
İşim fəryada qaldı.
Ölməyimə yanmıram,
Heyif yar yada qaldı.

O qələ bizim olaydı,
Qapısı qızıl olaydı.
Yar qoynuna girəndə
Gecə uzun olaydı.

Dağlarda dağım yandı,
Aranda bağım yandı.
Dağlara od düşəndə
Bir dəstə gülüm yandı.

Qoyun-quzu qarışdı,
Cavan canım alışdı.
Sən Bakıda, bən burda,
Bu necə sifarışdı?

Tamburun yeddi bəndi,
Bazardan aldım qəndi.
Yar görməmiş olaydım,
Görüb yürəyim yandı.

Yar köynəyi bizdədi,
Düymələri düzdədi.
Getdim yarı görməyə,
Dedilər Tiflisdədi.

Əlimdəki sazımdı,
Sazım mənə lazımdı.
Gülüm olmayan yerdə,
Mana nəyə lazımdı?

Bu gecə nə gecədi,
Ay ülkərdən ucadı.
Şeyx olub, bulaydım,
Yarın halı necədi?

Yol ilən gələn varmı?
Oynayıb gülən varmı?
İtirmişəm dostumu,
Yerini bilən varmı?

Boyun var çinar kimi,
Yanarsan fənar kimi!
Əqlim başımdan gedər
Hər səni anar kimi!

Mən aşiqəm, üz kimi,
Göydəki ulduz kimi.
Ay qız, məmən çıxıbdır
Qazaraqlı qoz kimi!



Qara atın yalmanı,
Göyə atdım almanı.
Mən oynatmaq istərdim,
Qoynundakı almanı.

Bu sarışmaq zamam,
Ay canımın imanı.
Bircə görmək istərəm
Uzaqdakı cavam.

Mən aşıq, gözlər məni,
Kababa közlər məni.
Siz Tanrı, qoyun gedim,
Yatmaz yar, gözlər məni.

Könül aldatdı məni,
Qürbətə atdı məni.
Ana, yazdığın məktub
Xeyli ağlatdı məni.

Əzizim, soydun məni,
Nar kimi soydun məni.
Nə kölgədə bəslədin,
Nə günə qoydun məni?!

Ay alma soydu məni,
Yeməmiş doydu məni.
Nədir mənim taqsırım,
Yandırıb oydu məni?

Aç dostum pəncərəni,
Gözüm görsün gedəni.
Qəbirə qoymaq olmaz,
Yar dərdindən öləni.

Su səni, suda səni,
Saxlasın xuda səni.
Bir öpüb, beş qucaydım,
Şirin yuxuda səni.

Tökərəm qan yaşımı,
Qaraldır qız qaşını.
Bilmirəm ki, nerdədir,
Güzümüzün işığı?

Əraqçının çin-çini,
Öpüm ağzın içini.
Uçub handa gedərsən,
Könlümün göyərçini.

Əzizim, üzmə barı,
Qaş-gözün süzmə barı.
Aşnalıq bacarmadın,
Dostluğu üzmə barı.

Şirakın şirin narı,
Görəydim xəlvət yarı.
Dindirəndə dinəydi,
Tökəydim ahu-zarı!

Arxalığın astarı,
Köynəyin qılasları.
Ol xuda ayırmasın,
Bizim kimi dostları!

Mən aşıq dil qədəri,
Qaşların mil qədəri.
Hər sabah üzün görsəm
Açıllam gül qədəri.

Bu yolun iki qatı,
Səllim buraxdım atı.
Çox da baha deməröm,
Yüz manatdır qiyməti.

İstəkanın yarısı,
İçdim qaldı yarısı.
Bir gecə mehman elə,
İnsaf dinin yarısı.



Samovarın sarısı,
İçdim, qaldı yarısı.
Dostuma göz vuranda
Gedir canım yarısı.

Meşədən kəsdim qırçı,
Dibinə düşdü bürcü.
Sevən yarsız qalmasın,
Ya müsəlman, ya gürcü.

Mahnı mahnının başı,
Mahnı bilməyən naşı.
Mahnı bilmək yaxşıdı,
Qərib yerin yoldaşı.

Qızıl yüzüyün qaşı,
Yandı bağrımın başı.
Mən deyən yar olmasa,
Yandırram dağı, daşı.

Ərəqçinin qızıl qoy,
Dövrəsinə qızıl qoy.
Məni sana verməzlər.
Get atını hazır qoy.

Yoldaşım, mahnı deyək,
Soyub gəmiyin yeyək.
Bizə hamısı birdir,
Sana hansını deyək?

Qar yağır kürək-kürək,
Damları dirək-dirək.
Qonşuda bir qız gördüm,
Öpməyə yürək gərək!

Bu gün bayram elərik,
Bağda seyran elərik.
Yar bayrama gəlməsə,
Bayramı tərk elərik.

Gəl oturub çay içək,
Göy qilasdan don biçək.
İqrar üstə durmağa
Quran gətir and içək.

Barmağımda bir üzük,
Sağ qolumda bilərzik.
Mən ona qurban olum,
Boynumdan beli nazik.

Tamburun teli nazik,
Qol üstə cift bilərzik.
Yadigar vermişəm
Qırmızı qaşlı yüzük.

Samovar üstə çaynik,
Dostum olsun uryadnik.
Dur, şikayətə gedək,
Divan qursun naçalnik.

Şişədə mən nabatam,
Döşündəki saatam.
Dost, məni əldən qoyma,
Mən ayrı bir nabatam.

Təxt üstündə yatmışam,
Əlimdə şam tutmuşam.
Yadıma yar düşübdü,
Dünyanı unutmuşam.

Əzizim, molla yarım,
Yaylığı yolla, yarım.
Mana gələ bilmirsən
Yaz kağız yolla, yarım.

Bağda bağbanın ollam,
Saxla bağbanın ollam.
Əyər könlün istəsə,
Gəlib qurbanın ollam.



Xəncərimi bağlaram,
Düşmənləri dağlaram.
Yadıma yar düşəndə,
Tifil kimi ağlaram.

Əzizim, necə yaram?
Sızıldar gecə yaram.
Sən bilmə, Allah bilir
Mən sana necə yaram?

İstolda oturmaram,
Ağır söz götürmərəm.
Gətir Quran, əl basım,
Yardan əl götürmərəm!

Zərliyəm zərd olmuşam,
Qüssədən dərd olmuşam.
Qürbətə gələn gündən,
Biyabankərd olmuşam.

Qara qazan asaydım,
Altına çırpı basaydım.
Sözündən dönən qızı
Saçlarından asaydım.

Talaya yol salaydım,
Xırmanı bol salaydım,
Mən istəyən gözəlin,
Qoynuna əl salaydım.

Qaşların qələm-qələm,
Pulum yox, səni alam.
Səni gürcü aparsın,
Bən gəlib satın alam!

Dağın ətəyindəyəm,
Gülün budağındayam.
Ölsəm də fikir yoxdur,
Yarın otağındayam!

Alma versə yiyərəm,
İpək versə boyaram.
Üç gün çörək yeməyib,
Səni görsəm doyaram.

Dağların qarı mənəm,
Gün düşsə ərimərəm.
Qəbrim quzeydə olsa,
Cavanam çürümərəm.

Palutun yeri mənəm,
Topraqda çürümərəm.
Gəlsinlər ziyarətə,
Qızların piri mənəm!

Tamburun teli mənəm,
Şirvanın yeli mənəm!
Gireydim qız qoynuna
Cənnətin gülü mənəm!

Xəncərin dəsti mənəm,
Qaldıran üstə mənəm.
Sevən əlimdən getsə,
Dünyanı istəmənəm!

Dağıstan tuncu mənəm,
Gün düşsə incimənəm.
Sən məndən incisən də,
Mən səndən incimənəm!

Su yüzündə yüzmərəm,
Hər sitəmə dözmərəm.
Mən sana bənd olmuşam,
Ölməmiş əl üzmərəm!

Evciyəzi gəzərəm,
Dörd dövrəsin bəzərəm!
Səni evdə görməsəm,
Qapına daş düzərəm.



Dağdan dağa gəzərəm,
Quşlara dil yazaram.
Bir quş məni aldatdı,
Daha quşdan bezərəm!

Hündür evlər gəzmərəm,
Xırda qablar düzmərəm.
Molla yada düşəndə,
Vallah, gülə gəzmərəm.

Gedirəm, yol üstəyəm,
Bülbüləm, gül üstəyəm.
Əzrayıl, alma canım,
Nişanım, toy üstəyəm!

Bu yolu yürüyürəm,
Qar kimi əriyirəm.
Dostum, sənin dərdindən,
Ölmərəm, çürüyürəm!

İraq yerdən gəlirəm,
Yar dərdindən ölürəm.
Əyər mənim dostumsan,
Hazırlıq gör, gəlirəm.

Yol uzunu gedirəm,
Bilmirəm nə edirəm.
Ay qız, sənin dərdindən
Baş götürüb gedirəm.

Getmə, getmə gəlirəm,
Sən getsən, mən qalıram.
Dostum, sənin dərdindən,
Can üstəyəm, ölürəm.

Yazı yaza bilmirəm.
Qara poza bilmirəm.
Vətən orda, mən burda,
Ayrı dözə bilmirəm!

Ağ almanı ataydım,
Atıb əldə tutaydım.
Ay qız, nikahın olub,
Bircə gecə yataydım.

Tüfəng olub ataydım,
Bir mənzilə çataydım.
Döşü üstə baş qoyub,
Şirin yuxu yataydım.

Suda ilan olaydım,
Şişələrə dolaydım.
Yalqız yatan qızların
Yoldaşı mən olaydım!

Naxırda ağ inəyim,
Ağılda sağ inəyim.
Kömürdən qara yandı,
Kağızdan ağ ürəyim!

Bağa su düşdü neylim,
Tənək su içdi neylim.
Allah pay paylayanda
Bana bu düşdü neylim!

Tambur saz oldu neylim,
Ördək qaz oldu neylim
Mən bir azara düşdüm
Səbəb qız oldu, neylim!

Saraydan sabun asdım,
Sən mənim əziz dostum.
Hər nə dedin, sən dedin,
Mən nə dedim, sən küsdün?

Papiros çəkən dostum,
Dodağı şəkər dostum.
Sən papiros çəkəndə,
Mən sana nökər dostum.



Barmağı yüzük yarım,
Qolu bilərzik yarım.
Əyil yüzündən öpüm,
Dodağı nazik yarım!

Bu yoldan işləyəydim,
Xəncər gümüşləyəydim.
Eşq ilə yarı sevib,
Yüzündən dişləyəydim.

Zərnə yolu düz gördüm,
Bir qəmzəli qız gördüm.
Saçları üç yüz manat,
Mən hələ ucuz gördüm.

Faytonda otu dostum,
Gözləri lotu dostum.
Mən sənin sevgilinəm,
Farağat otu, dostum.

Əzizim, yarı canım,
Sancıbdır arı canım.
Yardan ayrı düşəli,
Qalmayıb yarı canım.

Barmağımdan çıxdı qan,
Mən and içdim, sən inan.
Gəlib yadıma düşdü,
Səninlə keçən zaman.

Samovarı qaynadan,
Üstə çaynik oynadan.
Əyil öpüm üzündən,
Qaş altdan göz oynadan.

Qaşların qarasından,
Öpəydim arasından.
Ayrılmaq necə olsun,
Filankəs balasından?

Yolumuz qara tikan,
Kimdir papiros çəkən?
Qara qaşlı olmusan,
Məni yandırıb tökən.

Çəpəri basma, oğlan,
Yolumu kəsmə, oğlan.
Mən özgənin malıyam,
Hələ tələsmə, oğlan!

Fayton gəlir yolunan,
Bülbül oynar gülünən.
Allaha baxıb dostum,
Məni saxlar dilinən.

Çöldə tutdum bir ceyran,
Mən sana oldum heyran.
Əyil yüzündən öpüm,
Hürünün qızı Məryam.

Bazardan aldım qaytan,
Hey kidi, bizim Vətən.
Əyil yüzündən öpüm,
Gün doğandan, gün batan.

Mən gəlirəm iraxdan,
Çıxdı gülüm budaxdan.
Gülüm, birce soraydım,
Bal süzülən dodaqdan!

Yüz Allaha tutarsan,
Öz canına baxarsan.
Bir azca səbr eləsən,
O zülmdən çıxarsan!

Ağ almanı soymazsan,
Xalq sözünə uymazsan.
Çox etiqad elərəm,
Sözü yerdə qoymazsan.



Ay qız, mənim payımsan,
Göy yüzündə Ayımsan!
Mən səni çox istirəm,
Yaxşı mənim tayımsan!

Sarayda tütün düzən,
Qələmqaş, gözlər süzən;
Könlüm sana düşübdür,
Köynəyi çoxlu bəzən!

Dağlarda qarımmısan?
Bağlarda barımmısan?
Gülə-gülə durubsan,
De, mənim yarımmısan?

Gedərlər oraq ilən,
Bir dəstə yaraq ilən.
Telə sığal çəkərlər
Əlində daraq ilən!

Samovarı qurgilən,
Burğusunu burgilən;
Əyər mənim yarımsan,
Gəl qarşımda durgilən!

Su gəlir axmaqilən,
Qayalar yıxmaqilən.
Gözəldən gözmü doyar
Uzaqdan baxmaqilən?!

Tambur ilən, saz ilən,
Ördək ilən, qaz ilən,
Kaş, bir gecə yataydım
Sevdicəyim qız ilən!

Dağıstanda dağam mən,
Aranda dustağam mən.
Dostuma xəbər apar
Ölməmişəm, sağam mən.

Papiros çəkməginən,
Qutunu əyməginən.
Ay dostum, gəl yaxına,
Yandırıb tökməginən!

Mən gedirəm bilginən,
Yol üstündə durginən;
Ay dostum, gəl yaxına,
Halallığı verginən!

Ağ köynəyi geyirsən,
Kirlətməyib yüyürsən;
Bən səni istəyirəm,
Sən bana nə deyirsən?

Üç qərənfil verəyim*,
Aç qoynunu, girəyim!
Sən ordasan, mən burda,
Soyuqdanmı öləyim?!

Dağlar dağlara baxar,
Atəşin bəni yaxar.
Həlbət bir gün gələcək,
Gözün gözümə baxar.

Ay işıqdır, işıqdır,
Dam dama ilişikdir.
Hal tutmasın annesi:
Oğlu bana aşiqdir!

Armud dalda ballanır,
Yerə düşür, xallanır.
Oğlan padşah olsa da,
Yenə qıza allanır.

---

* *Qeyd:* Bu bayatıdan başlayaraq 8 bayatını jurnalist Y.İsmayılov Ə.Cavadın həyat yoldaşı Şükriyyə xanımın yaddaşından yazmışdır, qəzetdə və şairin "Sən ağlama, mən ağlaram.." (Bakı, Yazıçı, 1991, s.48-49) adlı kitabında çap olunmuşdur (*Tərtibçi*).



Yazı yazdım yaz idi,
Qələmim bəyaz idi.
Qınama, bəy əfəndim,
Mürəkkəbim az idi.

Gedəlim əlinizdən,
Qurtulum dilinizdən.
Yaşılbaş ördək olsam
Su içməm gölünüzdən.

Ay uzana-uzana,
Sözüm düşdü yazana.
Hər adam sözü bilməz,
Söz çıxardar yazana.

Niyazi – qara kedi,
Südün üzünü yedi.
Qəbahət annesində –
Dolabı kitləmədi...

* * *

Maral çıxdı qamışdan.
Buynuzları gümüşdən.
Əziz dostum, pay saxla
Qoynundakı yemişdən.

Mən gedirəm Ağdaşdan,
Papağım düşdü başdan.
Səni deyib gəlmişəm,
Oldum qohum-qardaşdan.

Aşiqəm aşdan-aşdan,
Sən kiprikdən, mən qaşdan,
Nə atam yox, nə anam,
Yaranmışam ağ daşdan.

Ocağa qazan asın,
Altına odun basın.
Mən burdan mahnı deyim,
Siz ordan qulaq asın.

Əzizim, hara gəlsin,
Zülfünü dara, gəlsin.
Mənsiz bayram eyləsən,
Bayramın qara gəlsin!

Boz atın boylanmasın,
Çək başın oynamasın.
Gəlirsən, səhərdən gəl,
Yürəyim oynamasın!

Köynəyin çitdi sənin,
Könlün məsciddi sənin.
Çoxmu dərdə düşübsən,
Rəngin uçubdu sənin!

Papiros yandırırsan,
Asanca qandırırsan.
İncə belli ay dostum,
Nə bəni yandırırsan?

Lampanı alışdırsın,
Şişəni yapışdırsın.
Əziz dostum küsübdür,
Bir Allah barışdırsın.

Əzizim, yaxşı gəlsin,
Yaxşı de, yaxşı gəlsin.
Durubsan əli fallı,
Axırın yaxşı gəlsin.

Əzizim, əgər başın.
Yasdığa dəgər başın.
Başını qovza, qərib,
Gəldi sənin qardaşın.



Bu fayton bizim olsun,
Topları qızıl olsun.
Biz alası qızların
Ömrləri uzun olsun.

Aftafa bizim olsun,
Dörd yanı qızıl olsun.
Biz alırıq birini,
Qalanlar sizin olsun.

Tənək okdim, bağ olsun,
Bağ artırdım dağ olsun.
Bir neçə mahnı yazdım,
Eşidənlər sağ olsun.

İstokanı ağ olsun,
İçi dolu yağ olsun.
Biz burda mahnı dedik,
Eşidənlər sağ olsun.

Tamburun qolu uzun,
Qoluna mərcan düzün.
Yarım var uzaqdadır,
Mən buna necə dözüm?

Tamburun sapı uzun,
Çantalar düzüm-düzüm.
Əyil yüzündən öpüm,
Sən mənim qumral gözüm!

Büzmə köynək büzülsün,
İncə belin üzülsün.
Siftə edən gecəsi
Əlin yardan üzülsün.

Bağça bar deyib ağlar,
Heyva nar deyib ağlar;
Dərya üstə bitən gül –
O da yar deyib ağlar.

Qamış taladan azar,
Yar görüb əqlim azar.
Mən bir qızı sevmişəm
Açılmış gülə bənzər.

Gedirsən bəni apar,
Yoxsa qiyamət qopar.
Oturub bir ah çəksəm
Dalınca sellər axar.

Əzizim, nədən bağlar,
Pərvanə nədən bağlar?
Əkmə namərd zəmisin,
Nə bitər, nə dən bağlar.

Bu bazar uzun bazar,
İçində naib gəzər.
Vurğun vurulmuş naib,
İki qoşunla gəzər.

Əziziyəm, baş bağlar.
Başın yuyar, yaş bağlar.
Aşnadan ayrı düşən
Ürəyinə daş bağlar.

Dağlar dağlara baxar,
Aradan çaylar axar.
Bizim yerdə adətdir –
Sevən-sevənə baxar.

Əzizim, nə baxışlar,
Dost dosta nə bağışlar?
Başım cəllad əlində,
Nə kəsər, nə bağışlar.

Ağacdakı xurmalar,
Qız, yaxanda düymələr.
Qız üstündə qan olar,
Qaş-gözünü sürmələr!



Su gəlir bəndər-bəndər,
Dağlardan qarı əndər.
Dərmansız dərdə düşdüm
Al dərmanı, tez göndər.

Gedirəm, yolum budur,
Başıma zülüm budur.
Yar sevib yerdə qalmaq –
Əcəlsiz ölüm budur.

Dağlar başı bütündü,
Kisə dolu tütündü.
Çevir yüzünü bir də,
Dünya ölüm-itimdi.

Qara atın nəyi var?
İçi dolu piyi var.
Ay qız, sənin qoynunda
Şamamanın iyi var!

Bulaqda beş yaxa var,
Gümüşdən aftafa var.
Maral qızın başında,
İpəkdən alafa var.

Taxta üstə üzüm var,
Üzüm, səndə gözüm var.
Bir məhlədə cift gözəl,
Birisində gözüm var.

Ayağında məsi var,
Qoynunda məməsi var.
Əl salıb incitməyin,
Onun da yiyəsi var.

Dərya susuzmu qalar?
Dibi qumsuzmu qalar?
Dünyada sağ adamın
Könlü yarsızmı qalar?!

Samovar dolub daşar,
Ho gül kimə yaraşar?
Ho gül bizə olmasa,
Tamam dağ-daş ağlaşar.

Qateq daşar, Kür daşar,
Çıxıb körpüdən aşar.
Bən dərdimi danışsam,
Dağlar, daşlar ağlaşar!

Gündoğandan gün doğur,
Aşiq-aşiqi boğur.
Annəsi on beş yaşında,
Qızları oğul doğur.

Aşağdan su doldurur,
Yuxardan bulandırır.
O yanda bir gəlin var,
Vallah, məni yandırır!

Pəncərədə otdu yar,
Yapıncını götdü yar.
Oba qalın, yol iraq,
Gör hayana ötdü yar?

Cara gedən yardılar,
Qızılgülü dərdilər.
Qırılsın belə yarı,
Yarı, yarda verdilər.

Evdə qoca yatıbdır,
Qoç buynuzu çatıbdır.
Ərgən oğlan, ərgən qız
Qucaqlaşıb yatıbdır.

Baxdım iraq görükür,
Çöldə çıraq görükür.
Ho dostumun köynəyi
Zolaq-zolaq görükür.



Su gəlir güldür-güldür,
Suyunu bu gün doldur.
Salırsan sal qoynuma,
Salmırsan, məni öldür.

Ziyalələr ya dolur,
Yad olur, fəryad olur.
Bənim qorxum nədəndir?
Aşna, yarım yad olur.

Bostanda yemiş olur,
Yeməmiş dəymiş olur.
Oğlam dərdə salan
Qız deyən ölmüş olur.

Yanaşa beş otaqlar,
İçində qızıl taxtlar.
Bir-bir yadıma düşür
Ho gəlib keçən vaxtlar.

Dağda maral tək otlar,
Gah səs eylər, gah otlar.
Səndən bana yar olmaz,
Mənim yürəyim çatlar.

Qateq qıraq toxmacar,
Yel əsib, bürcün açar.
Dost buxoylu qalıbdı,
Gətir ona bir açar.

Muxax başı Gardaxlar,
Su dolduran bardaqlar.
Gəlib yadıma düşdü,
Səninlə keçən vaxtlar!

Məhlədə qoşa çinar,
Qoşa, yanaşa çinar.
Dost biçinə gedəndə,
Yaprağı döşə çinar.

Qarı saçı hörməzlər,
Səni bana verməzlər.
Əyil öpüm yüzündən,
Qaranlıqda görməzlər.

Pəncərədən əl eylər,
Əlləri gəl-gəl eylər.
İki könül bir olsa,
Dağdan, daşdan yol eylər.

Əziziyəm, baş əyər,
Barlı budaq baş əyər.
Dünya namərd dünyadır,
Mərd, namərdə baş əyər.

Bu yol yolamı gedər?
Ceyran çöləmi gedər?
On beşinə çatan qız,
Evdə yolamı gedər?

Əzizim, gecədən gedər,
Karvan gecədən gedər.
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedər.

Bu yoldan xanım gedər,
Ardınca canım gedor.
Bir yerdən yaralandım,
Min yerdən qanım gedər!

Dostum başına gələr,
Sürmə qaşına gələr.
Bir neçə mahnı desəm,
Sənin xoşuna gələr.

Dağda buğda sərərlər,
Çıxma boyun görərlər.
Sənin sünbül saçından
Heykələ bağ hörərlər.



Arxalığı biçərlər,
Qırağından tikərlər.
Bən səndən soruşuram,
Qılı nəylə seçərlər?

Ay qız, adın Qızyetər,
Bağda qızılgül bitər.
Yüzünü açgilən sən,
Bəlkə diləgim bitər.

Dəryada çinar bitər,
Üstə bülbüllər ötər.
Dərya qədər dərdim var,
Ona dərmanmı yetər?

İstəkana sal şəkər,
İstanbul ordu tökər.
Yar yadıma düşəndə,
Yürək yanıb, qan tökər.

Carqala oldu şəhər,
Gəzək biz ayrı təhər.
Yüzü qırmızı güldü,
Qoynunun içi gövhər.

Mən gedən güllü bağdır,
Maşonun sözü sağdır.
Mən istəyən maşonun,
Sinəsi qardan ağdır.

Atın qaşqa qabaqdır,
Yükrək sarı qabaqdır.
Dilin qurusun, xoruz,
Niyə dedin sabahdır?!

Qaşların qaradandır,
Haqq bizi yaradandır.
Qurban olduğum Allah,
Bu sevgi haradandır?

Tamburun teli laldır,
Bazardan alan baldır.
Qızlara qurban olum,
Gəlinlər ayrı maldır!

Buğdalar köklü nədir?
Yar sevdim, bir danədir.
Olmuşam yar dəlisi,
Deyirlər divanədir.

Bu yoldan yol ayrılır,
Qara zülfdən tel ayrılır.
Namərdə yoldaş olan
Mərddən də el ayrılır.

Meşədə dad şan gəlin!
Qurşağı quşan gəlin.
Ərin xoryaddı sənin,
Gəl ondan boşan, gəlin.

Nazbalış baş altdadır,
Alagöz qaş altdadır.
İstərəm durum gəlim,
Qollarım daş altdadır.

Tiflisdə çırax yanar,
Baxdıqca irax yanar.
Bu necə şərbətdi ki,
İçdikcə yürək yanar!

Su gəlir lilləndirir,
Baxçanı gülləndirir.
Canımda dərdim çoxdur,
Dərd məni dilləndirir.

Dağların başı yanır,
Dibində daşı yanır.
Yar yadıma düşəndə
Yürəymin başı yanır.



Arxalığı narışdı,
Qol uzunu qarışdı.
Yar, sən orda, mən burda,
Bu necə ismarışdı?

Əziziyəm, naçaqdır,
Əlimdəki bıçaqdır.
Mən tanıram dostumu,
Səni qoyub, qaçaqdır.

Əzizim, sarısıdır,
Gecənin yarısıdır.
Məni bu dərdə salan
Bir kafir balasıdır.

Kür qırağı sərindir,
Girmə, oğlan, dərindir.
Oğlanı dərdə salan
Alagözlü gəlindir.

Gecə keşdi çağırır,
Xoruz çeşdi çağırır.
Sinəm üstə Əzrail
Dilim dostu çağırır.

Dağlar dolu çiçəkdir,
Aran dolu milçəkdir.
Arançı mənim dostum,
Yaylaqçıdan göyçəkdir.

Arxalığı iki qat,
Birin saxla, birin sat.
Əyər məni istərsən,
Bir gecə mənimlə yat.

Məhlədə bitər söyüd,
Yaprağı gömgöy söyüd.
Kiçikcə bir yar sevdim,
Xudam, sən özün böyüt.

Boz at mindim, boz oldum,
Yorğa sürdüm, toz oldum.
Qız, yaylığın düşübən,
Mən götürdüm, söz oldu.

Buxarı qurum oldu,
Yandıqca qurum oldu.
Yoldaşların içində,
O qıza zülum oldu.

Ağac yandı köz oldu,
Əyri kösöy düz oldu.
Əziz dosta deyəsən
Dildə bircə söz oldu.

Podnosa əl vuruldu.
Carda mizan quruldu.
Dostum ötüb gedəndə
Tiflisə tel vuruldu.

Cara gedən bir yoldu,
Biri sağ, biri soldu.
İki sinən arası
Damağa gedən yoldu.

Qazmalar tuşbətuşdu,
Bir qazma dərin düşdü.
Kiçikcə yar sevmişəm,
Nənnidən uzaq düşdü.

Qoruxda qoyun, quzu,
Qoyuna verdim duzu.
Dövlətə susamayın,
Yigitə verin qızı.

Samovarı doldumu?
Çaynikdə çay oldumu?
Sizdən sual alıram
Bizə izin oldumu?



Bu dərənin uzunu,
Çoban sürər quzunu.
Gedin deyin dayıma
Versin mana qızım!

Bazardan aldım qutu,
İçində kəklikotu.
Dizin üstə baş qoyum,
Çimdikləmə, düz otu.

Arxalığın bir yüzdü,
Bir astardı, bir yüzdü.
Əyil, yüzündən öpüm,
Görən desin bir yüzdü!

Hündür dağların düzü,
Canına al bu sözü.
Qərib canı yandırır
Cavan ölmüşün qızı!

Hündür bağın düzünü,
İtirmişəm izini.
Bircə görmək istərdim,
Əziz dostun yüzünü.

Altına qoydum kürsü,
Gözümdən çıxdı tüstü.
Mən bir elə yar sevdim
Dünən ilkindi üstü.

Üstdəki aya bax,
Bu evdəki toya bax.
Toyda dostum oynayır,
Halal olsun, boya bax!

Buxarı pişinə bax,
Yar gözün yaşına bax.
Mən ki böylə demirdim,
Allahın işinə bax!

Armud ağacı butax,
Yerə düşüncə tutax.
Köhnə dostdan dost olmaz,
Gəl təzədən dost tutax.

Ay doğur, qadir Allah,
Sevdamız nədir, Allah?
Muraz üstə qalanın
Murazın yetir, Allah.

Ay doğdu bədir, Allah,
Bu sözlər nədir, Allah?!
Cavan cavana yazan
Üstdəki, qadir Allah!

Danış, tamburum, danış,
Bir son mənimlə barış.
Açuban qollarını
Gəlib boynuma sarış.

Dağın ətəyi yemiş,
Ətəyi dolu yemiş.
Yardan bir nar istədim,
Qoymadı ha bu ölmüş.

Buxarı his olarmış,
Yandıqca his olarmış.
Özgə dərdlərə şükür,
Yar dərdi pis olarmış.

Əzizim, gözdə qara,
Sürmə çək gözdə qara.
Əziz yar gözləməkdən
Qalmadı gözdə qara.

Əzizim, qala məndə,
Bürc məndə, qala məndə.
Qorxuram düşəm, öləm,
Bu arzu qala məndə.



Aşiqəm, axta-axta,
Döşündə qızıl bafta.
Mən nə çarə eyləyim
Allah verməyən baxta?

Su gəlir lülə-lülə,
Dost gəlir gülə-gülə.
Dostumun göyçək üzü
Oxşayır qızılgülə.

Gecələr gözəl, ayaz,
Yox bulud, gözəl ayaz.
Qurban olduğum Allah,
Sevəni sevənə yaz.

Dağlara dolu düşdü,
At gəzib, nalı düşdü.
Ölsəm yol üstə basdır,
Bəlkə yar yolu düşdü.

Şirvanın yasdı yolu,
Su gəldi, basdı yolu.
Durdum toya getməyə,
Əzrayıl kəsdi yolu.

Quşların yedi məni,
Yedi qurtardı məni.
Bir namərdə sirr açdım,
Ellərə dedi məni.

Şirvanın tağ üzümü,
Yeməyə tağ üzümü.
Fələk, mən neyləmişdim,
Danlayır xalx üzümü!

Mən aşiq, oba hanı?
El hanı, oba hanı?
Ya ölləm, ya öldürrəm,
Bən allam o baxanı!

İstəkanın sarısı,
İçdim, qaldı yarısı.
Ay qız, insafdan çıxma,
İnsaf dinin yarısı.

Barmağım beşdi mənim,
Yaşım on beşdi mənim.
Baxma eyliyim budu,
Axırım heçdi mənim.

Arxalığın biçmişəm,
Tikməyə and içmişəm;
Bizim bu bala kənddən,
Şümal boyu seçmişəm.

Aşiqəm, ağlamaqdan,
Ağa göy bağlamaqdan.
Canda aman qalmadı
O qıza yalvarmaqdan.

Aşiqəm, ağlamaqdan,
Sinəmi dağlamaqdan.
Bağda yarpaq qalmadı
Yarama bağlamaqdan.

Əzizim, yar içərdən,
Dəl bağrım, yar içərdən.
Gözüm qarası getdi,
Çıxmadı yar içərdən.

Yük üstündə pərdə mən,
İndi düşdüm dərdə, mən.
Yadlar qəbrimi qazıb,
Necə yatım gorda mən?

Göy üzündə pərdə sən,
Saldın məni dərdə sən.
Bən səni çox sevirəm,
Göydə Allah, yerdə sən.



Dağlar marala qalsın,
Otu sarala qalsın.
Göy çəmən, gözəl dağlar
Genə marala qalsın.

Mənim gülüm, az ağla,
Bu dağları, gəz, ağla.
Üç gün məni görməsən,
Bir kağız da yaz, ağla!

Əziziyəm, Gəncə var,
Şəki, Şirvan, Gəncə var.
El bilir, ayrılmışıq,
Məhəbbət ölüncə var.

Su gəlir arxa nə var?
Dolanır çarxa nə var?
Mən o qızı istərəm,
Qırılmış xalxa nə var?!

Əzizim, qoşa dağlar,
Çatıb baş-başa dağlar.
Maralım səndə itdi,
Dönəson daşa, dağlar.

Məhlədə piç otaqlar,
İçində qızıl taxtlar.
Bir-bir yadıma düşür,
Dostumla keçən vaxtlar.

Suda balıq yan gedər,
Açma yaram, qan gedər.
Can həkimi nə bilir,
Əcəl gəlib, can gedər.

Əziziyəm, yaz göndər,
Sini halva tez göndər.
Əgər kağız tapmasan,
Yapraq üstə yaz, göndər.

Yağış yağar, səs eylər,
Ay çıxar, həvəs eylər.
Sizin bağın bülbülü,
Bizim bağda səs eylər.

Qara at nalı neylər?
Gözəllər xalı neylər?
İstəyən yarım olsa,
Dünyanın malı neylər?

Qızıl üzük məndədir,
Axtarma, cibimdədir.
Fikir çəkmə, can dostum,
İki gözüm səndədir.

Arxalığın narışdı,
Qolları bir qarışdı.
Neylər yorğan-döşəyi,
Meşələr nazbalışdı.

Mən aşıq Gəncə bağı,
Yeməyə Gəncə bağı.
Almağa Batum gözəli,
Gəzməyə Gəncə bağı!* –

Mən aşiq, Gəncədənəm,
Şəmkirdən, Gəncədənəm!
Əslim, köküm türk oğlu,
Soy, soyadca Gəncədənəm!

Əziziyəm, Sənəm, mən,
Duman mənəm, çənəm mən.
Qurbaniylə deyişən,
Dədə Yedyar mənəm, mən!

* *Qeyd:* Üstə işarə qoyulan bayatıdan başlayaraq bundan sonra gələn bayatılar "Azıx" folklor muzeyinin arxivindən götürülmüşdür (*Tərtibçi*).



Eləmi, anmışam mən,
Səni Əsli sanmışam mən!
Qucağında Gəncənin
Kərəm tək yanmışam mən!

Aşiqəm, ələmim var,
Bir özgə aləmim var.
Çoxunun malı, mülkü,
Mənim dəftər, qələmim var!

Ağlım başda cəm olub,
Əkdiyim gül qəm olub.
Bir gözüm Aşıq Hüseyn,
Bir gözüm Dilqəm olub!

Eləmi, ay harayı,
Fələk yıxmaz sarayı.
Ürəyimdən üç çay axar:
Şəmkir, Qoşqar, Gəncə çayı!

Bu çaylar bir olaydı,
Suları dürr olaydı.
Axıb, axıb axırda
Böyüyüb Kür olaydı!

Gözəl dayan, sözüm var,
Gözlərində gözüm var.
Axarcanın, Xoşbulağın
Sinəsində izim var!

Kəpəz, şimşəklər çaxsın,
Üstündən sellər axsın!
Qəlbimi görmək istəyən,
Dönüb Göy gölə baxsın!

Sevgilim, dağ, daş mənim,
Daş-qaş sənin, daş mənim.
Sənin olsun sevinc, şadlıq,
Gözündəki yaş mənim!

Əzizinəm, qonşuyuq,
Qəlbi qırıq, könlü oyuq;
Ormanların qoynunda,
İsaq, Musaq quşuyuq!
İsaq sənsən? Mənəm, mən!
Musaq sənsən? Mənəm, mən!!.

Dərvişəm, kəşgülüm var,
Bağımda üç gülüm var.
Haqq yoluna çıxmışam,
Düzəlməz müşkülüm var!

Ağlayıram, gülürəm,
Uzaqlardan gəlirəm.
Çiçəklərin, quşların,
Dillərini bilirəm!
Bağ becərən bağbanam mən!
Həzrət Süleymanam mən!

Vətənim var, elim var,
Baldan şirin dilim var!
Nəğmə dolu ürəyim,
Şeir yazan əlim var!

Gözəllərin gözü gözəl,
Adı, sanı, özü gözəl.
Eşqi, nazı, qəmzəsi,
Dili, dişi, sözü gözəl.

Mən aşıq, tabım var,
İlhamım var, təbim var.
Loğmandan dərs almışam,
Zər dolu kitabım var.

Bu sazı alan gəlməz,
Alıban çalan gəlməz.
İgidi öldürsələr,
Dilinə yalan gəlməz.



Əzizim, söz yeri var,
Üzündə göz yeri var.
Məclisdə yerin tanı,
Hər kəsin öz yeri var.

Alma gözlü atım var,
Gün adlı saatım var!
Mənə hədyan söyləmə,
Əslim, köküm, zatım var!

Arazdan axmağım var,
Şimşəkdən çaxmağım var.
Öldürsələr, kəssələr,
O yara baxmağım var!

Qurtarmadıq talandan,
Gündə zurna çalandan?!
İlan vuran sağalar,
Kim sağalar yalandan?

# ETNOQRAFİK ETÜDLƏR

## NOVRUZ ŞEİRLƏRİ

### ÇİLLƏ ŞƏRQİSİ

Qabağı yazdır çillənin,
Ömrü azdır çillənin.
Yer bürünür ağ qara,
Təslim olur bahara.
Ağ bayraqlı Qış gedir,
Al bayraqlı Yaz gəlir!
Nağılçılar xoş gedir,
Ozan, aşıq, saz gəlir!
Böyük çillə çıxmamış,
Kiçik çillə gəlməmiş;
Boz Ay çapır atını,
Bilir qışın zatını.
Bənövşə açıb gəlib,
Yatağı torpaq olur;
Çiçəyi yarpaq olur!
Xan çobanın arzusu,
Gəlir qumral quzusu!
Yağış ruzu gətirir,
Novruz gəlib yetirir!
Qüvvət dolur qollara,
Ellər çıxır yollara;
Dürnaları gözləyir!
Bülbül gülü izləyir,
Şaxta, boran sovuşur!
Yer düzəldib qəddini,
Gözəl Yaza qovuşur!



### YAZA XİTAB

Novruz çıxıb taxtına,
Güllər düşüb baxtına.
Kosa gəlir qabağa,
Nəzər salır tabağa.
Çörəyi yoxdur Kosanın,
Xörəyi yoxdur Kosanın.
A Kosa, Kosa gəlsənə,
Torbanı doldursana!
Kosa döyür gözünü,
İtiribdir özünü.
Ocaq üstə sac qalıb,
Bütün qışı ac qalıb;
Torbasını uzadır,
Hamı bilir, qaydadır.
Kosaya pay verirlər,
Kosaya hay verirlər.
Boz Keçi – Saqqal Ağa,
Kosanı çəkir sağa,
Deyir doldur torbanı,
Söndür daha sobanı.
Sonra da gəl güləşək,
Dilimizlə yer eşək.
Kosa baxır keçiyə,
Ürəyinə xof düşür, –
Tez aradan sürüşür.
Keçiyə əl edərək.
Qarı Nənə gələrək,
Deyir Qışı ötürdük!
Gedib Yazı gətirdik!
Yaza çıxdı oğlağım,
Qış gözünə barmağım...
Qarının gəlir sözü
Keçinin çox xoşuna
Dövrə vurub – Novruzun
Dolanırlar başına!

## BÖYÜK ÇİLLƏ

Onun ömrü qırx gündür,
Payızın davamıdır.
Uzun qış əyyamıdır...
Qar səpir asta-asta,
Gülür tanışa, dosta.
Darıxdırmır heç kəsi,
Quyudan gəlir səsi.
Yorğan salır şum üstə,
Qarğalar dəstə-dəstə
Uçub yerə qonurlar,
Sanki qohumluğu var.
Qara qarğa gətirib
Dimdiyində ilk qarı.
Yolub yerə tökübdür
Ağacdan yarpaqları.
Ölmüş qurd-quş olubdur
Qarğaların yeməyi.
Qış öyrədib onlara:
"Qar-qar", "Qar-qar" deməyi.
Qarğa hara, qar hara?
Çox mahaldır, – deyirəm.
Ağ qar üstdə qarğalar
Qara xaldı, – deyirəm!
Ağ libasda düymə tək,
Parıldayır qarğalar!
Qar kəsəndə "qarr" deyə,
Qarıldayır qarğalar.
Sonu çatır çillənin,
Çaylar buz altda axır.
Qar getdimi, görməzsən,
Qarğalar yoxa çıxır.



## KİÇİK ÇİLLƏ

Böyük tufan başlayır
Böyük qardaş gedən tək.
Şaxta tüğyan eləyir;
Kollar yerə sinərək, –
Vıyıldayır küləklər
Budaqları əyərək.
Miyoldayır pişiklər
Bəzən gecə sübhəcən.
Yeri,göyü bürüyür
Dörd tərəfdən duman-çən.
Ocaqlar bərk qalanır,
Qazanda hədik bişir.
Pəncərələr açılmır,
Qapılar tamam şişir.
Küçə, bayır görünmür,
Aynalar naxış olur.
Heç bilmirsən, haradan,
Otağa soyuq dolur.
Kiçik qardaş zalım olur
Böyük qardaşdan yüz yol.
Başını da qaldırmır
Nə bir ağac, nə bir kol.
Dəliqanlıq eləyir
İki qat az ömrünü.
Tezcənə başa vurur
Yarıda öz ömrünü!

## XIDIR NƏBİ

Xıdır Nəbi bölərək
Az ömürlü çilləni,
Çırpır onun üzünə
Tərsinə bir silləni.
Deyir on gün bəsindir,
Qırıb-çatdın aləmi,

Sən qonaqsan, dünyanı
Dağıdarlar beləmi?
Qalan on gün mənimdir
Hər şey dönüb taxtaya.
Hansı canlı tab edər
Bu küləyə, şaxtaya?
Külək əsir, qoy əssin,
Qırılmasın ağaclar.
Qırılmasın meşələr,
Boş qalmasın yamaclar.
Yalquzağa qalmasın
Çöllər, düzlər, çəmənlər.
Evdə dustaq olmasın
Dehqanlar, yer əkənlər.
Qoyun-quzu qorxmadan
Çıxsın çölə, bayıra.
Kim qıyar insanları
İşdən, gücdən ayıra.
İş, həyat hərəkətdir,
Hərəkət – bərəkətdir.

## YEL BABA

Yel baba, dağıt çəni,
Qov dumanı çöllərdən.
Apar qarı, şaxtanı,
Bu soyuğu ellərdən.
Buludları parçala,
Qoy göy üzü görünsün.
Qışı çıxart dağ başına,
Qoy quzeyə sürünsün.
Günəş daim gülsün bizə,
Camalından nur tökülsün!
Dan ulduzu işıq saçsın,
Fəcir aydın, qoy sökülsün!
Gündüz günə boyansın,
Yer altında qarışqalar,



Çöldə quşlar oyansın.
Qoy açılsın bulaqların
Buz bağlamış göz qapağı.
Şırıldasın axan sular;
Qoy ərisin buz da, qar da.
Otlar çıxsın qar altından
Hər mahalda, hər diyarda.
Yer tərləsin, buğlar qalxsın
Topa-topa bulud kimi!
Səhər mehi sığal çəksin
Arzu kimi, umud kimi!
Çöl çağırsın, düz səsləsin
Körpələri qucağına.
Qoca Nənəm kösöv qoysun
Həyətdəki ocağına.
A Yel Baba, a Yel Baba,
Qoy çağlasın su-sel, Baba!

## QARININ BORCU

Yaz gəlmişdi, Qış getmişdi,
Gün çıxmışdı, ot bitmişdi.
Qarı Nənə sevinmişdi,
Oğlaqları Yaza çıxmış;
Yaz hələlik təzə gəlmiş,
Qış hələlik təzə çıxmış.
Qarı Nənə qarlı qışın
Qar kürkünü tullamışdı.
Arxasınca, dönməz deyə
Bir söyüş də yollamışdı:
– Yaza çıxdı oğlaqlarım,
Qış gözünə barmaqlarım...
Sən deməynən o qart qışın
Bir hiyləsi varmış hələ;
Bir fəsadı, bir tufanı,
Bir fitnəsi varmış hələ.
Qəlbi təmiz gözəl Yazdan

Tək üççə gün o borc almış.
Bu üç gündə çovğun salmış,
Görünməmiş tufan salmış, –
Şaxta salmış, boran salmış!
O sevimli oğlaqları
Çöldə tutub öldürmüşdü.
O, qarıya ibrət üçün
Öz zərbini bildirmişdi.
Çox yaxşı ki, Keçi hələ
Çıxmayıbmış o gün çölə.
Qarı nənə ağladıqca,
Deyirmiş ki, heç çəkmə qəm;
Qış üç oğlaq apardısa,
Mən beş oğlaq verəcəyəm!..
Yaz yolunda şəhid olmuş,
Üç çəpişin beş bacısı
Oynayaraq çıxdı çölə.
Qarı Nənə gülə-gülə
Dedi: "Get, get, ey qarlı qış,
Atdım sənin dalınca daş.
Üç oğlağım bil, beş olar,
Bir az keçər on beş olar.
Sən nə etdin söylə, mənə?
Ancaq pislik qaldı sənə.
Yaza çıxar oğlaqlarım,
Qış gözünə barmaqlarım!"

## BOZ AY

Gah bozarır, gah qızarır,
Gah qızarır, gah bozarır.
Günəş çıxır, tez də batır
Yazla-qışın arasında.
Hava meyxoş, hava sərin,
Qışla-Yazın arasında.
Bu nə qışdır, bu nə yazdır?
Soyuq çoxdur, isti azdır.



Günəş doğur, bəs Günəşin,
O istisi harda qalıb?
O həniri, hərarəti,
Yoxsa ondan qışmı alıb?
Soyuq, şaxta Yerə hopub
İşləmişdir iliyinə.
Şehlər dönüb qrov olub,
Səpələnib Yer üzünə!
Qar da, buz da yağış təkin,
Çisək təkin tez-tez yağır.
Qarı Nənə ətəyini
Bulud kimi tez-tez sıxır.
Qara bulud durulaşır,
Pambıq kimi dümağ olur.
Qara yağış – Ağ yağışa,
Yağa-yağa urcah olur.
Quşlar damı hasarından
Yuvasını sökür daha.
Ağacların kəlləsində
Yeni yuva tikir daha.
Qonur köhnə ovlağına,
Sanki çıxır yaylağına.
Hamı Yaza hazırlaşır,
Sığırçınlar qaqqıldaşır.
Durna köçü səmt götürür.
Karvan çəkib köhnə yurda!
Bülbüllər də tez-tez ötür
O qoruqda, bu qoruqda.
Boz Ay dönüb qızardıqca
Boz bülbüllər sarı olur.
İlk çiçəyi qoxlayan da
Bal toplayan arı olur!
Boz Ay Qışı sıxışdırır,
Yaza yeni yollar açır!
Qışdan sonra gələn Yaza
Çöllər geniş qollar açır.
Xonça tutub el-obalar,

Sanki Yazı izləyirmiş.
Düzlər boyu xalı sərmiş,
Sanki gəlin gözləyirmiş!

*Quba-Qusar, 1920-1921*

## DÖRDATLI YENİCƏ GÜN

*Novruz bayramı*

Minib dörd atını, çapır dördnala,
Düzlərdən, çöllərdən gəlir Yenicə gün![1]
Yelqanadlı, odürəkli, suüzlü,
Yolların bağrını dəlir, Yenicə gün!

Öldürür sazağı, qovur soyuğu,
Yaşıl xalı edir bağı, qoruğu.
Boy verib qaldırır nazik çubuğu,
Dağlardan, sellərdən gəlir Yenicə gün!
Torpağa çatınca toxtayır bir az,
Arxada qarlı qış, öndə güllü yaz.
Göyərmiş bənövşə, ləçəyi ətlas,
Qrovu, qarını silir Yenicə gün!
Bu torpaq cövhərdir başdan, binadan,
Nə atadan olub, nə də anadan.
Asılı qalıbdır ulu səmadan.
Ətirli güllərdən gəlir, Yenicə gün!

Qardan, buzdan çıxan nərgizlərə bax,
Rəngindən qan daman o qızlara bax!
Yerə həsrət çəkən yıldızlara bax!
Cocuq gözlərində gülür Yenicə gün!
İstəyi, amalı ox ucundadır!
Gücü Yel gücündə, sel gücündədir!
Yerin xəbər alsan Qız bürcündədir,
Özünü Günə tən bilir Yenicə gün!

*Gəncə, 1919*

[1] "Yenicə gün" şairin təsvirində "Yencə gün" kimi oxunmalıdır (*Tərtibçi*).



## DÖRD ÇƏRŞƏNBƏ

### *BİRİNCİ ÇƏRŞƏNBƏ*

Açıldı hava,
Qurtardı dava.
Getdi qış,
Gəldi yaz.
Doğdu Günəş,
Bitdi ayaz.
Çölə çıxdı
Qoyun-quzu.
Güldü yenə
Göyün üzü;
Güldü yenə
Yerin üzü.
Düzlər yenə çiçək açdı,
Günəş qovdu, soyuq qaçdı.
Soyuq qarla isti Günəş
Yazda Qışın davasıdır.
Görən deyir:
– Üzə dəyən
Meyxoş meh də
Gözəl Yazın havasıdır!

### *İKİNCİ ÇƏRŞƏNBƏ*

Bulaqların gözü açıq,
Ormanların üzü açıq;
Durnalardır uçub gələn
Qaqqıldaşa-qaqqıldaşa!
Çaylar axır dəryalara
Şaqqıldaşa, şaqqıldaşa!
Duman qalxır göyə doğru
Meşələrin nəzərindən.
Buzlar düşür parça-parça

Şüşələrin üzərindən.
Puçurlayır yavaş-yavaş
Ağaclarm budaqları.
Mehdən əsir həzin-həzin
Gül-çiçəyin yarpaqları!
Dərədə sel qıjıldayır,
Şən arılar vızıldayır.
Hər yandan xoş avaz gəlir,
Sular deyir: Yaz.., Yaz gəlir!

### *ÜÇÜNCÜ ÇƏRŞƏNBƏ*

Torpağa bax, torpağa,
Sanki qalxır ayağa.
Buxarlamr nəfəsi,
Oyanıbdır həvəsi.
Qızıl öküz tərpənir,
Torpaq sanki dillənir:
Çəmənim harda qaldı?
Səmənim harda qaldı?
Getdi qarlı yorğanım,
Getdi çənim, dumanım!
Gəlsin xalı-xalçalar,
Yollar boyu yoncalar.
Qoy bağ olsun, əkin olsun,
Mənim ana qucağım!
Səpin olsun, biçin olsun,
Gülsün hər bir bucağım!..

### *DÖRDÜNCÜ ÇƏRŞƏNBƏ*

Mən oddan yaranmışam,
Oddur südüm, nəfəsim.
Od rənginə boyanmışam,
Oddur gücüm, oddur səsim!



Taxılım da oddur mənim,
Oddur gülüm, çəmənim!
Qaynar sular canımdadır,
Vulkanları qanımdadır!
Ömrüm, günüm odda yaşar,
Meyvələrim oda oxşar.
Odlar mənim hakimimdir,
Mən odların hakimiyəm!
Babam oddur, anam oddur,
Odur ki, mən od kimiyəm!
Odsuz daşa oxşayardım,
Odsuz sonsuz yaşayardım!

# MÜXTƏLİF ƏSƏRLƏRİ

*Bu əsərlər əsasən şairin arxivindən, dövri mətbuatdan və sair qaynaqlardan alınmışdır.*

***Tərtibçi***

## MARŞ

Millətimin tarixinə
Şan-şöhrət əkməliyəm!
Bu qarşıda yad qalaya
Bir al bayraq dikməliyəm!

Düşmənlərə göstərdim ki,
Mənim kimi əsgəri yox.
Mənim qılınc vurmadığım
Dünyanın heç bir yeri yox!

İsmarladım nişanlıma –
Mən Turana gediyorum.
Qardaşımı qurtarmağa
Türküstana gediyorum!

Bayrağıma xain baxan
Xain gözə mən tikanam.
Vurulursam kölgəsində
Həlal olsun ona qanım!

Şəhid olsam dost elində
Mənə məzar qazılsın da!
Qazandığım yerin adı
Xaqanıma yazılsın da!

*Gəncə – Cavad*

*"Gənclər yurdu", 14 avqust, 1918*



## GƏNCƏYƏ İTHAF

FRAQMENTLƏR

Bərdədən çıxan karvnan,
Yürüyür ağır-ağır,
Yeriyir rəvan-rəvan,
Anam, Gəncəyə sarı!
Sonam, Gəncəyə sarı!

Beş il bağlarında gəzdim, əyləndim,
İçdikcə doymadım suyundan, Gəncə!
Sənsən salan bəni bu dadlı dərdə,
Boynumda borcun var, verimmi, Gəncə?!

Yaşıl bağlarının gül xiyabanı,
Cənnətdən də bil ki, yaxşıdır, Gəncə!
Güllərinin rəngi behiştdən dadlıdır, Gəncə!
Ey qayğılar görüb, günlər keçirən,
Haqqında dastanlar yazıla, Gəncə!

Yaşıl bağlarında gül xiyabanı,
Cənnətdən gözəldir, yaxşıdır, Gəncə!
Adına dastanlar yazıla, Gəncə!

## "VANKƏ"

Allaha yalvardım: "Ağ daş, qara daş,
Yalqızlıq çətindir, bana bir qardaş!"

Axund Mərhumun ruhu Sibirə,
Gedib bir Məryəmi salıbdır girə.
Nəhayət iş gəlib, çatıb bir yerə,
Qardaşın susamış qanıma, Vankə!

Peşiman oldum çox, bir az sonradan,
Göndərə bilmədim puldan, paradan.
İntiqam almağa qəlbi qaradan,
Yaxşıca calandı camma, Vankə!

Qarışdırdığımdan hesab-kitabı,
Çoxdandır çəkirdim vicdan əzabı.
Nəhayət çəkməyə haqqı-hesabı
Gəlmişdi bir gecə yanıma Vankə!

Allahın bəlası bir ağır yuxu,
Qoymadı göstərim ona var-yoxu.
Bölünməmiş qaldı şeylərin çoxu,
Bu, yaraşmaz mənim şanıma, Vankə!

Yoxsa da əlimdə tüfəng, tapancam,
Bu iş fənalığa bulurdu əncam.
Çox da ki, mən bu gün çılpağam, acam,
Sən məndən razı qal, yayınma, Vankə!

O qədər nanəcib deyilsən gerçək,
Təmizlədik evi, məscidə köçək.
Bu insanlıq nədir, sən ondan əl çək,
Ömründə mərhəmət tanıma, "Vankə"!

## QUQ-QULU-QU!

Quq-qulu-qu! xoruz ötər,
Bizə deyər, uyqu yetər.
Tənbəlləri sevməm əsla!
Haydı, gedin iş başına,
Qalxın artıq, yetər uyqu!

Rəncbər, qıra yollanmalı,
Çapa, sapan qollanmalı,
Əkmək lazım buğda, arpa,
Dünya bəklər səndən qida.
Quq-qulu-qu! Quq-qulu-qu!
Sabah oldu, yetər uyqu!



Zərif cocuq, xoruz dinlə,
Nə xoş ötər, şən ötər,
Başla deyir dərslərinə
Tənbəl olma, uyqu yetər.
Quq-qulu-qu!
Gün uyqusu, fəna uyqu!

*"Məktəb" 1912, 21 sentyabr*

## MİLLİ MARŞ

*(Azərbaycan Xalq Cümhuriyyətinin himni)*

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın
Şanlı Vətəni!
Səndən ötrü can verməyə,
Cümlə hazırız!
Səndən ötrü qan tökməyə
Cümlə qadiriz!
Üçrəngli bayrağınla
Məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu.
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan!
Sənə hər an can qurban!
Sənə bir çox məhəbbət
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən, şanlı Vətən,
Azərbaycan, Azərbaycan!

## DAĞLAR

*Dağıstan xatirəsi*

Dərdli sinəndəki əski cığırlar
İnsan izlərinə bənzər, a dağlar!
Bu ağır başlıca baxışın mənə
Qanlı əfsanələr söylər, a dağlar!

Oxunmaz olmuşdur daşlarda yazı,
Lal olub qalmışdır aşiqin sazı...
Gedərdi dərdimin bəlkə bir azı
Söylətsəydi səni bir ər, a dağlar!

Sinəndə hesabsız dastan düzülmüş,
Çox ahlar çəkilmiş, gözlər süzülmüş.
Yollarda bir aşiq yaman üzülmüş,
Dərdinə bir dərman istər, a dağlar!

Bir aşiq deyir ki: "Bilməm nədənsə,
Aşarkən karvanlar bir dağı kəsə;
Oxuyurdu qızlar verib səs-səsə,
Uzaqmı sürəcək səfər, a dağlar?!"

Eşitdim əskidən, bilmədim nerdə?
Çöldə bir karvanın qonduğu yerdə
Tutularaq bir qız bir adsız dərdə
Ağlarmış hər axşam, səhər, a dağlar!

Nerdən biləyim ki, çıxarkən yola,
Dedinmi onlara "Uğurlar ola!"
Sən söylə o coşqun türkə, moğola,
Artıq qara günlər yetər, a dağlar!

Mən dinləyim böylə, gəl nişan ver sən,
Altun ordulardan, igid ərlərdən.
Karvanlar qonuğu kölgəliklərdən
Kimlər gəlmiş, keçmiş kimlər, a dağlar?!



Hər keçən millətdən qalmış bir ulus,
Sonra vuruşmalar, qovğalar sonsuz.
Sən istərsən söylə, istər isən sus,
Bilirsən onları əzbər, a dağlar!

Keçərkən igidlər Kürdən, Arasdan,
Çıxardı sinəndə qılınclar pasdan;
İndi mən anlamam duyduğum yasdan
Çoxmudur onlardan əsər, a dağlar!?

Gördün çarpışırkən soylar, oymaqlar,
Oynardı göylərdə qanlı mizraqlar.
Sahibi qovğada ölmüş qısraqlar
Gördünmü nə yanıq kişnər, a dağlar?!

Qulaq verən bilir əski dastana,
İgidlər saldırıb hərə bir yana;
Boyandıqca hər il qarların qana
Nə canlar getmişdir hədər, a dağlar!

Keçiyorkən coşqun Elxan ordusu,
Duydumu ürəyin ölüm qorxusu?
Əyilməmiş başın, sözün doğrusu,
Əyilən yaşamaz, ölər, a dağlar!

Altun mədənimi bu yoxsul ölkə?
Nəyin saldırmışdır ərəbi türkə?
Yerli igidlərin səsidir bəlkə?
Qalmışdır qoynunda gurlar, a dağlar!

Keçənlər saygısız Samur çayını,
İgidlər əlindən aldı payını.
Ölənin, qalanın bilməm sayını,
Bəlkə sən verirsən xəbər, a dağlar!

"Qaf" deyə anarmış səni hər bəndə,
Sınarmış gücünü igidlər səndə;
Yetişmiş olsaydım o gün Dərbəndə
Bilərdim kimdədir hünər, a dağlar!

Pozulmuş qalalar, tökülmüş qanlar,
Yalçın qayalardan düşmüş insanlar;
Məzar daşlarında əski dastanlar,
Sən varkən şahidi neylər, a dağlar?!

Sabutay adında bir komandanı,
Göndərmişdi Qərbə göylər Xaqanı.
İgid əllərdəki moğol fərmanı,
Gördünmü nə qollar bükər, a dağlar!

İranın arslanı, Türkün hilalı,
Ürkütdu göyündə uçan qartalı.
Qanlı qarlar sənə düşmən çıxalı,
Görmədim üzünü gülər, a dağlar!

Bir gün gəldi, oldu imanın kamil,
Ki, qurtarır səni qəhrəman Şamil!
Fələk dedikləri sən deyən deyil,
Namərdlər dost yolu kəsər, a dağlar!

O zamandan sənin dərdlidir başın,
Ağlar görünürdü torpağın, daşın;
O dərdli günlərdə yoxdu yoldaşın,
Yalqızlıq ən böyük kədər, a dağlar!

Bu yaxın günlərdə qopdu bir tufan,
Devrildi ahınla qurulmuş divan!
Ən dar günündə də kim idi qoşan,
Kim idi sinəsi sipər, a dağlar?!

Gördüm qoynunda var yalqız məzarlar,
Nədir bu qəriblik, onlarda ki var?
Qərib türk üçünmü daşların ağlar,
Durmaz, göz yaşını tökər, a dağlar!

Titrək əllərilə ixtiyar ləzgi,
Bir misal söylədi, dedim: pək əski;
Yenisi başlandı, fəqət bitməz ki,
Nədir bu bitməyən cövhər, a dağlar?!



Nədir o qaynayan qəm baxışında,
Köylü qızlarının çatıq qaşında?
Bu darğınlıq nədir bu gənc yaşında?
Aç dərdli qəlbini, göstər, a dağlar!

*1920, 1 aprel,*
*"Qurtuluş" jurnalı*

## AZƏRBAYCAN, AZƏRBAYCAN

Dağlarının başı qarlı,
Sinəsi yaşıl ormanlı!
Dərələrin şirin barlı,
Azərbaycan! Azərbaycan!

Səhraların sünbüllüdür,
İl müdam üstü güllüdür!
Bağçaların bülbüllüdür,
Azərbaycan! Azərbaycan!

Durna gözlü bulaqların,
Cənnət kimi yaylaqların!
Geniş-geniş oymaqların,
Azərbaycan! Azərbaycan!

Ormanında maral gəzər,
Çöllərində ceyran süzər!
Göllərində qazlar üzər!
Azərbaycan! Azərbaycan!

İlxında ayğır kişnəşir!
Naxrında buğan güləşir!
Süründə əmlik mələşir!
Azərbaycan! Azərbaycan!

Qayaların əlvan mərmər!
Belində var qızıl kəmər!
Bir yanında Bəhri-Xəzər!
Azərbaycan! Azərbaycan!

Sinən odu şölə salır!
Dünya səndən işıq alır!
Verməyəndə, zülmət qalır!
Azərbaycan! Azərbaycan!

İpək, pambıq, yunun çoxdur!
Arpa, buğda, dügün çoxdur!
Hər şeyin var, nəyin yoxdur?!
Azərbaycan! Azərbaycan!

Yer üzündə yoxdur tayın!
Gur-gur axar neçə çayın!
Bol veribdir, fələk payın!
Azərbaycan! Azərbaycan!

Laçının var, tərlanın var!
Çoxlu şirin dastanın var!
Qorxun yoxdur, düşmanın var!
Azərbaycan! Azərbaycan!

*Gəncə, 1919*
*"Mahnılar" kitabından götürülmüşdür.*

## GƏNCƏM, HEY...

Bura Şahsevəndi, bura Bağmandı,
Bura Sərdar bağı, bura Ozandı!
Görənlər, bilənlər sana heyrandı!
Bəzənsin çöllərin, Gəncəm, Gəncəm, hey!..

Nizami gələrmi bir də cahana?!
Sənə oğul oldu, sən ona ana!
Neçə cahangirə, neçə arslana
Toy tutdu əllərin, Gəncəm, Gəncəm, hey!..

Sən Dədə Yedyarın yadigarısan!
Sınıq könüllərin payidarısan!



Yağının qənimi, dostun yarısan!
Söylənir fellərin, Gəncəm, Gəncəm, hey!..

Ziyadxan evləri cərgə-cərgədi,
Hər çinar qoynunda bir sərkərdədi!
Sazında, sözündə pərdə-pərdədi
Qovğalı illərin, Gəncəm, Gəncəm, hey!..

Üstünə gələnlər gəlməz özünə!
Bir başına döyər, bir də dizinə!
Ox kimi süzərək – xain gözünə
Sancılar millərin, Gəncəm, Gəncəm, hey!..

Mən nəyə söykənim, nəyə inanım!
Bir sana, tək sana gəlir gümanım!
Bu Cavad qalası dinim, imanım –
Açılsın güllərin, Gəncəm, Gəncəm, hey!..

Başının üstündə Ulduz-Ayın var!
Hər günü bir tarix ilin, ayın var!
O tay-bu tay axan Gəncə çayın var!
Car olub sellərin, Gəncəm, Gəncəm, hey!..

Keşiş ağlar qoydu Zəhra ananı!
Soldurdu, saraltdı o Natəvanı!
Əslin köçüb getdi, Kərəmin hanı?
Danışsın dillərin, Gəncəm, Gəncəm, hey!..

Düşmənim, inşallah, hər vaxt xar olar!
Gen dünya başına daim dar olar!
Necə ki sən varsan, Vətən var olar!
Var olsun ellərin, Gəncəm, Gəncəm, hey!..

*Gəncə, 1918*

## VOLQA ACLARINA

Gəlir Şimaldan bir aclıq səsi,
O bəxtsiz fəryadın yoxmu kimsəsi?
İdil boylarında yeni bir Tiran,
Minlərlə insana ağladıyor qan.
Bu qış həyatından qabarlı əllər,
Səadət yerinə əsiyor yellər...
Deyirlər çıxmayır kimsənin səsi.
Nə zəbanəsi, nə xoş nəğməsi...
İnsan yox, meydanda yaşayan kölgə,
Yürüyən ölüylə dolmuşdur ölkə.
Beşiklər nəşəsiz, qucaqlar boşdur,
Biçarə annələr candan olmuşdur.
Nə döşdə süd qalmış, nə qolda qüvvət,
Oxunur hər yerdə aclığa lənət!
Haqq üçün illərcə çar nişanları,
Canan yolundakı canfəşanları
Qəhr pəncəsində eyləmiş zəbun,
Qırılmış qanadı, qolu yoxsulun!
Biçarə annələr, biçarə qızlar...
Bu müdhiş qayğıya ürəklər sızlar.

İnsanlıq budurmu haqq üçün söylə,
O yanda Avropa dolmuş mey ilə?!
O yanda möhtəşəm krallar, şahlar!
Bu yanda göylərə dayanmış ahlar!

Bizim boynumuzda bir ağır pəncə,
Yaxır ruhumuzu dəhşət, işgəncə!
Bir yanda hakimdə böyük bir bolluq,
Bizim nəsibimiz aclıq, yoxsulluq!
Onlarda süzgündür sürməli gözlər,
Bizim ağzımızda qurumuş sözlər!
Hər yerdə küdurət, fəryad hər yerdə,
Qapansın istəməm, bu müdhiş pərdə...



## MASABƏYİNİN NİTQİ[1]

*ZARAFATYANA*

Şadlıq məclisləri tamam xeyirdi,
Hikmətdir, arzudur, sözdür, şeirdir.
Məclis dilə gəlib sanki deyirdi,
Məclisə – gülməyə qaçasan gərək!

Gülən göz görürsən hara baxırsan,
Çay kimi o səmtə sən də axırsan.
Özgə fərəhinə şərik çıxırsan,
Sevincə qoşulub uçasan gərək!

Şadlanmaq, oynamaq ustalıq istər!
Hünərin varsa da, utanma, göstər!
Sevinməyə bilməz istəyən kəslər,
Günəştək al şəfəq saçasan gərək!

Bir xeyri yoxdursa, yemək nə lazım?
Həmişə "ye" demək – xörək nə lazım?
Xörək xörəkdirsə, demək nə lazım?
Uzaqdan görəndə acasan gərək!

Qəmdə də gəl qəmə dikmə gözünü,
Yaxına buraxma, saxla özünü!
Nəinki sevinci, sevinc sözünü
Bağrına basasan, qucasan gərək!

Göz yolda qalmadı, qulaq da səsdə,
Yığılıb başına dost dəstə-dəstə!
Hamı sənə baxır, məclis arəstə,
Qaydadır, məclisi açasan gərək!

[1] Deyirlər, yaxşı masabəyi olan şair həmişə məclisi bu sözlərlə açarmış (*Tərtibçi*).

## VƏTƏNDAŞ

Fəlakət qayğısı çəkər başına,
Kim ki yardım etməz öz qardaşına.
Qonşuda göz yaşı və aclıq dərdi,
Yardıma borcludur hər insan fərdi.

Sən bəkləmə hər şey fələkdən olsun!
Çox olsun, az olsun, ürəkdən olsun!
Sənin də qəlbində bir alov yansın,
Sənin də borcun var, sən də insansan.

Çünki Volqa boyu nə var sənindir!
O ac qalan, o insanlar sənindir!
Düzülmüş yollara aclar karvanı,
Karvanla bərabər ağlar, sənindir!

Yaxın gəl, yaxınsan, uzaqdan baxma,
O göz yaşları ki axar, sənindir!
Vətəndaş, şərik ol onun dərdinə,
O göz ki yollara baxar, sənindir!

*Qusar, 1920, 1 avqust*

## AĞLAYIRDIM, GÜLÜRƏM!

Arkadaşlar, dörd yanıma baxdıqca,
Ağlayırdım, ağlayırdı irmaqlar!
Yurd oğlunun göz yaşları axdıqca,
Ağlayırdım, ağlayırdı topraqlar!

Bir əl mənim boğazımı sıxırdı,
Yol verməzdi deyəm-güləm, danışam.
Gözüm yaşı sular kimi axırdı,
Yurd oğluyla qoymaz idi tanışam.



Qoca yigit ulusumun orucun,
Göz önündə sasıq[1] əllər kəsdikcə;
Axırdı mənim də üzə göz yaşım,
Ağlayırdım, düşgünləri gördükcə!

Ağlamaqda çox az idi yoldaşım,
Oyatsızlar[2] bizə dəli deyərdi.
Qaçar idi məndən bütün tanışım,
Çıldır-çıldır baxıb mənə gülərdi!

Şimdi isə dəyişildi həp işlər,
Onda baxıb bizə dəli deyənlər
Görürlər ki, başqalaşmış gedişlər.
Mən gülürəm, gülür bizə gülənlər!

Ay yurd oğlu, ağlayanlar keçəndə
İstər idi bu gün səni güldürsün!
Sarı yüzlü daydular[3] gör sən də,
Qoyma bir də işığını söndürsün!

Əsirgədi bu gün səni yaradan,
Öz yurdunu verdi sənin əlinə!
Daydular çıxartmısan aradan,
Saqın, bir də sataşmasın gözünə!

Göstərməsən bundan sonra sən ərlik,
Beş gün çəkməz yurdun-yuvan dağılar!
Qardaş kimi eyləməsən həp birlik,
Yenə girər torpağına yağılar!

*"Azərbaycan", 6 aprel, 1920, №68*

[1] Sasıq – murdar, çirkin
[2] Oyat – insan
[3] Daydu – hiyləgər, şarlatan

## AZƏRBAYCANA

Coşmuşdu yürəgim, şişmişdi başım,
Zülmkar olmusan, axıdıb yaşım!
Ey gözəl Vətənim, ey dağım-daşım,
Bir sazım olsaydı söylərdim sana!

Nə gücdür ayrılıq, doymamış yardan,
Artırdı dərdimi hər keçən karvan!
Duysaydım səsini bir yanıq tardan,
Bilməzsən nə söylər, neylərdim sana!

Boğar dəryasından bir qoşun səsi,
Söylər ki, könlünün yoxmu gecəsi?
Sənsiz ki, ilhamın gəlməz nəfəsi,
Gəlsəydi, şairlik eylərdim sana!

Kəsmişdi yolumu keçilməz dağlar,
Bənimlə bərabər ormanlar ağlar!
Ey göz işlədikcə görünən bağlar,
Əhd ilə bir salam göndərdim sana!

*Gəncə, 1920*

## YARLINQAC

Ala gözlü, qumral saçlı, altı-yeddi yaşında,
İçin-için ağlayırdı bir qız soqat başında.
İnrəmişdi[1], sızlamışdı, çıxmaz idi davuşu[2]
Bir arliyi anladırdı bəni, bənizi, görünüşü.
Yaxa açıq, yalın ayaq, yürüncəksiz, yalanqaç[3],
Əl açaraq ötənlərdən umar idi yarlınqaç[4].
Ona-buna yalınmaqdı[5] gecə-gündüz vərdişi,

[1] İnrənmək – sızıldamaq, zarıldamaq
[2] Davuş – səs
[3] Yalanqaç – lüt
[4] Yarlınqaç – mərhəmət
[5] Yalınmaq – yalvarmaq



Acımazdı o sevgili yavrucığa bir kişi.
Şu yavlağı[1] görən kimi imləyici[2] bir qadın,
Göz yaşını sildi onun, sonra soruşdu adın.
Dedi: – Qızım, nerəlisən?
Dedi: – Yuvam dağılmış,
Üç gün olar qarnım acdır...
– Atan-anan nə olmuş?
– Atam-anam vardı, məni ərkələrdi, istərdi,
İkisi də gözlərinin bəbəyi tək bəslərdi.
Nə etməli, keççən ayda töküldülər yağılar,
Atamı da, anamı da göz önündə qırdılar.
– Kimlər idi qıldıqsızlar?
– Böylə işi kim edər?
Yarlınqaçsız, qan içici, qurt yovsunlu kişilər!
– Kimin, kimsən varmı, qızım?
– Tutan yoxdur əlimdən.
Bir kimsəni tanımıram, ayrılmışam elimdən.
– Yatacağın nə yerdədir?
– O ağacın altında!
– Ağacınmı dedin?
– Əvət, qaraqullar qoyarsa?
Uf! Nə acı gün keçirmiş bu sevgili göyərçin!
Bir körpəyə yararmı ki, ağlasın için-için?!
– Mənim qızım olarsanmı?
– Saxlar isən olaram!
İstər isən ana deyib sənə höyür salaram!
– Öylə isə, dur evimə, qızım, səni aparım.
– Evinəmi?
– Əvət, səni bu qarqudan qurtarım.
Gedək, qızım, gedək sənə yaxşı paltar alayım!
Yemək verib ərkələyim, sənə höyür salayım!

*"Azərbaycan"*
*13 aprel, 1920, №74*

[1] Yavlaq – uğursuz
[2] İmləyici – çarə edici

## İDİLBOYU ACLARI

Kimlərdir şu keçən səfil qafilə?
Ovurdlar çökmüş, gözlər batmış yas ilə.
Şu gənc qadın bir ay əvvəl gözəldi,
Əli tumbul, pənbə, zərif bir əldi.
Şimdisə quru gəmik, bir dəri,
Oxunur içində ölüm əsəri.
Əlindən tutduğu baxtsız yavrucuq,
Qarın şişkən, bacaq, qol, üz qavruq.
Bir qazalaq şimdi ötədə pürnur,
Qoşar alır, yalar, yalar, ovulur.

Bir qaç saat qaldı ancaq mərkəzə,
Orada baxarlar əlbəttə bizə.
Biz tam üç il bütün artan məhsulu
Verdik, qoruduq əsgəri, həm yoxsulu.
Bizim milyonlarla yoldaşımız var,
Onlar bizi məhəbbətlə qucaqlar.
Nə yapalım, yağmadı qətrə yağmur,
Dedi fəqət gətirdiyin heç fütur.
Bu cəbhənin də şəhidləri həm olur,
Bu uğurda ölənləri ad bulur...

Faciəyi görən gözüm yaşardı,
Volqa hissiz, mərhəmətsiz axardı.
Qəlbə tazə qüvvət ilə qafilə,
– Başında o mühib, vüqur əmələ.
Təvəkkül təkrar düzəldi yola,
Yardım gərək ta səfalət son bula.

*Ə.Cavad*
*"Kommunist", 1921, 4 iyul, №147*



## KÖLGƏM İLƏ MƏN

Bir gün bezdim, mən kölgəmə dedim ki:
– Bəsdir daha, əl götür bir yaxamdan!
Gecə-gündüz işin-peşən yoxmudur?
Çəkilməzsən bir dəqiqə arxamdan.
Uf dемərəm aylar-illər uzunu[1],
Mən görməsəm o mübarək üzünü!

Kölgəm dedi: – Ey vəfasız, səninlə
Bir saatda gəlmədikmi dünyaya?
Dadsız ömrü nə eylərdim? Əzəldən,
Mən səninçün düşmədimmi qovğaya?!

Eh, bilsən də, bilməsən də, eyniyik –
Mənə qalsa biz ayrılan deyilik.

*1921, 2 dekabr*

## ƏFƏNDİYƏ

Dəng eyləmə məni artıq qalmamış
Ehtiyacım cənnətinə, əfəndi!
Hanı səndən huri satın alanlar?
Onlar gəlsin xidmətinə, əfəndi!

İnan ki, bir başqa "əmma"sı yoxdur,
Şerimin büsbütün vicdanı aydın!
Eşqimin bir başqa "ima"sı yoxdur,
Onun haqqa tapan imanı aydın!

Hər yolun bulundu şəkki yəqini,
Nisyanla qarışıq hər kəsin dini.
Fəqət tozlanmamış onun çibini,
Var isə şerimin nisyanı, aydın!

[1] *Qeyd:* Əlyazmasında o misra belə getmişdir:
Arzulamam aylar-illər uzunu.

Baxsın bəsirətsiz gəlib keçənlər,
Doğrunun yerinə əyri seçənlər;
Bilsin bu haqq sözə kəfən biçənlər
Ki, mənim eşqimin Quranı aydın!

*Quba, 1922, 10 avqust*

## UŞAQLARIN ƏYLƏNMƏSİ ÜÇÜN

Toyuqlarım xoruzsuz,
Dərdinə qalmaq gərək.
Bir kilo buğda verib
Bir xoruz almaq gərək.
Qışda soyuq güc eylər,
Qutuya salmaq gərək. _
Sabah desin quqqulu qu,
Qalmasın səndə yuxu.

*1922*

## YENİ TÜRK ƏLİFBAÇILARA

Mən bir aşiqəm ki, bu çaldığım saz
Dumanlı dağlara səs salacaqdır.
Anlatdığım dildə inləyən avaz
Elin xatirində çox qalacaqdır!

Doğrayacaq səsim dağda dumanı,
Dinləyəcək məni dağın çobanı!
O mənim sorduğum "sevdiyim hanı?"
Təbiət dəyişib, yaz olacaqdır!

Qorxutmayır məni bu yanmayanlar,
İsrafil surundan oyanmayanlar!
Göstərdiyim yola inanmayanlar
Yenilik yolunda ad alacaqdır!



Mən şahid tuturam ayı, yıldızı,
Ayılacaq yurdun oğulu, qızı;
O yankı ellərin özbək, qırğızı,
Bu yeni dərgaha yol bulacaqdır!

*"Gələcək", oktyabr, 1922, №1*

## TARİXİ-MÜQƏDDƏS

Yıldızlı şıq qabı,
Parçalanmış kitabı, -
Ay altında dun gecə
Dəli bir dərviş kibi,
Mumu sönmüş, rehləsi yerə devrilmiş kibi,
Oxudum saatlarca.

Yıldızlı şıq qabın
Parçalanmış qoynunda o yuxlayan kitabın
Çevirdikcə kif qoxan hər sarı torpağını
Sanki eşiyorum bir məzar toprağını.
İncə əl yazıları canlandı bir-bir,
Masallarda cızılan yüzləri göstərdilər.

İblis bir yılan oldu. Adəm Həvvayə qaldı;
Qardaşını öldüron lənətli ruhi gördüm.
Qoca taxta bir gəmi ümmanlarda qalqaxdı.
Üfüqlərdə göyərçin bəkləyən Nuhi gördüm;
İsmayılın topuğu qumdan çıxardı zəmzəm,
Nuri - Sinada Musa qaldırdı qollarını.

Əsasını vurunca yarıldı bəhri Qülzəm,
Buldu Bəni - İsrail Qüdsün yollarını!
Zəkəriya zikrini
Bir sonsuz ahə verdi.
Doğru həpsi... bikrini
Məryəm Allaha verdi.

Qüreyi Məhəmmədə qucaq açdı Mədinə,
Bir atəş-məzar oldu Kərbəla Hüseyinə.

Səhifələr döndükcə bunlar həp birər-birər
Doğrulub duruldu.
Ay batdı, günəş doğdu,
Qəlbimdə atəş doğdu:
Yıldızlı şıq qabı,
Parçalanmış kitabı.
Varsın kümülsün deyə bir əbədi uyquya
Atdım kor bir quyuya.

Yazıq... yazıq bizə ki, əsrlərcə aldandıq!
Qaranlıqda cızılan izləri görmək üçün,
Görüb yüz sürtmək üçün.
Yazıq!.. Yazıq bizə ki, bir çıraq kibi yandıq!
Nə göydən çıraq gəldi, nə bir parça mərhəmət.
Çalışan əsirlərə Musa, İsa, Məhəmməd
Sadə bir sətir ilə bir vnotsubuxor verdi,
Masal[1] cənnətlərinin yollarını göstərdi.
Nə baş vaxtın əzanı, nə Anjelis çanları
Zəncirdən qurtarmadı yoxsul çalışanları.
Niyə biz kölələriz... Əfəndilərimiz var!
Niyə hər məlundan yusunlanmış bir divar,
"Əsir", "Əfəndi" deyə qoymuş da adlarını;
İki baxma ayırmış ərzin evladlarını.
Əfəndi işlətiyor, əsir işləyir yenə;
Yenə əfəndilərin gümüşlü süfrəsindən
Qar kibi əkməyindən, şərab dolu tasından;
Qırıntı, artıq belə düşməyir işləyənə!
Yenə biz əsir keçən hər günün axşamında
Evə sadə bir loğma əkmək gətiriyoruz.
Gecə yağmur inlərkən evimizin damında;
İsına bilmək üçün, günəş bəkləyir kimi,
Bir-birinə soxulan xasta köpəklər kibi
Yırtıq yorğanımızın altında titrəyiriz.

[1] Nağıl mənasında



Cüftümüz, sapanımız sonsuz çalışmamızla,
Əsrlərlə köksündə inləyən qazmamızla.
Həyəcana gəldi qara toprağın qəlbi,
Kəndini təslim edən tazə bir qadın kibi!
Dürlü-dürlü eyşlərlə doldu iştə hər ağac,
Fəqət ondan bir koku belə gəlməyir bizə.
Biz dilənçilər kibi gümülüb iczimizə;
Kəndi ağacımızın dibində ölürkən ac,
Əfəndilər göstərib sırıtan dişlərini
Birər-birər toplayır bütün yemişlərini.

Əfəndilər, ağalar, evliyalar, keşişlər!
Əbədi qaranlığın bu sönük qollarında.
Artıq təmiz ruhların aydınlıq yollarında,
Sadə bir din, bir qanun, bir həqq, işləyən dişlər!

*"Maarif və mədəniyyət",*
*fevral, 1923, №2*

## OLSUN QOY

Həyata gəldiyim andan bəlaya çarpıldım,
Alışdı qəmlərə könlüm, o yarım olsun qoy!
Sənin ki, eşqinə ruhum pərəstiş eylərdi,
Fəqət dedin dəli ruhun şikarım olsun qoy!

Vəfalısan dedim, eşqin könlümdə bərkitdim,
Könül, yürək nə var aldın da, məhv olub bitdim.
Səninçün hər şeyi, həp kainatı tərk etdim,
Bu göz yaşında fəqət ixtiyarım olsun qoy!

Yalançı bir görnüş ay, günəş, bu yıldızlar,
Yalançı həp bu baxışlar, bu nazənin gözlər.
Yalan şu eşq, şu sevda, şu atəşin sözlər,
Bu sonda bari həqiqət şüarım olsun qoy!

Neçün bu cür mənə, Tanrım, bəlalı gün verdin,
Şu nazlı afətə vurğun cahana göndərdin?

Bu bahar eşqimi, yavrum, xəzanə döndərdin,
Bu dərdli günlərim, artıq baharım olsun qoy!

Nigari-xilqətə sordum: nədir bu mənalar?
Bu eşq, nalə, bu hicran, bu dadlı xülyalar?
Nədir həyata gülən bu dərin müəmmalar?
Götür bu pərdeyi bir aşikarım olsun qoy!

Dedi həyat özü ayrılıq, kədər, bir qəm,
Nə çarpıyorsa, həpsi bir yığın matəm.
Bu göz yaşında boğulmaqsa taleyi-aləm,
Mənim də göz yaşım hicran məzarım olsun qoy!

Bəşər həyata tapınmış, o bir yığın topraq,
Vücudi, varlığı yüz min bəlaya oynaq!
Bu gün varsa da, yarın kim bilir nələr olacaq?
Fəqət bu bir neçə söz yadigarım olsun qoy!

*"Maarif və mədəniyyət" məcmuəsi, 1923, №11*

## SƏNƏT QƏHRƏMANLARINA

Demişlərdi mənə: "Sən də bir şey yaz
Bu fənn ordusunun nəfərlərinə.
Öz yaşından böyük iş görənlərin
Bir afərin söylə hünərlərinə".
Məncə hər yazıdan daha parlaqdır
Kiçik dəmirçinin alnındakı tər.
Ey kiçik dəmirçi, duyduğun haqdır,
Çalış yurdun üçün özünü göstər.

Zamanı gəlmişdir, sıran yetişmiş,
Çalış qulluq elə bəşəriyyətə!
Göstərdiyin hünər, yaratdığın iş
Haqdan qüvvət alır, haqdan əlbəttə.

*1924*



## GÖY GÖL

Dumanlı dağların yaşıl qoynunda
Bulmuş gözəllikdə kamalı Göy göl!
Yaşıl kərdənbəndi gözəl boynunda,
Əks etmiş dağların camalı Göy göl!

Yayılmış şöhrətin Şərqə, Şimala,
Şairlər heyrandır səndəki hala.
Dumanlı dağlara gələn suala,
Bir cavab almamış soralı Göy göl!

Bulunmaz dünyada bənzərin bəlkə,
Zavvarın olmuşdur bir böyük ölkə.
Olaydı gönlümdə bir yaşıl kölgə,
Düşəydi sinənə yaralı, Göy göl!

Sənin gözəlliyin gəlməz ki, saya,
Qoynunda yer vardır yıldıza, aya.
Oldun sən onlara mehriban daya,
Fələk büsatını quralı, Göy göl!

Kəsin eyşi-nüşi, gələnlər susun,
Dumandan yorğanı, döşəyi – yosun.
Bir yorğun pəri var, bir az uyusun,
Uyusun dağların maralı Göy göl!

Zümrüd gözlərini görsünlər deyə,
Şamlar boy atmışdır, uzanmış göyə.
Keçmişdir onlara qəzəbin niyə,
Düşmüşlərdir səndən aralı, Göy göl?!

Dolanır başına göydə buludlar,
Bəzənmiş eşqinlə çiçəklər, otlar.
Öpər yanağından qurbanlar otlar,
Ayrılıq könlünün qıralı, Göy göl!

Bir sözün varmıdır əsən yellərə,
Sifariş etməyə uzaq ellərə?..
Yayılmış şöhrətin bütün dillərə,
Olursa, qoy olsun haralı, Göy göl!

*Göy göl, 1925*

* * *

Ey Göy gölüm,
Ey göy gülüm!
Qoy göyərib,
Qoy mən ölüm!

Assınlar məni!
Kəssinlər məni!
Qoy türmələrə
Bassınlar məni!

Neynirəm könlü?
Neynirəm dili?
Səndən yazmasam
Neynirəm əli?!

Nəsən, kimsən sən?
Nisgilimsən sən!
Qoy açıq deyim,
Sevgilimsən sən!

Borana düşdüm,
Yüz qana düşdüm!
Adını çəkdim,
Zindana düşdüm!

Könlüm tel olsun!
Yaşım sel olsun!
Bu dar qəfəs də
Qoy Göy göl olsun!..

*Bakı, 1925*



## FÜZULİ

Üfüqlərdə günəş söndü bir axşam çağı,
Çox uğursuz bir qaranlıq çökdü dünyaya;
Görüncə ki, sönməkdədir sənət ocağı,
O yalvardı, həm sığındı "təbi-vala"ya;
Öz kimsəsiz torpağına baxdı Füzuli,
Bir sönməyən şimşək oldu, çaxdı Füzuli!

Çulğamışkən qonşuları şənlik, əyləncə,
Susmuş idi doğma yurdun söhbəti, sazı...
Ağ saqqallı hər qocaya, sevdalı gəncə
Öyrədənlər çoxalmış "razi-niyaz"ı;
El dərdinin dərmanını buldu Füzuli,
Onunçündür böyük şair oldu Füzuli!

Çəkmək üçün o boşluğa yeni bir pərdə,
İş qalmışdı bir sevimli, parlaq ulduza.
Elmi ürfan qazanmağa getdiyi yerdə
Əsir oldu, aşiq oldu bir qumral qıza!
İlhamını o qumraldan aldı Füzuli,
Susmuş elə bir yeni səs saldı Füzuli!

Kömək etdi o coşquna bir gözəl pəri,
Ovutmağa dərdlərini qəm ölkəsində;
Gözəlliyə tapındığı o gündən bəri
Bir başqalıq duyulmaqda onun səsində;
Çox doğrudur, sevdiyindən yandı Füzuli!
Sevdiyindən dərdi də xoş sandı Füzuli!

Dörd yüz ildir tutulmuşdur bir adsız dərdə,
Ummaqdadır yalnız ondan dərdinə çara!
Dörd yüz ildir həmvətənim olan yerlərdə,
Hər bir sevən qozəl yazar sevgili yara!
Cam içilən əyaqçaya döndü Füzuli!
Şairlərə bir içim mey sundu Füzuli!

*1925*

## İŞÇİ

Dəmirdən qolların, daşdan duruşun,
Boğulmuş rənginlə, çəkic uruşun;
Boğunuq səsində canlanan vüqar,
Vüqarla gəziyor diyarbədiyar.

On beş il oldu, görənlər bilir,
Köhnə dünya bir gün yalanlar qusdu.
Milyonlarca xalqın susdu vicdam,
Əyrilər hayqırdı, doğrular susdu!

Ucaldı cəlladın əmrü-fərmanı,
Kəsilən başlarm töküldü qanı.
Dəyişdi hər şeyin əski mənası,
Qasırğalar çökdü, yıldırım çaxdı!

Çoxaldı dünyanın matəmi, yası,
Tanrılar dünyaya yenidən baxdı!

Döndü dumanlara yüksələn ahlar,
Eşqin matəmini dutdu günahkar!

Çoxdan çiçək görüb gülməyən çöllər,
Buzlu, qarlı çöllər bitirdi lalə!

Uğursuz bir qüvvət çöküb hər yerə,
Əlində bir suslu, qanlı piyalə!

Dərman zənn eyləyib düşdüyü dərdə,
Sevənlər də içdi, sevməyənlər də!

Varlının gəliri, xalqın ziyanı,
Birləşib ikisi – bir oldu adı!
Milyon insanların qusduğu qanı,
Beş-altı sərsəri içib doymadı!



Yıldırımlı bir səs, bir sıcaq nəfəs,
Söylədi dünyaya: "Daha bəsdir, bəs!.."
Bəşər dərdlərinin dərmanı birdir,
Doğru bir yol ancaq gələcəkdədir!..

*"Maarif və mədəniyyət",*
*1927, oktyabr-noyabr, №10-11*

## GƏLMİŞƏM PAMBIQLAR DİYARINDAN...

Gəlişim yaxındadır,
Pambıqlar diyarından;
Ağ donlu tarlalardan,
Salamlar gətirmişəm!
Ölkəmizdə su basan
Bir qarış yer qalmamış.
Bu il daha həvəslə,
Əkmişəm, bitirmişəm!
Mən bu günün Rüstəmi,
Yoxsulluq bir əjdaha.
Yıxaraq əjdahanı,
Çıxdım polad nərlərimlə!
Qoy görsün bütün dünya,
Qoy görsünlər bir daha!
Qoy mənə dost deyənlər,
Sevinsin hünərimlə!
Mən tarlada ər kimi
Çalışarkən, vuruşarkən;
Dostlarım çoxalırsa,
Düşmənim də var hələ.
Pambığımın hər şaxı
Düşmən gözünə tikan.
Sərhəddin xaricində
Bu dağlardan o yana
Göz dikənlər də vardır
Tarlamın ipəginə.

Onların həddi varsa,
Bir baxsmlar bu yana;
Əlimdəki dırmığı
Taxaram bəbəyinə!
Arxam sənə dayanmış
Yaxşı, yaman günümdə.
Alıyorlar mədənində
Çalışan işçi yoldaş.
Kimdən qorxum var mənim?
Sən var ikən ölkəmdə!
Ay mənə pul göstərən,
Bilikli fəhlə qardaş!

Mən bir xəbər deyirəm,
Yandı bir az ürəyim.
Dost ağzından eşitdim
Deyirlər "kəsirin var"...

## KÜR

"Mərcan suyu" qaynağın,
Ellər sənin oynağın,
Nə gözəldir yanağın,
Gəlin kimi baxan Kür!

Dünyanın ilk çağından,
Ərdahanın dağından,
Əski bürcün sağından
Çıxıb keçən, axan Kür!

"Alagöz"dən bu yana,
"Ağbaba"dan o yana,
Hey dayana-dayana
Gəzintiyə çıxan Kür!

Gürcücə "Matkovari",
Türklərin qədim yarı,



Gəzib bir çox diyarı,
Aşiqləri yaxan Kür!

Dinləyib hay-huyunu,
Çox içmişəm suyunu;
Beş vilayət boyunu,
Əndamına taxan Kür!

"Araqva"ya ol yoldaş,
"Alazan"la qucaqlaş,
"Araz"ı götür birbaş
Get Xəzərdə yıkan, Kür!

Get sallana-sallana,
Suyunda çimsin sona.
Girmə Tiflisdə qana,
Nə bir ləkə, nə qan, Kür!

Məğrur olma çox elə,
Ellərə bir şey söylə.
Ceyran çölündə belə
Qıvrılaraq çıxan Kür!

Gürcü, ləzgi, moğoldan,
Güc yığıb sağdan, soldan.
Sonra çıxınca yoldan,
Şimşək olub çaxan Kür!

Çatıb bəzən qaşını,
Bulayırsan başını;
Yığıb çölün daşını
Ölüm, barıt qoxan Kür!

"Qaraoğlan" düzündə,
Şimşək çaxar gözündə,
Nə duyulmaz sözündə,
Hey canından doyan Kür!

Yetişincə Muğana,
Başlayırsan talana.
Doydurdun bizi cana;
Öküz, kəhər yıxan Kür!

Heç başını bulama,
Get yolunla dolama.
Pambıqları bulama,
Çox çirklidir, çuxan, Kür!

Öt çəkinə-çəkinə,
Dəymə bostan ləkinə.
Girmə belə əkinə,
Əldə qalar yaxan, Kür!

Kür!
Dayan dur!
Bu doğrudur:
Ta qədimdən yanından
Bir çox karvanlar keçmiş,
Hinddən, Misirdən bəri
Hər kəs suyundan içmiş.
Ordular axıb gəlmiş
Nil çayından, Fəratdan.
Nüylərindən bənd almış
Qaçanlar Keçaratdan.
O qədər gəzmişdir ki,
Boyunca ulus-oymaq;
Dünyanın yaşından çox,
Nə mümkün onu saymaq!
Nə qurbanlar kəsilmiş
Yayılmışdır şöhrətin
Səndəki ərənlərə,
Ta əzəldən hər yerə!
Parlamışdır səninlə
Midiyanın tacü-taxtı,
Səndən ayrı düşüncə
Sönmüşdür onun baxtı.



Kahinlər axışından
Kəşf etmiş istiqbalı;
Çox zaman qışqırığın
Bildirmişdir zavalı.
Görünür ki, yunanlı
Saymış səni əjdaha.
Bir dəfə baxıb getmiş,
Gəlməmişdir bir daha.
Baxıb gülümsəmişsən
Romanın cəlalına,
İsgəndərin İranda
Görkəminə, halına;
At oynatdı nüyündə
Hər cahangir bir kərə,
Ərəb meydan oxudu,
Şövkətli qeysərlərə.
Bir gün gördün gözünlə,
Moğol dünyanı yıxdı.
Türkmənlər Mil çölündə
Ceyran ovuna çıxdı.
Gah şah gəldi, gah da çar,
Suyundan içdi getdi.
Hər gələn talan saldı,
Dağıtdı, keçdi getdi.
Hər cahangir bir dəfə,
Dırmandı Qaf dağına.
Bir çoxları qurşandı,
Simurğun sorağına.
Sən gördün at döşündə
Aylar, yıldızlar getdi.
Şirvanın bazarından
Nə gözəl qızlar getdi.
Yaxşı yadında qalmış,
Kim öldü, kim dirildi?
Hər gələn qanlı dinə
Nə qurbanlar verildi?
Lakin sən heç bir zaman,

Qalmadın axışından.
Heç bir şey duyulmadı
Dalğasız baxışından.
İnsanın ömrü kimi,
Axıb getdin dənizə.
Nə düşmənə "çər!" dedin,
Nə "can!" söylədin bizə.
Hər pozğun vermiş ordu
Keçən zaman yanından;
Yaralılar suyundan,
Sən onların qanından;
İçdikcə sezdirmədin
Ölkə kimin malıdır?
Suyun kimin haramı,
Kimlərin halalıdır?
Gülmədin, ağlamadın,
Sayğısız axıb keçdin,
Nəşəyə, göz yaşına,
Bir gözlə baxıb keçdin.
Sinən dolu xəzinə –
Heç bir kəsə vermədin;
Bağlara, bostanlara
Xeyir üçün girmədin.
Quldur kimi yeridin,
Bac aldın dağdan, daşdan;
Nə gülüşlərdən qaçdın,
Nə qorxdun qanlı yaşdan.

Kür!
Ey dəli Kür!
İşvəli Kür!
Artıq topla özünü,
Gəl qısa kəs sözünü.
Görmədinmi nədir sən
Devirdiyim tacları?
Bu sərkəş təbiətdən
Topladığım bacları?



Nə qorxum, nə də ürküm
Yoxdur çaydan, dənizdən;
Mənim nəşəli türküm
Qorxmaz dümandan, sisdən.

Bax məndəki qüvvətə –
Qarlı dağları yardım.
Hayqırıb təbiətə,
Yerin qoynuna vardım.

Gəzdiyim quyularda
Azğın cinləri boğdum.
Bu tilsimli diyarda
Qaranlıqları qovdum.

Bir səs duydum dərindən
Çıxdım Qaf yoxuşunu.
Zalımların əlindən
Qapdım Dövlət quşunu!

Qururam yeni həyat,
Mən hara, durmaq hara?
Quşlardan aldım qanad,
Şığıdım buludlara!

Qorxunu mən qaldırdım
Dövranın gərdişindən.
Çox qurbanlar saldırdım
Aslanların dişindən.

"Məndədir qüvvət" deyə
Mən söylədim ucadan;
Mən bağırdım fələyə:
"Buyur bu top, bu meydan!"

Bu gün dünya qovuşmuş
Haqq bağıran səsimdən,
Cahanın məzlumları
Feyz alır nəfəsimdən.

Möcüzələr yaradır
Alnımdakı qan-tərim,
Dünyanın hər yerində
Söylənməkdə hünərim.
Mən tərənnüm etdiyim
Əmək qəsidəsindən,
İdrak ilə vurduğum
Çəkicimin səsindən;
Çatlayır divarları
Qaranlıq zindanların;
Mənədir hər ümidi
Əzilmiş insanların!
Mən oldum ilkin quran
Dünyada düzgün əsas.
Mən yıxdım, mən devirdim,
Mən aldım gücdən qisas!

Mən artıq tək Kür deyil,
Dənizləri boğaram.
Məğrur olma çox, əyil,
Qudurdunmu qovaram.

Qul olarsan istəsəm,
Dırmaşarsan dağlara;
Gəzməzsən belə sərsəm,
Can verərsən bağlara!

Tutaraq cilovundan
Azdıra da bilərəm.
Bu gün qətlinə fərman
Yazdıra da bilərəm.

Əlimdədir cilovun,
Sıxaram çıxar suyun;
Sönər odun, alovun,
Qısalar uzun boyun.

Hər şeyini soyaraq
Püflərəm çırağını.



Məngənəyə qoyaraq
Çıxararam yağını.

Güvənmə çox qoluna,
Düş doğruca yoluna.
Sərsəm gəzmək yaramaz,
Peyin daşı, tarla qaz.

Çevir dəyirmanımı,
Salıb döy xırmanımı;
Qırxaraq qoyunumu,
Əyir, daha yunumu.

Dolaşıb dağı, daşı
Qatırım ol, yük daşı.
Əyil, Kürüm, əyil, keç!
Meydan sənin deyil, keç!

*Bakı, 18 aprel, 1930*

## PAMBIQ DASTANI

Oxuyurdu tarlada
Kolxozun gözəl qızı:
"Var olsun insanlığın
Beşguşəli yıldızı.

Yaşasın Şuraların
Şərəfli istiqlalı!
Yaşasın ölkəmizin
Bu pambıq istiqbalı.

Ölkəmiz cənnət oldu,
Pambığa bax, pambığa!
Bu tarlalar bizimdir,
Nə bəy vardır, nə ağa.

Aç, deyirəm aç, sənə,
Aç mənim ağ gülüm, hey!
Qış günündə qar kimi
Quşbaşı yağ, gülüm, hey!

Pambığın feyzindəndir,
Sarsıldı köhnə həyat.
Dünyaya örnək oldu
Kollektiv təsərrüfat.

Mən də qoşdum səsimi
Bu gəncliyin səsinə.
Belə bir dastan yazdım
Bu pambıq ölkəsinə.

Muğan, Mil çöllərində
Sallanır salxım-salxım;
Qaraoğlan ellərində
Camalına mən baxım.
Qarayazı düzündə
Çiçəkləp tabax-tabax.
Murovdağın dizində
Əndamına gəl bir bax!
Arazın qucağında
Naz calanır nazına.
Kürün hər bucağında
Qoşulmuş el yazına.
Təpələr çətəyində
Sallanır qəşəng-qəşəng.
Dağların ətəyində
Geyinin yaşıl ipək.
Gəncə, Şirvan, Qarabağ
Sevir bu gülyanağı;
Müxtəsər... yaxın, uzaq
Ellərimin qonağı.
Hər yerdə şuxluq yapar,
Bu gözəl nə yamandır;



Yıldızlara göz qırpar,
Aman Allah, amandır.
Bulaqlardan daha şən,
Buludlarla çəkişən;
Gülxətmiyə naz satan,
Yetən gülə söz atan;
Gördüm o şəhləvəndi
Məftun eyləmiş kəndi.
Şəhərlər heyranıdır,
Dəzgahlar qurbanıdır.

Kim aşiq olmaz hələ
Belə yosma gözələ?!
Yaşıl sağrı, başmaqlı,
Ağ bənizli, yaşmaqlı.
Hər zaman siması şən,
Gəlinlərə irişən,
Qızlara "gəl-gəl" deyən
Arançıya bir hiyən.
Yaşıl geyim, gül dodaq,
Dağlardakı qardan ağ,
Dişləri var – mirvarı,
Onun yanında sarı...
Əlləri tumbul-tumbul,
Dərdindən öl də qurtul.
Yanında mərmər bir heç,
Əsir olarsan tez-gec!
Çaylardakı ağ köpük
Yanında bir boz çöpük.
Saçlarına gəlincə
İpəkdən daha incə.
Çanı var süddən bəyaz,
Kasıbca boydan bir az.
Lakin əda, nə əda!
Darılmasın məbada!
Bir dəqiqə qoy gözdən,
Dönər verdiyi sözdən.

İtirər əməyini,
Acılar yeməyini;
Bir küsdümü barışmaz,
Xeyrə-şərə qarışmaz...

Bir gün dedim: "Gözəlim,
Sənin əslin haralı?
Hansı bağın gülüsən?
Hansı dağın maralı?

Kimlər öyrətmiş səni
Bu söhbətə, bu saza?
Can dayanmaz səndəki
Bu qəmzəyə, bu naza.

Günəşlərin altında
Qaralmazsan nədəndir?
Xəzan sənin bayramın,
Saralmazsan nədəndir?

Keçib gedən yolçunu
Öz yolundan eylərsən;
Qışın oğlan zamanı
Ağca masal söylərsən.

Gözləyir kolxozçular
Uğurlu yollarını.
Gizli, açıq düşmənin
Bağladın qollarını.

Nə yaman bir pərisən –
Sən gedincə bağlara,
Su səpildi yoluna,
Xəbər düşdü dağlara.

Bərəkətli ellərdə
Kölgəni sarqıladı;
Orda-burda keşikçin
Dal qılınc qarğıdalı.



Xəcalətdən utandı
Görüb çatma qaşını;
Darıya bax, darıya –
Dikdi yerə başını.

"Çıx yolumdan!" dedin sən
Boz yovşana, yarpıza.
Ümid verdin bir yandan,
Şamamaya, qarpıza.

Buğda: "buyur gəl!" dedi,
Bağ sənin, bostan sənin.
Arpa çaldı sazını,
Söylədi: "Dastan sənin".

Bu gün əmək əlilə
Cənnət olan Muğanda.
Yıldızlar heyran oldu
Sən şərəflə doğanda.

Kim deyir ki, əlindən
Sevda camı içmədik!
Sən Muğana gələli
Bizlər dağa köçmədik.

Dünən Mil çöllərində
İlanlar mələşirkən.
Bu nə sirdir: gəldin sən,
Gül açdı hər bir tikən?!

Bir qurdun yuvasıydı
Hər bir qoltuq, hər dərə.
Nə əfsun eylədin ki,
El yığıldı bir yerə?!

Bütün ellər xeyirli –
Varlı aranda qaldı.
Vaz keçib dağdan, daşdan,
Yer tutdu, yuva saldı.

Onlarda yoxkən əvvəl
Sevincin əlaməti,
Düzəldi birdən-birə
Qadınların qaməti.

Dılqır ələk, dılqır sac,
"Əlim xəmir, qarnım ac" –
Deyən yoxsulların sən
Dərdinə etdin əlac.

Gəlişin ölkəmizə
Bir uğurlu yol açdı.
Gül kimi yaslılardan
Çiçək, qızdırma qaçdı.

Hələ qulaqlarımda
Xışın xəstə nəğməsi.
Neylədin, sən gəlincə
Çıxmadı artıq səsi.

Yarıb yerin bağrını
Qəhrəman bir ər kimi.
Polad atlar tarlada
Gəzir qızmış nər kimi.

Şəkərdən daha dadlı
Daha şirin gülüşün;
Hansı nurlu yollardan
Ellərdəndir gəlişin?"

"Hindistanın bağlarından
Daşdım da gəldim.
Himalay dağlarından
Aşdım da gəldim!

Bu gün belə hindi get gəz,
Bax nə deyirlər:
Hindistanda adım "daras" –
Dillərdə əzbər.



Sərəndibdə qalmadım heç
Qaynar su içdim.
Hinddə nəfəs almadım heç
Bəhreynə keçdim.

Fironların zamanında
Əziz deyildim,
Lakin əsirlər yanında
Peşkəş edildim.[1]

Makedoniya kralları
Feyzimi buldu.
Adriatik kənarları
Oylağım oldu.

Yayılmışdı çox yerlərə
Uğursuz adı,
Asma adı,
Asma bağda bircə kərə
Gördüm Şəddadı.

Kefim üçün Neynavada
Xeylicə gəzdim;
O mədəni el-obada
Çox şeylər sezdim.

Bir gaözəllik gördüm deyə
Pərvazə gəldim.
Şeir, qəzəl dinləməyə
Şirazə gəldim!

Türküstanda çox dolaşıb
Ceyhuna çıxdım.
Uca dağlar, bellər aşıb
Seyhuna çıxdım.

[1] Herodotun rəvayətinə görə Misir Fironu Makedoniyaya hədiyyələr göndərdiyi zaman pambıqla bəzənmiş bir şey də göndərmişdi.

Sonra ötdüm Buxaraya
Bir nəfəs aldım;
Orda büründüm xaraya,
Qəznədə qaldım.

Hər ölkədə bir adım var:
Özbəkcə "paxta".
Sonra qırğızlar, kazaklar
Çağırdı "maxta".

Qədim zaman dolaşarkən
Maçin elində;
Adlanıldı "hoamien"
Çinli dilində.

Türküstanı addım-addım
Tutdum bəyaza.
Xarəzmə get, orda adım
"Amerkan qoza".

Bilməm, kimlər nə söyləmiş
Tarixdə alman cəngavər, çarpan.
Görüb məni bəhs eləmiş
"Ağac yunu"ndan[1].

Camalımın divanəsi
Yaponlar hətta.
Məst edərəm hər bir kəsi
Adım da "vatta".

Bir sorun ingilisdən
Nə sözdür "qofton"?
Bir səs gəlir hər dənizdən
Min bir çeşid ton.

Burda mənim gözəllərdən
Bir rəqibim yox.
Yanlış olmaz əgər desək
Rusca "xlopok".

[1] Almanca pambığa Die Baunbolla deyirlər. Ağac yunu mənasındadır.



* * *

Bir sasani şah məndən
Bilməm nə gördü?
Sözlərimi dinləmədən,
Qafqaza sürdü.

Qarşıladı Araz məni
Söhbətlə, sazla.
Mən Muğanda ondan bəri
Sallandım nazla.

Kürün ılıq qucağında
Yaslandım yerə.
Bu yurdun hər bucağında
Çəkildim dövrə.

Bəlkə əslim amerikalı,
Əndamım süddən;
Yaxud nəslim afrikalı,
Gəlmişəm hinddən.

Hər bir zaman əməkçilər
Çəkdi cəfamı;
Qədimlərdə veyl gəzənlər
Sürdü səfamı.

Lakin əsl yurdum mənim
Muğanla, Mildir.
Muğansız ki, mənim günüm
Bir gün deyildir.

İndi artıq bu çöllərə
Həvəslə girdim.
Qədir bilən bu ellərə
Varımı verdim.

Oylağımdır
Qarabağın çölləri!
Yaylağımdır
Qarayazı elləri!

Qaraoğlanda
Ağca günlər görmüşəm!
Mil çölündə
Çox səfalar sürmüşəm!

Sərin göllər,
Dərin çaylar keçmişəm.
Bulaqların
Gur suyundan içmişəm.

Mənim üçün
Kür baş vurur hər yerə,
Araz Məcnun olub
Düşüb çöllərə.

Dağlardakı
Coşqun sellər mənimdir,
Aranlarda
Çaylar, göllər mənimdir!

Günəş mənim,
Bahar mənim, yaz mənim;
Məclis mənim,
Söhbət mənim, saz mənim!

Dərman mənəm, dərd mənəm,
Şəhər mənəm, kənd mənəm.
Gəlinlərin adı var,
Toylarda şərbət mənəm.

Yoxsulun yoldaşıyam,
Rəncbərin sirdaşıyam;
Əməkçi xalq üçün mən
Bəzəklərin başıyam.

Mən bəzərəm yazları,
Çoxaldaram azları;
Aşıqlara ruh verib
Çaldıraram sazları.



Əkinçilər yarıyam,
İgidlər sərdarıyam;
Qızılın adı çıxmış,
Mən ondan yuxarıyam.

Naz satıram gümüşə,
O çaşmışdır bu işə;
Bir deyən yox, zavallı,
Nə düşürsən təşvişə?

Bir az əqli var isə,
Deyin çəkilsin misə.
Mən üzümü ağartdım,
Haqsızdır bir şey desə.

Dünən gördüm ipəyi,
Yerdən gedir ətəyi.
Onun fikri-zikri pul,
Mən güdmədim qəpiyi.

Görürsən bu kətəni,
Dəng eləyib yetəni.
Bizə tay olacaqmış
Bu çöllərin çətəni.

Fikirləşdim mən özüm,
Buna yoxdur bir sözüm.
Ancaq haqqa qalanda,
Ondan da toxdur gözüm.

Nə vurhavur, nə busat,
Gəlin buna içim and:
Geniş meydana çıxsam
Bir şey deyil brilyant.

Yığılsın yaqut, sədəf,
Düzülüb gəlsin səf-səf.
Kimin incisi çoxdur
Ona çalın zurna, dəf.

Hər kəsdə, hər yerdə mən,
Dərmanam çox dərdə mən,
Hər qurultay oldumu
Əyləşirəm dördə mən.

Yoxsulun yoldaşıyam,
Rəncbərin sirdaşıyam.
Əməkçi xalq üçün mən
Bəzəklərin başıyam!

De dərdini yazana,
Bu yollarda gəzənə.
Açıqdır mərmər sinəm,
Oğul istər qazana!

Adım pambıq, üzüm ağ,
Yay günündə canım sağ.
İndi dövran mənimdir,
Bəxtim ötgün, kefim çağ!

*Aprel, 1931*

## GÜRCÜSTAN

Mən ömrümün ən canlı,
Ən çılğın çağlarında;
Dolaşdım Gürcüstanın
Mamırlı dağlarında.

Seyrə çıxdım ilk əvvəl
Tiflisin yanlarında.
Dedilər ki, "durma, gəl,
Suram ormanlarında.

Qadın bir hökmdarın
Mazğallı bir bürcü var.
Bir issiz ormanların
Hər yerində gürcü var.



Qarşılar səni katso
Şən və gülər üzilə.
İçərsən bir içim su,
Gürcülərin özilə".

Çıxdım mən də yuxarı
Baxaraq çılğın Kürə.
Çıxdım dağlara sarı,
Dost izlər görə-görə.

Ruhum çiçəklər dərdi –
Nə həddi, nə hesabı;
Dadlı bir nəşə verdi
Kaxetyanın şərabı.

Axşamladıq bir dəfə
Rion çayı boyunda.
Əyləndim, baxdım kefə
Gürcülərin toyunda.

Yaxşı yadımda qalmış
Gah atlı, gah piyada;
Üç ay qədər bütün qış
Gəzdim Minqrelyada.

Görən bilir, Gürcüstan
Yosunlu bir diyardır.
Gürcüstanın can alan
Gözəllikləri vardır.

O zaman mən gəzərkən
Gürcüstan torpağında,
Qanlı bir ləkə gördüm
Çarlığın bayrağında.

Soruncа gürcülərdən
O sirrin mənasını,
Açdılar mənə birdən
Məmləkətin yasını.

Rion hayqırdı durdu;
Belə insanlıq olmaz.
Əcəl taxtını qurdu, –
“Ağlayan çox, gülən az”.

Aradan keçdi illər,
Çarın söndü çırağı.
Tarix etdi dərbədər
O qanlı təmtərağı.

Bu günlər gördüm bir də
Həmayilli Tiflisi.
İndi baxdım hər yerdə
Qayğısız yarın səsi.

İndi al bayrağmda
Nə ləkə, nə pas vardır.
Gürcüstan torpağında
Nə matəm, nə yas vardır.

Baxdım haman Gürcüstan
İndi çox başqalaşmış.
Dinccə axan bir çaydan
İldırımlar çaxarmış!

Çayların ağuşuna
Sığışmaz ildırımlar.
Dağların yoxuşuna
Dırmaşan işıqlar var.

Özüm gördüm, Zevançal
İşıq salır dörd yana.
Uğurlu, başqa bir hal
Gəlmişdir Gürcüstana.



## GƏLDİM

Yurdumun ördəyi, qazları vardır,
Ətrindən doyulmaz yazları vardır.
Söhbəti çox şirin sazları vardır,
Yarımın çəkilməz nazları vardır.
Mən bu gün gülləri dərməyə gəldim!
Yarımı dəzgahda görməyə gəldim!

Dünyadan qiymətli ölkəmin bağı,
Qızıldan daşları, ipək yaprağı;
Sevgili yurdumun odlu torpağı,
Üstündə yüksələn şanlı bayrağı, –
Mən onun telini hörməyə gəldim!
Yarımı tarlada görməyə gəldim!

Dağların başları güngörməz qardır,
Dağları aşanlar çox bəxtiyardır.
Göylərdə bu süzən sevgili yardır,
Ən uzaq yerlərdə dostlarım vardır!
Dost olan yerləri bilməyə gəldim,
Hər yerdə göz yaşı silməyə gəldim!

Getdiyim çox nurlu, uğurlu bir yol,
Ordumdan mən bilik topladım bol-bol.
Komandan əmr etdi: “Əsgər, hazır ol!”
Qırmızı arslanlar saydılar sağ-sol!
Mən yeni bir dünya qurmağa gəldim!
Komandan əmr etsə vurmağa gəldim!..

*1934, 24 noyabr*

## MƏN OLAYDIM

Bu sevincli günlərin,
Bu ellik düyünlərin,
Bu nəşəli toyların,
Bu artımlı boyların
Carçısı mən olaydım!

Bu sevimli fəsilin,
Bu canlanan nəsilin,
Bu şərəfli ordunun,
Bu işçilər yurdunun
Carçısı mən olaydım!

Bu uğurlu səhərin,
Bu dumanlı şəhərin,
Radiolu kəndlərin,
Arazdakı bəndlərin, –
Carçısı mən olaydım!

O ağ başlı sarvanın,
İpək saçlı tarlanın,
O qotazlı bağların,
Nazlı, sazlı bağların
Carçısı mən olaydım!

Dağlardakı yolların,
Yollardakı qolların,
Qollardakı qüvvətin,
Qüvvətdəki hikmətin
Carçısı mən olaydım!

Sönməyən yıldızların,
Göydə uçan qazların,
Yerdə qaçan şimşəyin,
Çirmənib əlləşməyin
Carçısı mən olaydım!

Bu səmimi səsimlə,
Sönməyən həvəsimlə,
Yanlış yoldan çəkib əl,
İndi yox, daha əvvəl
Firqədəki ərlərin,
Tarladakı nərlərin,
Bu şərəfli kitabın,
Uğurlu inqilabın



Carçısı mən olaydım!
Mən olaydım carçısı,
Bu sevincli günlərin!
Mən olaydım carçısı,
Bu ellik düyünlərin!

*15 iyun, 1934*

## GÖZÜNƏ DÖNDÜYÜM

Uğurlu günlərindir,
Yolların açıq, aydın.
Bu aydınlıq eşqini
Dünyalara sən yaydın!
Hey, nə gözəl boy atdın!
On beşi dünən saydın.
Yollarda yaxşı-yaxşı,
Göz, gözünə döndüyüm!
Yolundan əngəlləri,
Öz, gözünə döndüyüm!

Qüdrətinə heyrandır
Aləm əhli gerçəkdən,
On beş ildir seçilməz
Yapraqların ipəkdən.
Can dərmanı çıxarıb
Can qoruyan çiçəkdən
Canan sevən ətirlər
Çək, gözünə döndüyüm!
Tarlanı dönə-dönə
Ək, gözünə döndüyüm!

Gör necə tazələndi
Köhnə yurdun baharı.
Yağışı can payladı,
Dərman oldu saf qarı.
Sən qaldır gözlərini

Bundan daha yuxarı, –
Boşluqlarda bir körpü
Sal, gözünə döndüyüm!
Göylərdən doğru xəbər
Al, gözünə döndüyüm!

Göylərdə ildırımlar
Qorxudan saldı haray;
Çayların dəniz oldu,
Dənizlər kəsildi çay;
Baş əydi fərmanına
Topraqlar alay-alay, –
Deyildir gördüyün iş
Az, gözünə döndüyüm!
Mənzilə xeyli qalmış,
Qaz, gözünə döndüyüm!

Könüllərdə yandırdın
Sehrli çırağını;
Nə umulmaz yerlərdir,
Verirlər sorağını;
Daş dövrü yaşayanlar
Yolların irağını
Həsrətlə gözləyirlər,
Bax gözünə döndüyüm!
Sən bir ümid nurusan,
Çax, gözünə döndüyüm!

Beş-on il bundan əvvəl
Bir ilin sərt qışında;
Mən səni ilkin gördüm
Milyonlar axışında;
Yolçular nur arardı
İnamlı baxışında
O baxışın sirrini,
Aç, gözünə döndüyüm!
O sirri dünyalara
Saç, gözünə döndüyüm!



Qoy hələ düşmənlərin
Ləzzət alsın talandan.
İlişib bac istəsin
Yolda, izdə qalandan.
Sən bir göz ağardınca
İrişsinlər yalandan, –
Sözünü şaxdan söylə
Şırp, gözünə döndüyüm!
Yalan sözü yad başa
Çırp, gözünə döndüyüm!

Qoy qapatsın göyləri
Bacadan çıxan duman,
Dostların aydın görür:
– Kim yaxşıdır, kim yaman!
Fanar tutar yoluna
Tarixə düşmüş zaman, –
Köhnənin kəlləsinə
Vur, gözünə döndüyüm!
Görülməmiş bir dünya
Qur, gözünə döndüyüm!

*27 dekabr, 1935*

## AYLA GÜNƏŞ

Bir gün göydə gəzən ay,
Sallanan ay, süzən ay
On dördünə girərkən,
Bir axşam çıxdı erkən
Nurlu altun taz kimi,
Parladı almaz kimi.
Oğurlayıb bu qızı
Üfüq geydi qırmızı.
Buludlar da əyib baş,
Çəkildi yoldan yavaş.
Külək aldı sazını,

Çəkdi onun nazını.
Qucaqlaşınca ayla,
Dənizlər çaldı layla.
Ulduzlar alay-alay,
Dedilər: "xoş gəldin, ay!"
Ay sallandı, sallandı,
Hər yandan əl çalındı...

Bilməyən azdır ayı,
Lovğalıqda yox tayı.
"Mən çox qəşəngəm!" deyə,
Endirmədi kimsəyə.
"Yoxdur mənə göydə əş",
Deyərkən getdi sərkəş;
Üfüqdən süzdü keçdi,
Buluddan üzdü keçdi;
Yolları sancdı keçdi,
Fınxırdı yıldızlara:
"Mən hara, sizlər hara?
Qüdrətdən artıq payım,
Göylərdə yoxdur tayım.
Bu yarım-yaraşığım,
Bu axan saf işığım
Buludlara rəng verir,
Rənglərə ahəng verir.
Söhbətim var, sazım var,
Dözülməyən nazım var;
Salmayın haray-huray,
Mənə ay deyərlər, ay!"

Ayla kim eylədi bəhs
Yıldızlarda yoxdu səs;
Zöhrə dargın çırpındı,
Dan yıldızı qırpındı;
Külək coşdu çaldı nay,
Gördüm ki, çox azdı ay;
Dağlar hayqırdı yandı,
Səsdən günəş oyandı.



Durub baxdı uzaqdan,
Gördü ay keçir haqdan.
Düşündü: işıq məndən,
Bəzək-yaraşıq məndən;
"Aləm mənimdir" deyə
Bu başlamış səs-küyə.
Nankor imişsən vay-vay,
Gör sənə neylərəm, ay!

Gözünə döndüyüm gün,
Aya dərs vermək üçün;

"Baxarıq!" deyə-deyə,
Bir az, beş-on saniyə.

Əl vurub camalına,
Keçdi Yerin dalına.
İndi baxın siz aya,
Çaxmaq çaxın siz aya;
Göydə, geniş ölkədə,
Enib yatdı kölgədə.

*Bakı, 1936*

* * *

Mən Tuqayam, bir quşam,
Oynayıb yorulmuşam.
İstəməm yorğan-döşək,
Anamın qoynu göyçək.
Baxım onun gözünə,
Qulaq verim sözünə.
Mənə versin ağılı,
Çox söyləsin nağılı.

## SATİRİK-YUMORİSTİK ŞEİRLƏR VƏ HƏCVLƏRDƏN NÜMUNƏLƏR

### HƏCV

Özləri məhrumkən feyzi-ədəbdən,
Günahı bizlərdə görənlərə bax!
Parlayıb bir zaman, düşdülər dəbdən,
Bazara yeni mal verənlərə bax!

Hələ biri vardır, "kişidir, kişi",
Bərəldib gözünü, ağardıb dişi.
Yaxşıca tapılıb peşəsi, işi –
Bizim arxamızca hürənlərə bax!

Deyir yazdığınız, bu "nə həyatdır?"
Çömçəyə əl tutan, qoldur, qanaddır.
Dediyi kiflənmiş, fikri boyatdır,
Özünü irəli sürənlərə bax!

Dün biri haykırdı, çaldığım sazdır,
Xəzanım bulunmaz, günlərim yazdır.
Baxdım rəngi solğun, ruhu da azdır,
Dost-yad arasına girənlərə bax!

Deyir uçurursan "bizim dövləti",
Bu böyük binam, bu səltənəti.
Dolayıb əlinə bütün milləti
Xalqına yun corab hörənlərə bax!

Deyir talayıbsız bizim elləri,
Bomboş qoymusunuz böyük çölləri.
Metrdən uzundur – uzun dilləri,
Bağ, bostan becərib dərənlərə bax!



Arpasın bölənməz iki ulağın,
Qapı dalındadır uzun qulağı.
Daldada gizlənib, danos yazmağı,
Üzdə sinəsinə vuranlara bax!

Sağdan da, soldan da yüksəlir səslər,
Doğma qardaşına nifrinlər bəslər.
Cavidi, Cavadı sevməyən kəslər, –
Onların yerində duranlara bax!

Yazıb-pozduğunuz nədir sözünüz!
Bu bizim üzümüz, sizin üzünüz!
Gəlib nə yapdınız, deyin özünüz?
Sənət keşiyində duranlara bax!

Biz aydan arıyıq, sudan duruyuq!
Günəşin zərrəsi, haqqın nuruyuq!
Ona-buna baxıb, bulayıb quyruq,
Bizdən haqqı-hesab soranlara Bax!
Sənət keşiyində duranlara Bax!!.

*Bakı, 1929*

### İSFƏNDİYAR ÜÇÜN

Dedim, özüm gəlim, yağış qoymadı,
Köməkçindir yağış yağdıran, qardaş!
Nə qədər içdinsə, gözün doymadı,
Axırda açmısan restoran, qardaş!

İçib dodağından bol öpə-öpə,
Sonra da söykəyib başını küpə,
Aslana dönürsən, nə dağ, nə təpə?
Ərənlər camını dolduran, qardaş!

Hərdənbir endikcə papaq qulağa,
Lərzələr düşərmiş ata-ulağa.
Vuruşub, əlləşib, enib bulağa,
Mərdanə qarnını doyduran, qardaş!

Hərdəm ki, qıyarsan sən şirin cana,
Boyanır süfrələr qırmızı qana.
Keflәndikdә dönüb şiri-aslana,
Hər vuruşda on beş baş yaran qardaş!

Həmd olsun, son günlər canlandı işin,
Müzdün nəğdləndi, alırsan peşin.
Yamandır: qalmamış bir qırıq dişin,
Düşməz bir də ələ bu dövran, qardaş!

Gəlmişdi yenicə damağın dada,
Axşam gözləməsin, söylə arvada.
Nə varsa sandıqda, çuval, torbada,
Xərc elə sən İncil, sən Quran, qardaş!

Bir çox illər qaldıq əcəb avara,
Yalvara-yalvara hər vartazara;
İndi Allah versin bizim diyara,
Dolmuşdur çaxırla dağ-aran, qardaş!

Sifariş eləyib Məşhəd Cəmilə,
Dəvətnamə göndər İskəndərgilə.
Ehtimal, bu günlər Əmir də gələ,
Sən oyna, çoxlaşıb əl vuran, qardaş!

Allah nəsib etsə, bir gülə-gülə,
Səfər eyləyərdin yenə Göy gölə.
Bən bir dərviş olub düşmüşəm çölə,
Qalmamış halımı bir soran, qardaş!

*Qoytul, 1926*

## AĞAMİRİN TOYUNDA

Cırıldı qavallar, qırıldı tellər,
Toy elan edildi, yığıldı ellər.
Şəkidən, Gəncədən, Aran, Turandan,
Oynamaq yolunda keçdilər candan.



Seyid var, molla var, nə lazım falçı?!
Övladi-peyğəmbər tarçı, qavalçı!
Bu axşam dünyada başqadır əhval,
Qızışıb oynadı Ağamir, Camal...
Qalxdı İsmayıl bəy şiri-nər kimi,
Ürəkdən oynadı bir ləzgi həngi...
Mahmud bəyin bu gün uzanmış boyu,
Zati-mübarəki bəzəmiş toyu.
Oturmuşlar qoşa bir çəx qaynana,
Səkər maral kimi o yan-bu yana.
Maşallah, bizim gəlin, nə gəlin,
Düz iki şiəyə kəsdirdi kəbin.
Mahmud anasıyla bu gün xəlvəti,
Eşitdim eləyir düzgün söhbəti.
Toylarda nəşəsiz aşmayır işim,
Bəs şirin yeməkdən göynədi dişim.

## MƏSCİDDƏ MEYXANA

Eşitdim, tapıbsan bir gözəl peşə,
Təbrik eyləyirəm səni, can qardaş!
Deyirlər, giribsən bir yağlı işə,
Qoyubsan papağı indi yan, qardaş!

Qardaşım Əhmədxan, Əlxan ibni xan!
Eşitdim: Gəncədə açıbsan dükan.
Hayıf zəhmətinə, yoxdurmu zəkan:
Çaxır satarmı heç böylə xan, qardaş?!

Çaxır paylamaqda dəliyə, dincə,
Onun xam baxmaz zəhmətə, məncə.
Gör nə hala gəlib bəxtəvər Gəncə,
Görünür hər yerdə hey piyan, qardaş!

Kifayət etməyir məsciddə klub,
Ağzından-içinə meyxana dəlub.
Bax, bu günkü gündə biz bidin olub,
İçməkdə çıxartdıq "şərəf-şan", qardaş!

... Heyif ki, saqqala dən düşən vaxtda
Fələk gec çıxartdı səni bu taxta.
İndi çoxalmışdır sərin otaqda
Ömrünə dualar oxuyan, qardaş!

Göndər dostlarına, bir az da su qat!
Çarəsi qolaydır: azaldı sovqat.
Hilal Mamedovla Əliyev Fərhad,
Görmədilər bunda bir ziyan, qardaş!

Xislətin demokrat, özün xanzadə,
Demokratı keçdin həddən ziyadə.
Mənim sözlərimi saldıqca yada,
Bir az ehtiyatla gəl dolan, qardaş!

*Qoytul, 1926 iyul*

## ŞAİRƏ SATAŞDINSA

Eşitdim, dəyibdir külüngün daşa,
Balçılı qatırı çullayan qardaş!
Yedirib pulları yara-yoldaşa,
Bizə töhmət yazıb yollayan qardaş!

Dedim: fəlsəfəyə gəl vermə ürək,
Qalmayacaq bir gün damında dirək.
İndi axşam-sabah əlində kürək
At-eşşəyə zibil tullayan qardaş!

Korruq çəkdinmi ki, puldan-paradan,
Səs verdin axırda karvansaradan.
Yığdığını verib bir az sonradan,
Hücrədə burnunu sallayan qardaş!

Nə oldu əvvəlki o zərbü-şəstə?!
Başında saxlardı səni hər rəstə.
Gör axırda harda əturdun bəstə,
Kimlərdir gününü gülləyən, qardaş?!



Əvvəldən olmuşdun anbar müdiri,
Eylədin tərəqqi, sən kiri, kiri.
Təəccüb eylərəm: qalıbsan diri,
Sefullaya camış nallayan qardaş!

Axşam gec gəl evə, obaşdan da get,
Nə deyir bu işə şaqalad Məmməd?!
Get Zülfüqara bir ərzi-niyaz et,
Odur səni əvvəl ballayan, qardaş!..

Dəzgahın üstündə qucub dizini,
Bax, İskəndərbəyə satır bezini.
Tapmışdır o kişi həqqin izini,
Çöllünün kökünü kollayan qardaş!

Sataşdın şairə, yıxıldı damın,
Bəyənmədin bizi, qırıldı camın.
Tuf olsun zatına belə adamın.
Ki, olmuş gönünü zollayan qardaş!

## GƏNCƏLİ DOSTLARIMA

Aradı canımız qürbətdə yarı,
Könül arzulayır doğma diyarı.
Bu yay gəldim bizim dağlara sarı,
Dedim ki, keçirim yazı, müxtəsər.

Yığıldı ariflər, söz anlayanlar,
Dedim: daha getdi qüssə zəhrimar!
Yerim yaşıl dağlar, dost var, aşna var!
Xoş keçəcək çoxu, azı, müxtəsər!

Umdum ki, düşəcək əski gün yada,
Gəlintək gəzəcək məclisdə badə.
Zövqü həzz olacaq həddən ziyadə,
Oxunacaq şeir, yazı, müxtəsər!

Ancaq mənim ruhum sevgili Gəncə,
Görən kimi bizi başladı rəncə.
Burda könül qırmaq olub əyləncə,
Qalmadım bu yaydan razı, müxtəsər!

Bir gün zəmanənin şeyxi-nəjadı,
Qoydu boynumuza xudpəsənd adı.
Əlbət qohum üçün sorular yadı,
Çəkilməz ki, yadın nazı, müxtəsər.

Oldu əski hamam, əski tas yenə,
Ta birinci gündən başlandı "iynə".
Anlamadı dost nə, neştərləmək nə?!
Gördüm hoqqa asi qazı, müxtəsər!

Zövq alan bir dostum ədəbiyyatdan
Gah itdən dəm vurdu, gah da ki, atdan.
Xülasə, fərqimiz olmadı yaddan,
Ürkütdüm ördəyi, qazı, müxtəsər.

O qədər içdim ki, dişləmə çayı,
Bilinməz hesabı, tutulmaz sayı.
Xaloğlu, əmoğlu, bacoğlu, dayı...
Qupquru qurumuş tazı, müxtəsər!

Narzanın üstündə gündə bir kərə,
Köhlən dəvə kimi çökərdik yerə.
Başlardıq baxmağa "iyirmi birə",
Atmışdı söhbəti, sazı, müxtəsər!

Allahın nadanı, eşşək naşısı
Bir yerin ki, oldu dəstəbaşısı;
Qırılar şişəsi, sınar kaşısı,
Daha uzatmayın sözü, müxtəsər!

"Kişiyəm", deyərək yeddi-səkkizi,
Pulsuz görüb, qoyub qaçdılar bizi.
Gedərmi sinəmdən bu dərdin izi?!
Qaçdılar həm dazı, vazı, müxtəsər.



Cəbri-nəfs eylədim, yazdım yumuşaq,
Kişiyəm deməsin hər uşaq-muşaq.
Yaxşıdır bunlardan bir qatıqurşaq,
Laçın etmək olmaz bazı, müxtəsər!

*Slavyanka, 1928, 9 sentyabr*

## DOSTUM XANƏNDƏ ƏSGƏRƏ

*Bizi məclisdə qoyub*
*pul dalınca getməsi münasibətilə*

Əsgər, sən arifsən, fikrü zikrini,
Nə pula, dövlətə, nə də vara ver.
Dadlı səsindəki nazlı nəşəni
Sədaqətli dosta, gözəl yara ver!

Yığıldıq bir axşam aşina, yoldaş,
Dilxor etdin getdin dağıldıq obaş.
Sənə kim söylədi sənətkar, qardaş,
Nazı bizə, zövqü vartazara ver.

Əvvəl sərraf idin, yenə sərraf ol,
Saxla sifətini, təmiz ol, saf ol.
Ariflərdən sayıl, əhli-insaf ol,
Könlünü şairə, bir də tara ver.

Böylə düşmüş bizim işlər əzəldən,
Dostların zövq alır şerü qəzəldən;
Bizdə badə içdin bir gözəl əldən,
Çətin dərdimizə yetiş, çara ver!

Sən ki, anlayırsan ahı, ahəngi,
Qoşaşdır ahimlə ləhni-sarəngi;
Oynadaram sənə bir ləzgi həngi,
Bizə az kələk gəl, azca qara ver.

*Gəncə, 1933, 3 mart*

* * *

Başa bax, peysərə bax, vərdişə bax,
Yaxşı can bəsləmisən, can, a qazaq!
Sağdışı – ibn özüm, soldışı – ibni Nağıdır,
Zalımoğlu elə bil Daşkəsən yaylağıdır!

*1932, sentyabr*

*Bir neçə yerdə yaltaqlıq edib, yersiz olaraq əleyhimə gedən bir nəfərə dərs vermək üçün yazdım. Fəqət cavab yazmadı. Bən də gerisindən əl çəkdim.*

## QOCALIQDA YORĞALIQ

Gözüm aydın, qələm düşüb əlinə,
Həcv də yazırsan, mızmızı dostum!
Yerdə qanovları görə bilmirsən,
Sayırsan göylərdə ulduzu, dostum!

Yazdıq hökumətə, verdik ərzi-hal,
Kar, kor, lal var, dedik, əskikdir motal.
Bu günlər Gəncədən talağını al,
Bəlkə gətirdilər həm sizi, dostum.

Gəl əyri oturaq, düzgün danışaq,
Bu sınmış ayaqla necə qoşaşaq?!
Bizə nə tab eylər hər yetən uşaq?!
Meydana çağırma gəl bizi, dostum!

Bizdə qafiyə var: qılıncdan iti!
Qayçıyam: cıraram hurivəş çiti!
Sənə hardan çatdı şair bileti,
Görməmiş qafiyə, vız-vızı, dostum!

Yazırsan: əcdadın olmuşdur hacı...
Nə çıxsın, ay yazıq, kirdarın acı?
Mərd tutmaz əyyaşı, yalan leylacı,
Nanədən ayırmaz yarpızı, dostum!



Geysən də əyninə ipəkdən qəba,
Heç şişmə boş yerə, qabasan, qaba!
Neyləyəcək bir də rəhmətlik baba,
Babanın qalmışmı bir izi, dostum?!

O rəhmətliklər qoyub getmişlər səni,
Biz olub sancırsan gəlib-keçəni.
Heç xeyir tapmazsan, dindirmə məni,
Salarsan başına sal buzu, dostum!

Ayıbdır, yeyirsən çoxdan duz-çörək,
Tökərəm burnundan, qıraq dur görək!
Dayanmaz pəncəmdə – sümüyün kövrək,
İncitmə arvadı, baldızı, dostum!

Yəqin bil, ay hərif, oğlanam, oğlan,
Sən yüyür imana, sandığa bağlan.
Yay günü qaloş gey, qış günü buğlan,
Biz hələ görərik pəhrizi, dostum!

Yanımdan yavaş keç, deyiləm tayın,
Girməz qulağıma harayın-hayın!
Mən neyləyim: sənin qırıqdır yayın,
Saxlaya bilmədin bir qızı, dostum!

Mənə neyləyəcək quru vəlvələ?!
Barıtın qurtarmış, soğulmuş lülə...
İndi sənin yerin məsciddi, lələ,
Gedib hücrələrdə bük dizi, dostum!

Kişimi sayıldın, ay Məhəmmədxan?!
Görürsən yuxunda hər gecə xoxan.
Vəfasız bir dosta varmıdır baxan?
İpəyə tay tutma sən bezi dostum.

Tərlanam, uçmuşam qarlı dağlardan,
Məxmər yamaclardan, güllü bağlardan.
Utan yedirtdiyim kərə yağlardan,
Tutar səni, vardır gec-tezi, dostum!

Qəlbim, ürəyim də əmin ol safdır,
Neyləyim ki, fələk çox biinsafdır.
Sənin ki, türklüyün bir quru lafdır,
Çağırma heç türkü, qırğızı, dostum!

Ayğır olub indi dünənki daylar,
Adətdir, mürtədlər cənnət haraylar.
Təmizləməz səni dəryalar, çaylar,
Gəncənin gur axan kəhrizi, dostum!

Dostluğun yazdığın kağızdan bəlli,
Öyləmi verərlər dosta təsəlli?!
Dəyişmişdir tamam ayaqlı-əlli,
Sənin hər bir şeyin Təbrizi, dostum!

Heç şişmə, tanıyır səni arvad da,
Hansı qoçaqlığın qalmışdır yadda?
İgid idin ancaq Kərimabadda,
Gəzərdin-gözlərin qırmızı, dostum!

Mən gəldim, Gəncədə meydanın xali,
Təngə gəlmiş səndən bütün əhali.
Bari yaxşı saxla əhli-əyali,
Şənləndir bir evi, dəhlizi, dostum.

Bayanlı qız səni salınca bəndə,
Boyadın bığları, düşdün kəməndə.
Axsaya-axsaya gedirsən kəndə,
Sənin eşqin keçib saqqızı, dostum!

Ona neylədin ki, böylə tutaşdı?
Zülfüqar da sənə yaxşı sataşdı.
Deyir, hüzurunda itlər çataşdı,
Keçən mart ayının səkkizi, dostum!

Deyir, iş düzəldir, arvad alırsan,
Həm qazanır, həm də dərdə qalırsan.
Turan oğlunu da tora salırsan,
Kəsdirirsən çilə qarpızı, dostum!



Tərlan ovçu göydə didər turacı,
Kefin qalxmaz sənin, ay ibn hacı!
Ciblərin boş, ayaq topal, dil acı,
Ovçuluğun səndə yox izi, dostum!

*Gəncə, 1935, 10 may*

*Şerin sonunda şairin "Əlhac ibni hac Məhəmməd Ataşbəyə" qeydləri vardır.*

## HƏCV I

*(İxtisarla)*

Bəni saldın bu ağır dərdə...
Anam, bir də... bir də...
Ədə, xər ləhcəsinin varmı babandan xəbərin?
Qoy tüpürsün üzünə gorbagor olmuş pədərin!
Maşallah ki, danos verməkdə varmış hünərin,
Sənətin artmalı hər yerdə...

Ey... ağzındakı pəltək dilinə,
Yeni sənətlə gözəl xidmət edirsən elinə.
Ver bütün milləti, dostları fitnən felinə,
Kişisən xeyirdə yox, şərdə...
Bilmiyormu o bana sən nələr etdin də nələr!?
... Otura vayına hər şamü səhər.
Sən gəbər, bən ona tapmaqda varam yaxşıca ər,
Səni görrəm yeni bir ərdə...

Bən sənə neyləmişdim, a rəzil oğlu rəzil?
Bənim evladımı qoydun başaçıq, zarü səfil!
Barü gəl... o kosa saqqal ilə sil,
Bu zadı yeməmiş xər də...

Saldırıb şairi sən böylə dəmirdən qəfəsə,
Başı üstündən onun qoyma ki, bir quş da əsə!

İt ki, itdir bu böyüklükdə bir... yesə,
Utanar, səndə ki, yox tər də...

Bən bu gün məsləkim üstündə ölürsəm nə zərər?!
Məsləkli ölüm bil ki, o dünyaya dəyər!
Məqsədin qəhbəliyilən yaşamaqdırsa əgər,
Qazanarsan ki, bir az zər də...

## SƏLLALLAH
*(İxtisarla)*

... Sən seyid olasan, ətin də acı,
Bu öylə dərddir ki, yoxdur əlacı.
Soxasan gözünə təndiri, sacı,
Aşmaz yenə onun kari, səllallah!

Öyləsi vardır ki, çıxır minbərə,
Yol-ərkən öyrədir peyğəmbərlərə.
Düşüncə əlinə fürsət bir kərə,
Qoymaz qalsın kini, vari, səllallah!

Gəncədə seyid ki, hər şeydən çoxdur,
Az nəsil vardır ki: seyyidi yoxdur.
Hər kim ki, çolaqdır, bir az buruqdur,
Xızr olur, söndürür nari, səllallah!

Ancaq bənim dostum Kəblə Seyidəli,
Başqa seyidlərtək deyildir dəli.
Səxavət əhlidir, açıqdır əli,
Görübdür dövləti, vari, səllallah!

Ömründə əlinə almamış qumar,
Nə kart çəkər xəlvət, nə də nərd oynar.
Doğrudan, kişidə zühdü təqva var,
Alnında möhürün yeri, səllallah!



Bağda üzüm basar şaraphaşarap!
O sirkə üçündür, həqdir bu hesab.
Əmri-şərifində içməmiş şərab,
Tökülməmiş onun ari, səllallah!

Cavan günlərində anladı, qandı,
Kərbəlaya getdi, bərkidi andı.
Müxtəsər ki, dostum bir başqa candı,
Yazın gülü, qışın qarı, səllallah!

Deyirlər, yağ çəkib sünbülü bığa,
Gedib cavanlıqda nişanbazlığa.
Eyvanın altında cumubdu zığa,
Süzələnmiş evə sari, səllallah!

Bəzi dostlarımız edir ki, irad,
Ona çətin deyil dünyada heç zad.
Azdır bir kişiyə söz yox bir arvad,
Cəddi çağırtmışdır cari, səllallah!

Aranda dözməyib qarğa-quzğuna,
Çıxıb ki, Gəncədən yaylağa qona...
Birinci arvadı basıb furquna,
Saxlamış yanında yari, səllallah!

Mücaviri-iman, şeyxi-pürxətər,
Xəbər verdi bənə dostu İskəndər.
Var imiş aşnamın fikrində səfər,
Salamat gələydi bari, səllallah!

Çıxmadı İskəndər heç çəlpəşikdən,
Qumarda əl çəkməz bircə qəpikdən;
Ən yaxın dostuna döşər təpikdən,
Bizə şahin çıxmış sari, səllallah!

Şeyx var – şərrə qardaş, fitnəyə bacı,
Hamısı çəpkeçən, ətləri acı.
Hər nədən dəm vursan, onun leylacı,
Sevərlər növhəni... tari, səllallah!

Qanlı İsrafildir müridlərə xas,
Silinmiş, qalmamış ürəyində pas.
Deyirlər, o tapmış əvvəl asi-nas,
Seyidlərin yari cari, səllallah!

And olsun bağında bişən kababa,
Bağda çalışmağı gəlməz hesaba.
Fikir verib kişi dərsə, kitaba,
Bayraqların rəngi sari, səllallah!

Cəddi Rəsulillah yetsin dadına.
Çox şeylər söylənir onun adına.
Biz də yetək, o da öz muradına! –
Sevinsin qız, oğlan, qari, səllallah!

*Slavyanka, 1928, 25 iyul*



# HEKAYƏLƏR

# LEYLA

Onun ılıq və məhrəm baxışları mənə çox tanış gəlirdi. Bu qumral gözləri, uzun kirpikləri, çatılmış gərgin qaşları, indi xatırlaya bilmədiyim bir yerdə görmüşdüm. Çit fabrikasında minlərcə fırlanmaqda olan dəzgahların uğultusu, uzaqdan gələn mator taqqıltısı, nəhayət, on dəzgahı birdən idarə edən bu qadın, öylə münasib bir ahəng təşkil edirdi ki, bunları görən adamların qəlbi coşmaqda olan yeni həyatın sevincləri, yeni kainatın nəşələrilə dolurdu. Mavi köynəkli (gömləkli), al örtüklü, çevik hərəkətli qadınların sağlam vücudlu, dik başlı, gülərüzlü komsomolçularım, sonra bu maşınlardan daha cəld, daha canlı hərəkət edən yeni insanlara, yeni dünyanın yeni insanları olan bu gənc işçilərə rəhbərlik edən beş-altı ötgün yaşlı, çal başlı, baxışları əmniyyətlə dolu olan qoca işçilərin, ən nəhayət bütün bu hərəkətləri xeyirxah baxışilə təqib edən dost baxışı gənc mühəndislərin arasında yeni həyatın yaratmış olduğu bu ahəngi görüncə məndə də işçi olmaq bu mavi köynəklilər ordusunun şanlı bir nəfəri bulunmaq həvəsi oyanmaqda idi. Ürəyimin ən dərin guşəsində deyirəm: bu ordu doğrudan da dünyanı yenidən quracaq, həyatda həqiqətən yeni bir ahəng yaradacaqdır.

Bu səy və əməl təlaşları arasında siması mənə tanış gələn uzun boylu, münasib əndamlı qadın zehnimdə xüsusi bir yer tuturdu. Bir tərəfdən yeni dünyanı tikməkdə olan ustaların çəkic səsləri, o biri tərəfdən bu sevincli günlərin arzusilə oynamaqda olan minlərcə dükcələr içərisində sevinclərlə atılıb düşən çocuqlarına baxır kimi duran bu ılıq baxışlı qadının gur, qıvırcıq saçları dolğun üzündəki seyrək çopurları, boyasız dolğun dodaqları mənə nə qədər tanış gəlirdi. Lənət sənə kor şeytan!... Mən bu qumral qadını harada görmüşəm?

İş qurtarmış, gündəlik plan artıqlamasilə yerinə yetirilmişdi. Bu xəbər, bu planın ödənilməsi xəbəri indiyə qədər ciddi və qəti görünən üzlərə son dərəcə dadlı bir gülümsəmə, təbəssüm gətirdi. Yanımdakı çarxlara nəzarət edən qadınlar tanımaq istədiyim qumral gözlü qadının ətrafına toplandılar, ona əl verdilər, "Sağ ol, Leyla!" – dedilər.

Leyla!.. demək bunun da adı Leyla imiş. Ahənginə görə çox xoşuma gələn bu adı daşıyan bütün Leylalara hafizəmdə bir keçid rəsmi yapdırdım. Qızğın bir müharibə zamanında tanımadığı bir əsgərin qo-

çaqlığını görərək, rəsmi keçiddə onu arayan bir komandan kimi bütün Leylalara göz gəzdirdim, vardım düşündüm, düşündüm vardım. Lakin bugünkü qızğın istehsalat cəbhəsinin qəhrəmanı bu qumral qadını indiyə qədər tanıdığım Leylaların içərisində görə bilmədim.

İşdən çıxdıqdan sonra bu yeni Leylanın simasındakı soyuqqanlılıq, saflıq, təmizlik bunun illərdən bəri bu çarxların arasında yaşadığını hiss etdirir kimi olurdu. Zehnimin dərzisi bu qadına bir çox paltar geydirdi, daraqlar taxdısa da, bu ayağında səndəlı olan sadə geyinmiş bu qadın keçmişin zinətli paltar geyinən Leylalarının hamısından daha yaraşıqlı, daha gözəl görünürdü. Sürət ilə dəyişməkdə, yeniləşməkdə olan bu həyat mənim diqqətimi də dəyişdirmiş, yoxsa doğrudan da bu günün işgüzar, əməkçi qadını, tərbiyəçi və zərbəçi anası, dünənki həyatın qızıllı, manikürlü, pudralı (ənnikli) meşşan xanımlarından daha gözəlmidir?

Mən zehnimdə, məni köhnə həyata bağlamaq istəyən çürük xatirə bağlarını qırarkən artıq işçilərin gur axını, dostanə baxışları arasında küçəyə çıxmış idim. Birdən "Gəldi"... dedilər. Hər kəslə bərabər mən də aşağıya doğru vardım. Gəncənin, qızıl Gəncənin qırmızı donlu təzə gəlinlərindən birisi bizə doğru irəliləməkdə, işçilərin gözlərində bir sevinc əlamətləri parlamaqda idi. "Sağ ol, tramvay!"...

Biz üç nəfər idik, hərəmiz bir sexə getmişdik. Yoldaşlarım da çıxıb gəlmiş, "Qiyamətdir" deyə tramvay gözləyirdilər. Fabrikada bizi dərin bir hörmətlə qarşılamış olan firqəçi bir gənc, işçilərin önünə keçərək tramvayı göstərdi. "Buyurun" dedi. Yoldaşlarımla bərabər tramvaya çıxdım. Çox münasib bir yer tutdum. Sonra bir-birinin arxasınca işçilər tramvaya doluşdular. Onlardan bir qismi oturdu, bir qismi isə ayaq üstə dayanaraq qayışdan yapışdı. Bir təsadüf əsəri olaraq Leyla da tam mənim yanımda ayaq üstə durub yanındakı gənc qızla söhbət edirdi.

Yeni həyatın bu yeni qadınları heç kəsin qeybətini qırmırdı. Söhbət istehsalatdan, bu günkü planın ödənilməsindən düşmüşdü. Sarışın qız Leylaya: Yaşa Leyla!.. üzümüzü ağartdın, – deyirdi. Zehnimdəki tapmacanı həll etmək üçün əlimə düşən fürsətdən istifadə etdim. Ayağa qalxdım, "qəbul etməyəcək" qorxusilə, yerimi Leylaya təklif etdim. O, incə bir gülüşlə qarşılıq göstərərək bir münasib ahəng ilə göstərdiyim yerə əyləşdi və "Sizə zəhmət oldu", – dedi. Uzun təklifli işarələrə, cansıxıcı mərasimə heç bir ehtiyac duymadan mən də sadəcə "Yox" dedim.



* * *

"Bağışlayın!" müqəddiməsilə onun mənə tanış gəldiyini, lakin harada gördüyümü unutmuş olduğumu, anşırda bilmədiyimi ona söylədim. Leyla dostyanə bir təbəssümlə:

– Məni unutdunuzmu, – dedi. – Xanlığın qaravaşı Zeynəbi quyu başında, kəhrizdən su doldurarkən dərdləşdiyimiz Zeynəbi nə tez unutdunuz?

Aha!.. Zeynəb çocuqluğumun, yetimlik günlərimin yeganə dostu, təsəllisi olan Zeynəb! İyirmi il bundan əvvəl qorxaq, ürkək baxışları ilə ətrafı gözdən keçirib mənə dərdlərini, kədərlərini anladan, dərin bir səmimiyyət, umudsuz, yəs və donmuş ümidlərlə yetimlik təsirlərimi dinləyən, Zeynəb!..

Yazıçılar Cəmiyyətinin bədii briqadası üzvü kimi mən, nə qədər qafil adam imişəm?! Zeynəbi, iyirmi il bundan əvvəl cırıq jiletli, büzməli tumanı, sirkəli, qıvırcıq saçı ilə mənə dərd bacılığı, sirdaşlıq edən bu əsir və qaravaş qadını, bu Zeynəbi nə yaman unutmuşam!..

– Lakin Sizin adınız nə üçün "Leyla"ya çevrildiyini zehnimdə indiyə qədər həll edə bilməyirəm. Lütfən, bu sirri mənə anladın, – dedim.

İyirmi il bundan əvvəl, xanın oğlunun, xanın dargasının, xanın nökərinin çirkin söyüşlərinə və təhqirlərinə bir qurban kəsilərək küt bir təvəkkül ilə həyatın ağır çəkilməz yükünü daşıya-daşıya bugünkü sinfi şüura qədər yüksələn Zeynəb, yox Leyla, o qanlı günlərin xatirəsinə andırıcaq qorxunc və acı bir gülüşdən sonra:

– Qadınlar şöbəsi tərəfindən Gəncəyə Leyla adlı bir qadın gəlmişdi. İnqilabın ilk günləri idi. O, Leyla yalnız mənim çadramı deyil, gözlərimi də açdı. Xanın və xanımın mənimlə sinif düşmənləri olduqlarını isbat etdi, məni götürüb savad kursuna yazdırdı. Qadınlar klubunda qulluğa düzəltdi. Bir az savadlandıqdan sonra məni firqəyə cəlb etdi. İşçi fakültəsinə girib oxumağımı tapşırdı. Hasili (nəticəsi) gözümün önündə tamamilə yeni bir dünya, yeni bir kainat açmağa müvəffəq oldu. Mən də cırıq jiletli, kirli çarşaflı, sirkəli saçlı köhnə həyatın bütün tozlarını üzərimdən silib atmağa çalışdım. O, qara günlərdən əynimdə və zehnimdə heç bir şey buraxmamağa səy göstərdim. Bir azdan sonra yalnız köhnəlikdən adım Zeynəb qalmışdı. Bu da qalmasın dedim. Mənə ilk rəhbərlik edən sevimli qadının adını xeyirli bir əlamət kimi qəbul etdim. Ona görə də mənim bu günkü adım Leyladır, – dedi.

* * *

Mənim haqlarında şeir qoşduğum, dastan düzdüyüm dar gözlü, dar könüllü Leylalar, yeni həyatın bu yavrusu sizi əzəcək, əskiliyi xırpalayacaqdır. Çəkilin, yoldan!..

– Sizə uğurlar olsun, ey bu günün qəhrəman qadını olan yoldaş Leyla!..*

*"Şərq qadını" jurnalı, 1934, mart*

## İKİ DÜŞMƏN

İkidirdən Tiflisə gedirdim.

İçmiadizin stasionu önündə çalpapaq Məmmədəli arabanı saxladı. Hələ qatar gəlməmişdisə də içəridə bir izdiham, bir gurultu duyulurdu. Hər kəs bilet alıb da vaxtında kəndinə bir yer bulmağa hazırlaşırdı. Miniklərin böyük bir qismi boz şinelli vayennilərdən ibarət idi.

İkinci klass odasına vardım. Əfsərlərin və qeyri miniklərin bir tərəfə toplu olduqlarını gördüm. İrəli varıb bu qələbəliyin qara üzlü, iti gözlü, çöhrəsi çoxdan təraş edilməmiş, saqqal basmış bir osmanlı zabiti başında olduğunu gördüm. Əl və ayağı sarılı, dəyənəyinə yaslanmış oturuyordu.

Yanında gülərüzlü, lakin çox zəif görünən taza xəstəlikdən qalxmış bir poruçik qılınca yaslanmış oturuyordu. Xidmətçi çörəyi əsirin önünə çəkərək türkcə buna:

– Əfəndi, buyurun, yeyiniz. Şimdi şemandofer gələr, bunlara baxmayın, yoxsa ac qalarsınız – diyordu:

Əsir: – Təşəkkür edirəm, əfəndim, çox razıyam! – deyib, qara gözlərilə boz qalbaqın altından ətrafı seyr ediyordu. Eskəmlə aldım, müsaidə istəyib oturdum.

Əfsərlər əsirin başına yığışıb, hərə türkcə bildiyi qədər sualda bulunuyordu və anlatdığı surətdə müvəffəqiyyətdən çox şad oluyordu.

Yarayi nişan verərək qırıq türkcə ilə:

---

* *Qeyd:* Hekayələrin üzü köçürülərkən onun dilinə, üslubuna, imlasına, sərf və nəhvinə toxunulmamışdır (*Tərtibçi*).



– İfindi, bu yaqşı? – deyə soruyor, o da təmənna edərək:

– Təşəkkür, daha eyidir! – deyə cavab veriyor. Cavan praporşik əsirin rütbəsini bilmək marağında olub və əlilə kəndi omuzunu göstərərək:

– İfindi, son kto (kim), mülazim?

Əsir sualı anlayıb:

– Xayır, tabor komandanı! Batalyonmu deyirsiniz? Ah, iştə batalyon komandanı.

Yanındakı poruçik camaata xitabən:

– Cənablar, biz yorulmuşuq. Mən də, əfəndi də acız! – deyə darıldı. Ara bir az sakitləşdi. Poruçik ilə tamş oldum.

Tazə yatalaq (tif)dən sağalmış və qüvvətə gəlmək üçün Tiflisdə müalicəyə gediyordu.

Tazə adama əvvəlki sözü, görünən, minnətdar olduğu Zemski soyuz firqəsinin səhiyyə dəstəsindən razılıq etmək onun fədakarlığından, orada işləyənlərin gördükləri işə səmimiyyətdən danışmaqdan ibarət idi.

– Mənim və bir çox arqadaşlarımın sağ qalmamıza səbəb, mübaliğəsiz deyə bilmərəm ki, zemstvo firqəsinin fədakaranə işləməyi bais olmuşdur! – deyirdi.

– Gecənin hansı saatında, dedi, səsinizi çıxarsanız, şəfqət bacısı yerindən fırlayıb ailə kimi başınıza dolanıb, canını yaralıya sərf etməyə hazırdır.

Bundan sonra sözünü əsirə keçirtdi:

– Yanımdakı zabit, dedi, batalyon komandanıdır. Bir il müddətində neçə dəfə dava meydanına hər ikimizin firqələri qarşı-qarşıya gəldilər. Axırda əfəndi Xınısda yaralanaraq əsir düşdü. Bir qaç vaxt xəstəxanada bir yerdə yatdıq. Türkcə bildiyimə görə çox söyləşdik. Şimdi Rəşidbəyi də (əsirin adıdır) bənimlə götürüyoram ki, yolda ona əziyyət olmasın. Tiflisdə də bir yerdə qalacağız, – dedi.

İki düşmən zabitinin arasında görünən bu mehribançılığı anlamaq istədikdə mənsub olduqları millətlərin ürək təmizliyini və aliconablığını da unutmamalı.

Poruçikin iznilə Rəşidbəylə qonuşdum. Kəndisi Bağdaddan olub, bu davada iki dəfə yaralanmış, dediyinə görə sıradan çıxmamış, Xınısda isə üç yerindən yaralanıb əsir düşmüş. Rus həkimlərindən razılıq ediyordu ki, buna lazımınca diqqət etdilər və yaralarını sağaltdılar.

Qatar gəldi, miniklər üzərinə hücum edib, qapıları tutdular və dava öz qaydası ilə getdi.

Bən də bir yerləşdim. İttifaqən iki zabitlə bərabər bir kupedə oturdum.

Hərə əlinə keçirdiyi təzə qəzetlərə göz gəzdiriyordu. Bir qədər oxuduqdan sonra yenə söhbətə keçdik.

Rəşid pəncərələrdən görünən tarlaları, bağları görüb:

– Əfəndim, iştə bizim Bağdad tərəfi də bu çeşid, düzlük, tarlalıq, baqqalhq. Amma əfəndim, bu Gürcüstan nə kötü yer. Bütün daş, qaya, düz yer yox ki.

– Əfəndi, bizim şiməndafermi yaxşı, ya sizinkimi? – deyə praporşik N. əsirdən soruşdu.

– Təbii, bizimkilər daha iyidir!

– Oho! Bu necə ola bilər?

– Öylə ya, əfəndim, yolların çoxu Almaniya kompaniyasının deyilmi? Bunlar da "vaqon"mı deyirsiniz, Almaniyadan gəlir.

Yanımızda oturan bir cəvanə xanım indiyə qədər diqqətlə əsirin üzünə, əlbəsəsinə baxırdı. Axırda, görünür, tab gətirməyib Rəşidbəyə müraciətlə:

– Niyə çininiz (ipolit) yox və əlbəsəniz böylə qabadır?

Əsir bir az ara verib, cavabında:

– Xanım əfəndi! Müsafirlik niyyətimdə yox idi. Sizinlə böylə oturacağımı bilsəydim, ziyafət əlbəsəmi geyərdim! – Və genə bir qədər ara verib kəlamını bu cümlə ilə qurtardı:

– Allaha təvəkkülüm çox qüvvətlidir. Hərbdə oldum. Ataş içində bulundum. Lakin bir an hər şey Allahın qüdrətindən olduğunu yaddan çıxartmadım və yenə də imanım möhkəmdir.

Fikrim bənim bu axırkı sözlər üstündə işləməkdə idi.

Qəzetlərdə oxuduğumuz, qismən gördüyümüz alman zabitləri Rəşidbəyin qılınc arqadaşları nə qədər buna bənzəməz, bu ölçüyə girməzlər.

Rəşidbəy iri bədənli, uzun boylu "təvəkkülə" inanmış, kəndi fəaliyyətini, qüvvətini, diləyini heçə sayan Rəşidbəy – iştə Şərq, Şərqin nümunəsi.

Arqadaşı alman zabitini sorsanız, ondan "təvəkkül" yerinə ancaq: "Döyüşland, döyüşland, opir alles!" (Germaniya, Germaniya hər şeydən ucadır) cümləsini eşidərsiniz. İştə Qərb, Qərbin nişanəsi!

Böylə kəndi kəndimə düşünüyordum. Bu anda bizim xəstə poruçik "M" əlini açıb və barmağındakı üzüyünə gözlərini dikib ahəstə səslə dedi:

– Cənablar! Bən fatalist deyiləm. Lakin Rəşidbəyin sözlərinə bən də şərikəm (Sağ əlini göstərərək):



– Baxınız, bu üzüyü görürsünüzmü ki, indi bir az da qaradır, bu bir mollanın baxışıdır. Bir çox vaxt İranda qaldım. Müsəlmanlar da mənim xatirimi çox istəyirlər. Ələlxüsus ki, bir molla məni çox istəyirdi. Bir gün bizim polka səfərə çıxmaq əmri verildi. Məni sevən haman molla yoluma xeyir-dua deyib bu üzüyü mənə bağışladı və heç bir surətdə barmağımdan çıxartmamağımı tənbeh etdi və dedi ki, bu üzük səni hər qəzadan, bəladan saxlar. Bu üzüyün qaşında on üç dana almas var idi. Neçə vaxt idi səlamət gəzirdim. Bir gün yaralandım. Bir neçə gündən sonra baxdım gördüm ki, üzüyün on üç alması düşübdür. Bir dəfə naxoşladım. Gördüm ki, üzük sarı rəngini itirib, bütün qaralıbdır. Mən sağaldıqca üzük də öz rənginə gəlməyə başladı. Bir müddətdən sonra Yatalaq naxoşluğuna tutuldum. Üzük də barmağımda qaralmağa başladı. Naxoşluğun böhranında ortasından çatlamış. Şimdi mən iyi olduqca üzük də saralır. Bizim həkim bu üzüyün xasiyyətinə təəccüb edirdi. İştə bu fəqərələr məni fatalist olmağa məcbur etdi. Görünür ki, boş deyil, qəzavü qədər əsaslı bir şeydir. Bu ili düşmənin xülqən, ruhən bir-birinə bu qədər oxşamaları məni mütəhəyyir etdi.

Yanımızda yeni bir söhbət davam edirdi. Mən daha qulaq asmayırdım. Çox yorulmuşdum, mürgülədim və yuxuya daldım. Səhər oyanıb stasiyonda durduğumuzu anladım. Ətrafa baxdım, zabitlər yox idi. Pəncərədən baxıb, poruçik Rəşidbəyin qoltuğuna girib getdiklərini gördüm. Tiflisin yaxınlığında Naftuluq stansiyanında olduğumuzu bildim. Qatar tərpəndi. Zabitlər əylənib döndülər. Gözlərimiz bir-birinə enişdi. Bir qaç dəfə əl saxlayıb vidalaşdıq. Pəncərəyə yanlanıb gördüyüm mənzərənin təsiri altında düşünürdüm. Günəş yeni doğmuşdu. Quşlar teleqraf telləri üzərindən uçuşub, ötüşürdülər və guya ki, dəli şairin:

> Səmadan bir mələk heyrətlə der: İnsanlar!
> İnsanlar!
> Nədir bu ruyi-ərzi qaplamış alqanlar?
> İnsanlar!

sözlərini oxuyurdular.

*ƏLİF CİM*

*"Açıq söz" qəzeti, 1916, 3 may*

*1911-ci il 30 may və 1 iyun, "Sədа" qəzeti*

*L.N.TOLSTOY*

# İLYAS VƏ ÖVRƏTİ ŞAMŞİMAQİ

Başqırd camaatindən Ufa şəhərində İlyas namində bir nəfər şəxs olurdu. Hərçənd İlyas atasından bir böyük dövlətə malik olmamış isə də ancaq dörd-beş camış, öküz, iyirmiyə qədər qoyun, keçi və bir qədər kənd ləvazimatına sahib idi.

Bir il olmamış idi ki, atası İlyası evləndirib özü vəfat etmiş idi, bunlar da ər-övrət sübhdən axşama qədər işləyir idilər. İlyasın o qədər işə şövqü var idi ki, sübh hamıdan tez durub işlərdi. Axşam isə hamıdan gec yatardı.

Bu surət ilə bunların mal və dövləti artıb böyük bir şöhrətşüar zat olmuş, bu növ ilə otuz beş ildə iki yüz at, yüz əlli öküz-camış, min beş yüzə baliq qoyun, keçiyə sahib olmuş idi.

Həmçinin lazim olan xidmətçisi olub, kişi nökərləri mal-qaranı mühafizə edib, yem, su verən kimi, övrət xidmətçiləri də süt sağıb, qatıx, pəndir, yağ kimi şeylər hazırlayır idilər.

İlyasın bu növ güzəranı camaatin diqqətini cəlb edib, deyirdilər: "Ah, nə xoşbəxt imiş İlyas, hər bir əşyası hazır; güzəranı gözəl, pul, mal, dövlət, övlad! Daxil bunun nə fikri olacaq; belə şəxs də olarmı? Xeyir, belə şəxs əsla olmaz!"

Camaat İlyasın əsl fikirlərindən xəbərdar olmayıb, həqiqətdə böyük bir xoşbəxt hesab edib bunun yerində olmalarını arizu edirdilər.

Səxavət, mürüvvətdə binəzir olan İlyasın evi əsla qonaqdan xali olmaz idi, hər bir gələn qonaq üçün qoyun, keçi kəsib, xörəklər hazırlayıb, mövcud olan süt, qatıx, pəndir, yağ yedirməkdən əsla müzayiqə etməz idi.

İlyasın bu zəmaninədək ancaq iki oğlu və bir qızı olub, cümləsini evləndirmiş idi. Hələ bu zəmanəyə yetişməmiş ikən oğulları ataları ilə bərabər işləyib, gözəl güzəran edirdilər.

Elə ki, İlyasın zikr olunan halı gəldi, yəni fələlikdən qurtarıb, işlər xidmətçilərə vagüzar oldu, oğlanları hər bir işdən əl çəkib pulların başını dağıtmağa əl açıb əllərindən gələn nadincliyi geri atmadılar.

Bunun nəticəsi olaraq oğlunun birisi qəzanın gətirdiyinə görə bir gülləyə qurban olmuş idi. Digəri isə övrətinin məkr-hiyləsinə və ya gəlin ilə qaynananın mübahisəsi üstə mehriban olan atanın sözünə əsla həvaleyi-səmi-etibar etmirdi.



İlyas bunun çarəsini oğlunun ayrılığından ibarət olduğunu bilib bir qədər mal-dövlət verməklə özündən ayırdı.

Bundan sonra İlyasın mal-dövləti gün-gündən tənəzzül edib, bədbaxtlıq əsəratı görünür idi. Bəd havanın bədliyi, yağış olmaması göyərtinin puç olmasına səbəb olub, aclıq ili aralığa gəldi. Həmçinin mal-qara tələf olub, İlyasın ev əşyasını satmasına səbəb oldu.

Qərəz mal-dövlət əldən gedib, ər-övrət qocalıb, qüvvələr zəiflənib, işləməyə taqət qalmayıb, sinniləri yetmişə çatmış halda heç bir şeyə gümanları gəlməyib, sinnilərinin bu vaxtında yovmiyyə ruzilərindən biri digərinə qulluq etməyə ər-övrət məcbur oldular.

İlyasın bu qədər mal-dövlətindən ancaq əynində bir dəst paltar ilə qocalmış olan övrəti qalmış idi. Ayrılan oğlu uzaq bir vilayətdə güzəran edib, əsla atasından bir xəbər tutmazdı. Qızı isə vəfat etmiş idi. Bu növ ilə qoca İlyas ilə övrətinin köməyinə heç bir gələn yox idi.

Fəqət, İlyasın səxavət və mürüvvətinin nəticəsi olaraq qonşusunda olan Şahməmməd bunun halına təəssüf çəkib, imdadına yetişməyi fikr edir idi. Hərçənd Məmməd kişi də, bir o qədər dövlətli şəxs deyil, idisə də ancaq güzəranı çox təng olmayıb müsaidə edirdi.

Məmmədin fikrinə gəldi ki, əlbət lazımdır bunlara hörmət edib, kömək almaq ondan ötəri ki, bunun çox çörəyini yeyib, yavuq dostlarından hesab olmuşuq. Bir növ xəyanət edib, tainki bu gün İlyasın yanına gəlib dedi:

– Sən və övrətin Şamşimaqi gəlib bizdə güzəran edib, ömür sürünüz. Yazda mənimlə bağçada işlə, qışda da mal-qaraya bax, yem, su ver. Şamşimaqi isə süt sağıb, qatıq, yağ hazırlasın, mən sizi saxlaram, yemək, içmək, paltar verib, hər nə lazim isə sizdən əsla müzayiqə etmərəm.

İlyas razı olub, ər-övrət hər ikisi Məmmədə qulluq etməyə başladılar. Hərçənd əvvəlcə belə işlər bunlara çətin gəlirdisə də bir azdan sonra öyrəşib, var qüvvələri ilə işləyib, burada ömür sürdülər.

Şahməmməd bu növ qoca adamlar saxlamağı xoşlayır idi. Ondan ötəri ki, bilirdi belə adamlar düzlük ilə işlərlər və var qüvvələrini bazuya verib, işdə heç vaxt kahallıq göstərməzlər. Həm də cəmi işlərə bələd, özləri də dünya görmüş.

Bunların bu ali mərtəbədən bir növ alçaq mərtəbəyə gəlmələrinə baxmağa Məmmədə həya mane olur idi.

* * *

Bir gün Məmmədə uzaq yerdən qonaqlar gəlib. Axundları da gəlmiş idi.

Məmməd isə qonaqlar üçün qoyun kəsib xörəklər hazır etməsini İlyasa əmr etmiş idi. İlyas da o saat qoyun kəsib, xörək hazır edib, qonaqlar üçün gətirdi. Həmçinin hazır olan yağ, qatıq, pəndir qonaqlar üçün gəldi.

Qonaqlar xörək yeyib doyandan sonra hərəsi bir tərəfə çəkilib, döşəklər üstə əyləşib, balış-mütəkkələrə söykənmiş halda kimi çay içir, kimi qəlyan çəkir və xoş söhbətlər edib, gülüşürdülər.

Bu halda İlyas öz işlərindən fariq olub, qapının ağzından keçdi. Məmməd bunu görən kimi qonaqlara xitabən: "Qapının ağzından keçən qoca kişini gördünüzmü?" – deyə sual edincə: " – Bəli, gördük. Bir təəccüblü şəxsdir?" cavabını alınca biri başına hərəkət verib dedi: "Bəli, çox təəccüblü şəxsdir". Ondan ötəri ki, bu bizim ən məşhur, ən səxi, ən dövlətli və ən mürüvvətli şəxslərimizdən biri idi.

– Adı İlyasdır. Eşitmisinizmi? –sual edincə, qonaqlar: "Bəli, eşitmişik! Hərçənd özünü görməmişik. Fəqət mübaşir olduğu gözəl işləri eşidib, gözəl zat olduğunu bilmişik".

Məmməd bunların sözlərini eşitcək dedi:

– Haman bu tərif etdiyiniz adam yomiyyə ruzilərinə möhtac olduqlarına görə ər və arvad mənə qulluq edirlər!..

Bu sözlər qonaqlara təəccüb gəlib, barmaqlarını dişlərinə tutub, bir az sükutdan sonra birisi dedi: "Bəli, görünür ki, baxt çarx kimi fırlanıb, birisini ali mərtəbəyə, digərini alçaq mərtəbəyə artır!"...

Şahməmməd bir qədər dəryayi-təfəkkürə qərq olandan sonra dedi: "Bəli, kim bilir dünyanın işi necə olacaq? Mən özüm də qoca kişiyəm. İndi İlyas burada işləyir, özü əmin, qalmaqalsız dolanır, gözəl..."

Söz bu yerə çatanda qonaqlardan biri dedi: "Onun özü ilə görüşmək mümkün olsaydı. Bir az keçmiş güzəranından bizim üçün söhbət edərdi!.."

Bu vaxt Şahməmməd qapı tərəfə üz tutub dedi: "İlyas, qoca nənəni də götürüb çay içməyə gəliniz!".

Bunlar da o saat içəri girib, qonaqlar ilə görüşdükdən sonra, İlyas qapının ağzında ikən, dizləri üstə əyləşib, nə sual veriləcəyinə müntəzir idi. Şamşimaqi isə pərdənin dalına keçib, Məmmədin övrəti ilə əyləşdi.



Bu halda İlyasa da bir fincan çay verdilər. Bu da özünə bir hərəkət verib, xanda söykənmiş halda çay içməyə məşğul oldu. Bir-iki qurtum içdikdən sonra fincanı yerə qoyub, qonaqlara baxırdı. Qonaqlar isə İlyası əvvəlinci dəfə görüb keçən halını və Məmmədin zikr etdiyi sözlərini təxəttür edib, fikir dəyrasına qərq olmuş halda məclisi sakitlik bürümüş idi.

Birdən, qonaqlardan biri, İlyasa xitabən:

– "Görükür, qabaqkı günlərini dərxatir edib, təəssüf çəkirsən? Mümkün isə öz keçən halından bizim üçün bir nəql elə!"

İlyas bir təbəssüm izhar edib, guya özü danışmaq istəmədiyini belə dedi: "Əgər mənim bədbəxt və xoşbəxt olmağımdan danışsam, ola bilər inanmayasınız. Həqiqəti halı bilməkdən ötəri mənim övrətimdən sual ediniz, o sizə əhvalatı nəql edər. Necə onun ürəyidir, dili də elədir. Sizə doğrusunu söylər".

Qonaqlar bu sözləri eşidən kimi birisi mütəvəccöh olub dedi: "Siz söyləyiniz görək, qabaqkı xoşbəxt günlər ilə, indiki qəmli günlər ilə necə güzəran edirsiniz?"

Şamşimaqi pərdənin dalından cavab verdi: "Görünüz necə güzəran edirik! Tam əlli ildir ki, bir qoca kişi ilə ömür sürüb, xoşbaxtlıq arayırdıq. Tapmayırdıq. İndi ikinci ildir ki, əlimizdə heç bir şey qalmayıb, burada qulluq edirik. İndi tapdıq. Bundan başqa heç bir şey lazım deyil".

Övrətin bu sözləri məclis əhlinə təəccüb gəldi. Məmməd isə təəccübünün çoxluğundan özünü pərdə tərəfinə atıb, pərdəni qalxızdı. Baxıb gördülər ki, qarı qocasına baxıb gülür. İlyas da qonaqların təəccübünə və qarısının gülüşünə baxıb gülür.

Şamşimaqi bunların təəccübünü görüb dedi: "Mən doğru deyirəm. Zarafat etmirəm. Neçə müddətdir xoşbaxtlıq arayırdıq. Mümkün olmayırdı. Dövlətli olduğumuz zamanda da bu xoşbaxtlığa nail olmadıq. İndi ki, heç bir şeyə gümanımız yox özümüz də xidmətçilik ilə güzəran edirik, indi tapdıq!"

Qonaqların təəccübü daxı da ziyadə olub, dedilər: "Nə xoşbaxtlıq tapdınız?" Qarı cavab verib dedi: "Qulaq veriniz deyim. Nə xoşbaxtlıq tapdıq".

Biz dövlətli olan zaman bu qoca kişi ilə bir saat da olsa aram olmayırdıq. Nə bir söhbətimiz olurdu, nə bir öz vücudumuza fikir verir idik. Nə də Allah-taalanı nəzərə gətirib, ibadət edir idik. Ancaq fikrimiz bu olurdu ki, hansı qonağa nə növ xörək verək: hansına nə bəxşiş

edək? Xidmətçilər nə növ işləyirlər? Yenə fikir edirdik mal-qaranı nə növ saxlayaq ki, qurdlardan quldurlardan səlamət qalsınlar.

Bunlar hamısı gündüz əhvalatı. Axşam olur, yatmağa məşğul oluruq. Birdən xəyalə gəlir, yox, yəqin qoyunlar quzuları tapdadı, cücələri siçanlar apardılar. Töylədə danalara soyuq olacaq. Bu növ yuxu qaçır. Gecənin o aləmində nigəran olmaqdan ötəri gedib baxır idim. Hamıdan xatircəm olandan sonra gəlirik yatmağa. İndi xəyala gəlir: qışda malları necə saxlamaq? Bu xəyallar ilə yenə sübh açılıb, işlərə başlar idik.

Elə təəccüb burasıdır ki, bu qoca kişi ilə heç sözümüz də gəlməyib. Həmişə mübahisə edir idik. Bu növ ilə zəngin vaxtımız: fikirlər, qəmlər, bəlkə günahlar ilə keçib, bircə xoşbaxtlıq üzü görməmişik!..

Bu halda qonaqlardan biri qarının sözlərini kəsib, dedi: " Bəs indi xoşbaxtlıqdan bir əsər vardırmı?"

O vaxt qarı cavab verib dedi: "Bəli, vardır! İndi sübh uyqudan qalxıb, bir-birimizlə gözəl söhbət edib, heç bir şeydən mübahisə etmirik. Məhəbbətlə və gözəl rəftar edirik. Məlumdur ki, insan fikirsiz olmaz. Bizim fikrimiz budur ki, ağamız üçün var qüvvə ilə işləyək, ta böyük mənfəətlərə nail olub, zərər çəkməsin.

Həmçinin işdən fariq olan kimi xörəyimiz hazır, habelə paltarımız və hər ləvazimat hazır, heç bir şey bizdən müzayiqə olunmayır.

İndi öz güzəranımıza fikir verib, qabili-ibadət olan Allah-taalaya ibadət edirik. Budur əlli ildən bəri aradığımız xoşbaxtlıq. İndi nail olduq. Bundan başqa bizə heç bir şey lazım deyil".

Qarının bu sözlərinə qonaqlar güldülər isə də İlyas əsla gülməyib, qəmli bir halda qonaqlara xitabən: "Gülməyin, əziz qardaşlar!" Bu sözlər lətifə sözlərdən deyil, bəlkə insan güzəranıdır, ağlımızın azlığına görə dövlətimizin olmasından ötəri qabaqlar ağlayırdıq. İndi haqq Taala bizim üçün həqiqət yolu açıb, gözəl güzəranımıza səbəb olub.

Bu sözləri açıb deməkdə məqsudumuz halımızdan şikayət etmək deyil. Bəlkə sizin sualınıza gözəl nəql elədik.

O tərəfdən axund sözə ağaz edib, dedi: Bəli, bunlar bir nəsihətamiz sözlərdir. Dərhəqiqət İlyas doğru və ağıllı sözlər söyləyir. Həttabunlar bizə xəbər verilibdir.

Bu sözlərdən sonra məclis əhli gülməkdən əl çəkib, böyük fikrə düşdülər.

*Mütərcimi: Əhməd Axundzadə*



## MÜNDƏRİCAT

Cümhuriyyət dövrü və onun poeziyada yaddaşı – Əhməd Cavad .........4

ŞEİRLƏR

*Mədrəsə şeirləri*

Gəldim Gəncəyə .....13
Rübailər .....14
Uşaqlığım .....18
Lirik parçalar .....18
Qəzəllər .....20
Yazım, gəl, baharım, gəl .....22
Yuxuma gəlmişdin... .....22
Sevgi candan ayrılmaz .....23
Olmaz .....24
Səhər-səhər .....25
Mərsiyə .....26
Mirzə Abdulla (Sur) Məmmədzadə .....26

*"Şükriyyənamə"dən səhifələr*

Keçər .....28
Gözüm gördü, könlüm sevdi .....28
Mən tapmışam .....30
Surətpərəstəm .....31
Bir bilən yox ki... .....33
Qaldı .....33
Dönür .....34
Bir gün .....34
Qitələr .....35
Sevməsəydim səni mən .....37
Şükriyyəm üçün .....39
Qurban olduğum .....40
Gəncədən gəlirəm... .....41
"Səhər zamanıydı əsərkən yellər..." .....42
Bənzərdi .....43
Leyla .....43
Beytlər, üçlüklər və dördlüklər .....44
Səslər .....45
Nə yazım .....47
Bunumu istərdin .....48

O qıza .48
Sən ağlama .49
Aşağı-ləngər xuluqda .50
Madonnaya .51
Bir səs tutdu tarixin .52
Nə üçündür .52
Adsız şeir .54
Beşik .54
Gəlin .55
And olsun .56
Gözəl qadın .57
Çoban qızı .57
Unudulmuş sevda .58
Gözüm yoldadır .59
Y.P.Orbeliani .60
Küsəyənlərə .61
"Dünya dəyişmişdir artıq..." .61
At bu çadranı .62
Səsli qız .66
Şərqi .83
Almasım üçün .87
Qızıma .88
Maxmurova üçün .89
Qızım üçün .89
"Ay"a .97
Pərizadə .100

*"Qoşma" kitabından səhifələr*

Yaralı quş .101
Sən!.. .102
Dilimiz .102
Quşlara .103
Şerim .104
M.Ş. .104
Şerimə .104
Müəllim .105
On il sonra .105
Beş il sonra .106
Qaldı .106
Xortdan .107
H-C .107



"Qara günlər əl götürməz yaxamdan..." .108
Dan ulduzu .108
Qafqazlısan, sev qafqazı! .109
Ana .110
Balalarıma .110
Ümidimə .111
Nədən yarandın .112
Dərdim .113
Şerim .113
Qaspirinski üçün .114
İmansıza .114
Ona! .115
Şəhid əsir .116
Hərbzadələrə .116
Nə gördümsə .118
İmdad .119
Niyə gəlmədin? .120
İraq .121
Haralısan .121
Münacat .122
Axşamlar .123
Mayıs .124
Oyan .125

*"Dalğa" kitabından səhifələr*

Azərbaycan bayrağına .127
Bən kiməm? .128
Gəlmə .128
Elin bayrağı .129
Al bayrağa .130
Röyasını görmüşdüm .131
Yazıq .132
İstanbul .132
Aşiqin dərdi .134
Kuropatkinə .135
Bismillah .137
Bən bulmuşam .138
Çırpınırdın qara dəniz .140
İngilis .140
Ey əsgər! .141
Türk ordusuna .143

Dərdim .......... 144
Şəhidlərə .......... 145
Of, bu yol .......... 145
"Of, çəkilsin cəhənnəmə bir pərdə..." .......... 147

*Bayatılar* .......... 148

*Etnoqrafik etüdlər*

Novruz şeirləri

Çillə şərqisi .......... 194
Yaza xitab .......... 195
Böyük çillə .......... 196
Kiçik çillə .......... 197
Xıdır Nəbi .......... 197
Yel Baba .......... 198
Qarının borcu .......... 199
Boz ay .......... 200
Dördatlı yenicə gün .......... 202
Dörd çərşənbə .......... 203

*Müxtəlif əsərləri*

Marş .......... 206
Gəncəyə ithaf .......... 207
"Vankə" .......... 207
Quq-qulu-qu! .......... 208
Milli marş .......... 209
Dağlar .......... 210
Azərbaycan, Azərbaycan .......... 213
Gəncəm, hey... .......... 214
Volqa aclarına .......... 216
Məsabəyinin nitqi .......... 217
Vətəndaş .......... 218
Ağlayırdım, gülürəm! .......... 218
Azərbaycana .......... 220
Yarlınqac .......... 220
İdilboyu acları .......... 222
Kölgəm ilə mən .......... 223
Əfəndiyə .......... 223
Uşaqların əylənməsi üçün .......... 224
Yeni türk əlifbaçılara .......... 224
Tarixi-müqəddəs .......... 225



Olsun qoy .......... 227
Sənət qəhrəmanlarına .......... 228
Göy göl .......... 229
Ey göy gölüm .......... 230
Füzuli .......... 231
İşçi .......... 232
Gəlmişəm pambıqlar diyarından... .......... 233
Kür .......... 234
Pambıq dastanı .......... 241
"Bir sasani şah məndən..." .......... 249
Gürcüstan .......... 252
Gəldim .......... 255
Mən olaydım .......... 255
Gözünə döndüyüm .......... 257
Ayla Günəş .......... 259
"Mən tuqayam, bir qışam..." .......... 261

*Satirik-yumoristik şeirlər və həcvlərdən nümunələr*

Həcv .......... 262
İsfəndiyar üçün .......... 263
Ağamirin toyunda .......... 264
Məsciddə meyxana .......... 265
Şairə sataşdınsa .......... 266
Gəncəli dostlarıma .......... 267
Dostum xanəndə Əsgərə .......... 269
Qocalıqda yorğalıq .......... 270
Həcv I .......... 273
Səllallah .......... 274

HEKAYƏLƏR

Leyla .......... 279
İki düşmən .......... 282
İlyas və övrəti şamşimaqi .......... 286

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektor: | *Elmira Teymurova* |

Yığılmağa verilmişdir 27.07.2004. Çapa imzalanmışdır 09.01.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 18,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 5.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.